# 12 Dekabr Ulu Öndər Heydər Əliyevin Anım Günüdür


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 262 (30956) 12 dekabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


***Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyev ölkəni inkişaf etdirməyə başladı.***

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

# Müstəqil Azərbaycan Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir



## Henri Kissincer: Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilər olduqca nadir bir haldır



Səhifə ⇨ 6

## Qərbi Azərbaycan, Ermənistan və Paşinyan

### *Yaxud Nikolun yeni "yol xəritəsi" məntiqinə sözardı*

**Ermənistanın baş naziri Nikol Paşinyan Hamburqda jurnalistlərlə görüşündə dedi ki, Azərbaycanda bir tərəfdən "Qərbi Azərbaycan" ifadəsini dilə gətirirlər, digər yandan Qarabağ ermənilərinin qayıdışı məsələsinə "ilişirlər". Nikolun sözlərindən belə çıxdı ki, ifadələrin heç biri işlədilməməlidir. Buna yol verilməməsi üçün Ermənistan Azərbaycanla birlikdə nəzarət mexanizmi – "yol xəritəsi" müəyyənləşdirməlidir. Baş nazirin "yol xəritəsi" barədə sonda söz açacağıq. Hələlik isə...**

Həqiqətən, Paşinyan kifayət qədər maraqlı məqama toxunur. O bildirir ki, əgər Azərbaycan və Ermənistan bir-birilərinin ərazi bütövlüklərini və suverenliklərini tanıyıblarsa, onlar öz torpaqlarında olmayan ərazilər üzərində adlandırmalardan istifadə etməməlidirlər. İlk baxışdan, Nikolun düşüncələrini normal saymaq mümkündür. Amma...

*(ardı 19-cu səhifədə)*

## Öndərin qayıdışı...



*Öndərin qayıdışı – Xilaskar gəlişiydi –*
*Müqəddəslər Kitabla, Öndər – Bayraqla gəldi,*
*Həmin ilin payızı – bahardan fərqlənmədi –*
*yeni bir təntənəylə, gözəl növraqla gəldi.*

*Öndərin qayıdışı son qoydu məmləkətdə*
*kürsülər savaşına,*
*Xalqın üstünü aldı – qalanda özbaşına,*
*Öndərin gəlişiylə axan qanlar dayandı,*
*ətalət girdabında çaşıb-qalan millətim*
*yuxusundan oyandı!*

*Öndərin gəlişiylə – düşmən başa düşdü ki,*
*atını oynatdığı xana o xana deyil,*
*"xınası" da dəyişib – "xına o xına deyil"*

*Öndərin gəlişiylə – əldən düşmüş əsgərin*
*qədəmləri bərkidi,*
*əzabla ötən illər Millətimin bəxtinə*
*yazılmış bir görk idi.*

*Öndərin qayıdışı – Millətimə zülm edən*
*vaxtın gözünü oydu,*
*Qırx Dörd Günlük savaşda*
*çalınmış Zəfərlərin*
*bünövrəsini qoydu...*

**11.10.2025**

***Vahid ƏZİZ,***
***Xalq şairi***

***Heydər Əliyev hər xalqa, bəlkə də, əsrdə bir dəfə qismət olan qənimət, nadir şəxsiyyət idi.***
***Həyata qalib kimi gəlmişdi. Xalqı vəfatıyla sarsıdan, sarsıdaraq birləşdirən, kədərləndirərək bütövləşdirən Heydər Əliyev ölümüylə də zəfər çaldı. Kim nə deyir-desin, nə yazır-yazsın, qalib gəldi, qalib getdi.***

*Anar,*
*Xalq yazıçısı*



## Heydər Əliyev: Liderin zəka və qətiyyəti




Səhifə ⇨ 13

# Azərbaycan və Türkmənistan dostluq və qardaşlıq orbitində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib.**

Dövlətimizin başçısı Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Qurbanqulu Berdiməhəmmədovu təbrik edib və qardaş Türkmənistana uğurlar arzulayıb.

Prezident İlham Əliyev dekabrın 12-də Azərbaycanda ümummilli lider Heydər Əliyevin anım gününün keçirildiyini deyərək, Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü ilə bağlı keçirilən tədbirlərdə iştirak edə bilməyəcəyini bildirib, həmin tədbirlərdə Azərbaycanın Baş nazirinin iştirak edəcəyini vurğulayıb.

Bir neçə gün əvvəl Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərinə toxunan dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinə göstərilmiş diqqət və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Prezident İlham Əliyev Heydər Əliyev Fondu ilə Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondu arasında imzalanmış Anlaşma Memorandumunu əməkdaşlığımızın növbəti göstəricisi kimi qiymətləndirib.

Azərbaycan Prezidenti ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olmasında Türkmənistanın birmənalı və tam dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı salamlarını və Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə təbriklərini Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov telefon zənginə və salamlara görə minnətdarlığını bildirib.

Qurbanqulu Berdiməhəmmədov Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı başsağlığını çatdıraraq, onun böyük şəxsiyyət olduğunu və xatirəsini dərin hörmətlə andığını vurğulayıb. Türkmənistan Xalq Məsləhətinin sədri Ümummilli Liderin ölkələrimiz arasında əlaqələrin inkişafında böyük rolunun olduğunu qeyd edib.

O da öz növbəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərini, Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva ilə görüşünü çox yüksək qiymətləndirərək imzalanmış sənədin böyük əhəmiyyət daşıdığını deyib.

Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olması münasibətilə təbriklərini çatdıraraq, Türkmənistanın həmişə bu məsələni dəstəklədiyini vurğulayıb.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# “Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, məhkəmə ekspertizası sahəsində dövlət idarəetməsinin və tənzimlənməsinin təkmilləşdirilməsi, habelə bu sahədə fəaliyyətin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə **qərara alıram:**

**1** “Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya” (bundan sonra – Konsepsiya) təsdiq edilsin *(əlavə olunur)*.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 dekabr 2025-ci il**

# Əli Əsədov Ulu öndərin məzarını ziyarət edib



**Baş nazir Əli Əsədov dekabrın 11-də Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib.**

Nazirlər Kabinetindən bildirilib ki, Baş nazir dahi rəhbərin xatirəsini anıb, abidəsi önünə gül dəstəsi qoyub.

***XQ***

# WUF13 Təşkilat Komitəsinin növbəti iclası

**Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin dekabrın 11-də növbəti iclası keçirilib.**






Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma fəaliyyətinin prioritet istiqamətlərdən biri olduğunu deyib. Ölkəmizdə bu sahədə formalaşdırılmış müasir yanaşmaların iqtisadi dayanıqlılığın möhkəmləndirilməsinə, sosial rifahın artırılmasına və iqlim dəyişikliklərinə səmərəli uyğunlaşmanın təmin olunmasına xidmət etdiyini söyləyib.

Samir Nuriyev son beş il ərzində xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını, sistemli planlaşdırma prinsiplərini rəhbər tutduğunu və yüksək icra potensialını aydın şəkildə nümayiş etdirdiyini vurğulayıb. Azərbaycanın postmünaqişə dövründə tətbiq edilən sürətli bərpa və quruculuq işlərinin yeni inkişaf modelini formalaşdırdığını deyib.

Təşkilat Komitəsinin sədri bu nailiyyətlərin Azərbaycanın təcrübəsinə beynəlxalq səviyyədə də marağı artırdığını, ölkəmizi bu sahədə etibarlı tərəfdaş kimi tanıtdığını qeyd edib. O, WUF13-ün 2026-cı ildə Bakı şəhərində keçirilməsinin Azərbaycanın beynəlxalq şəhərsalma proseslərinə verdiyi töhfənin, dayanıqlı inkişaf istiqamətində həyata keçirdiyi siyasətin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın bariz göstəricisi olduğunu söyləyib.

Samir Nuriyev WUF13-ə hazırlığın dövlətimizin başçısının birbaşa diqqət mərkəzində olduğunu vurğulayaraq, ilk iclasdan ötən müddətdə bu tədbirə hazırlıq çərçivəsində görülmüş işləri qeyd edib.

Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, təşkilati-logistika sahələrində görülmüş işlər və gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə əlaqədar qarşıya qoyduğu vəzifəyə uyğun olaraq WUF13-ə hazırlıq prosesi, o cümlədən Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.

***XQ***

# Baş nazir Əli Əsədovun Türkmənistana işgüzar səfəri





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 11-də Türkmənistana işgüzar səfərə gedib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Aşqabad Beynəlxalq Aeroportunda Baş nazir Ə.Əsədovu Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Mammetxan Çakıyev və digər rəsmi şəxslər qarşılayıblar.

## Əli Əsədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb

**Aşqabad şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 11-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb.**

Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və Türkmənistanın daimi neytrallığının 30 illiyi münasibətilə təbriklərini bu ölkənin dövlət başçısına çatdırıb.

Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevin salamlarına və təbriklərinə görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan ilə Türkmənistan arasında siyasi dialoqun yüksək səviyyədə olduğu vurğulanıb, qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

*

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkmənistana işgüzar səfəri çərçivəsində dekabrın 11-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb.

İ.Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, neft-qaz, yaşıl enerji, humanitar və digər sahələrdə inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran aktual məsələlərə xüsusi diqqət yetirilib.

***XQ***

# Macarıstan Prezidenti Azərbaycanın xarici işlər nazirini qəbul edib



**Dekabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Macarıstana işgüzar səfəri çərçivəsində bu ölkənin Prezidenti Tamaş Şuyok tərəfindən qəbul olunub.**

Görüş zamanı Azərbaycan və Macarıstan arasında dostluq, qarşılıqlı hörmət və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlığın inkişafı məmnunluqla qeyd edilib. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin, daimi siyasi dialoqun, xalqlar arasında təmasların, ölkələrimiz arasında humanitar əlaqələrin vacibliyi vurğulanıb.

Bununla yanaşı, sentyabrın 5-də Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan və Macarıstan Hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın XI iclasının nəticələrinin münasibətlərin inkişafına əlavə təkan verdiyi bildirilib.

Görüşdə Macarıstanın xüsusilə enerji sahəsi olmaqla, ölkəmizdə 3-cü böyük investor olduğu qeyd edilib, bununla yanaşı, əczaçılıq və bir sıra digər istiqamətlərdə sərmayə planları nəzərdən keçirilib. Hava nəqliyyatı sahəsində əməkdaşlığın inkişafından məmnunluq qeyd edilib, yaşıl enerji, tranzit-kommunikasiya, təhsil təqaüdlərinin verilməsi və digər istiqamətlərdə işlərin əhəmiyyəti diqqətə çatdırılıb.

Bu və digər məsələlərin müfəssəl şəkildə 3-cü Azərbaycan-Macarıstan Strateji Dialoqu çərçivəsində müzakirə ediləcəyinə dair əminlik ifadə olunub.

***XQ***

# Azərbaycan–Keniya əməkdaşlığı müzakirəsi

**Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev bu ölkənin Baş naziri, eyni zamanda, xarici və diaspor işləri naziri Musalia Mudavadi ilə görüşüb.**



Görüşdə iki ölkə arasında münasibətlərin cari ildəki inkişaf dinamikasından razılıq ifadə edilib və il ərzində baş tutan yüksəksəviyyəli səfərlərin müxtəlif sahələrdə əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə olduğu vurğulanıb.

Baş nazir M.Mudavadi sentyabrın 23-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Prezident İlham Əliyev ilə Prezident Uilyam Samoei Ruto arasında keçirilən görüşün və liderlər arasında səmimi münasibətlərin iki ölkənin mənafeyinə xidmət etdiyini bildirib.

Səfir həmsöhbətini, həmçinin 2026-cı il mayın 17-22-də Bakıda keçiriləcək WUF13-ün hazırlıq prosesi, təşəbbüslər, planlaşdırılan tədbirlər barədə məlumatlandırıb.

Görüşdə “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı çərçivəsində keniyalı gənclərə verilən təqaüdlərin, Heydər Əliyev Fondunun və Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyinin Keniyadakı məktəb və xəstəxanalara göstərdiyi humanitar yardımların iki xalq arasında dostluq münasibətlərinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verdiyi bildirilib.

***XQ***

# Heydər Əliyevin akademiklik seçkisi və Akademiyanın dövlətçilik dərsləri

## Unudulmaz səhifələr

(əvvəli 11 dekabr tarixli sayımızda)

Ümumi Yığıncaqda çıxış edənlərdən akademik **Kamal Talıbzadə** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ədəbiyyat və incəsənət sahəsində dərin biliklərə malik olmasından, azərbaycançılıq konsepsiyasını meydana qoymasından, akademik Musa Rüstəmov dahi şəxsiyyətin Akademiyanın həqiqi üzvü seçilməsini böyük şərəf işi hesab edilməsindən, akademik **Böyükkişi Ağayev** "hərtərəfli inkişaf etmiş siyasi bir alim kimi" gördüyü Heydər Əliyevin tibb elmi sahəsindəki xidmətlərindən, akademik **Məhərrəm Məmmədyarov** regionlarda elmin inkişafı sahəsindəki səmərəli fəaliyyətindən danışmaqla, akademik **Musa Musayev** onun biologiya və kənd təsərrüfatı sahəsindəki biliklərini və xidmətlərini xüsusi qeyd etməklə, Xəzər dənizinin dərindən tədqiq edilməsi üçün Akademiyaya "Elm" adlı gəminin verilməsindən böyük iftixar duyğusu ilə söz açmışlar. Akademik **Hacıbəy Sultanov** isə Azərbaycan astronomlarının qalaktikadakı bir ulduza Heydər Əliyevin adını verdiklərini Ümumi Yığıncağın iştirakçılarının nəzərinə çatdırmışdır. Ümumi Yığıncaqda seçkilərin keçirilməsi üçün Hesablama Komissiyasının sədri seçilmiş akademik Maqsud Əliyev səsvermənin nəticələrini elan etmişdir:

*"Hörmətli toplantı iştirakçıları!*

*AEA-nın bugünkü yığıncağında 30 nəfər akademiya üzvü iştirak edir, onlardan 26 nəfəri həqiqi üzvdürlər. Gizli səsvermədə 30 nəfərin hamısı yekdilliklə Heydər Əliyev cənablarının AEA-nın həqiqi üzvü seçilməsinin lehinə səs vermişlər. Əleyhinə, yoxdur.*

*...Təklif var ki, Heydər Əliyev cənabları AMEA-nın həqiqi üzvü seçilmiş hesab edilsin. (Alqışlar).*

*...Bu gün Akademiyanın tarixində ən yaddaqalan tarixi bir gündür. ...Mən fəxr edirəm ki, bu tarixi iclasın iştirakçısıyam".*

Nizamnaməyə uyğun olaraq Elmlər Akademiyası Ümumi Yığıncağının iclasına Akademiyanın prezidenti yekun vurmuşdur:

*"Möhtərəm yığıncaq iştirakçıları!*

*Doğrudan da bugünkü gün bizim üçün çox əlamətdar gündür. Qeyd etmək istərdim ki, Heydər Əliyev Rusiyaya ilk rəsmi səfəri zamanı Rusiya Elmlər Akademiyasının kollektivi ilə görüşdü. Orada bütün elmlər üzrə alimlər var idi. ...Heydər Əliyev orada bir akademik kimi çıxış etdi... Hamı heyran qaldı. Hətta qeyd etdilər ki, Rusiya Elmlər Akademiyasının divarları bu günə qədər belə çıxış eşitməmişdir. ...Fransada Siyasi Elmlər Akademiyası (Sosial EA olmalıdır – İ.H.) var. Heydər Əliyev orada məruzə ilə çıxış etmişdi. Yəqin bilirsiniz ki, Fransada erməni lobbisi çox güclüdür. O adamların çoxusu oraya xoş niyyətlə gəlməmişdilər. Heydər Əliyevin çıxışı oradakıları mat qoymuşdu. Cənab Prezidentimizi Akademiyanın həqiqi üzvü seçilməsi münasibətilə məhəbbətlə, ürəkdən təbrik edirəm".*

Ümumi Yığıncaqda gizli səsvermənin nəticələrə dair hazırlanmış yekun protokolun mətni həm də Heydər Əliyevin dövlətçilik fəaliyyətini və xidmətlərini elmi və siyasi cəhətdən əsaslandıran sənəd kimi də əhəmiyyətlidir. Akademik səviyyədə yazılmış qərar layihəsinin mətnində Heydər Əliyevin möhtəşəm siyasi portretinin əsas istiqamətləri bütün dəqiqliyi ilə mükəmməl surətdə ifadəsini tapmışdır.

Sənəddə yazılmışdı: *"AEA-nın Ümumi Yığıncağı Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin XX əsrdə Azərbaycanda siyasi elmlərin inkişafındakı rolunu, onun gərgin, siyasi-diplomatik elmi fəaliyyətini, dövlətçilik təcrübəsini, Azərbaycanın beynəlxalq əlaqələrinin genişləndirilməsi, onun təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq və regional münaqişələrin həll edilməsi, yeni və ən yeni dövrün tarixinin və nəzəriyyəsinin, ümumi siyasi problemlərinin həlli, hüquqi dövlət quruculuğunun əsaslarının yaradılması sahəsindəki misilsiz xidmətlərini, Azərbaycan Elmlər Akademiyasının İctimai Elmlər Bölməsinin təqdimatını və Azərbaycan EA Ümumi Yığıncağının gizli səsvermənin nəticələrini nəzərə alaraq, Azərbaycan EA Ümumi Yığıncağı QƏRARA ALIR:*

*Heydər Əlirza oğlu Əliyev "Siyasi elmlər" ixtisası üzrə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilmiş hesab edilsin."*

AEA-nın prezidenti, akademik Fəraməz Maqsudov gizli səsvermənin nəticələri elan olunduqdan və təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyevin Siyasi elmlər üzrə Akademiyanın həqiqi üzvü seçilməsinə dair diplomu imzalamışdır.

Seçki prosesinin gedişindən, stenoqramdakı çıxışların məntiqindən belə başa



düşmək olar ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi məsələsi sanki Akademiyanın rəhbərliyi tərəfindən onunla əvvəlcədən razılaşdırılmışdır. Lakin Elmlər Akademiyasının prezidenti, akademik Fəraməz Maqsudov bu barədə qabaqcadan ona deyilərsə, cənab Prezidentin razılıq verməyəcəyini dəqiq bildiyinə görə, Azərbaycan alimlərinin minnətdarlıq və mənəvi borc hisslərini ifadə etmək üçün bütün məsuliyyəti öz üzərinə götürərək, seçki keçirməyə qərar vermişdir.

Bu, həqiqətən də geniş mənada ölkəmizin, müstəqil dövlətçiliyin xilaskarı və rəhbəri olan görkəmli şəxsiyyətin keçid dövründə həm də Elmlər Akademiyasını ləğv edilməkdən xilas etməsi, çətin şəraitdə qoruyub saxlaması və inkişaf etdirməsi qarşısında Akademiya heyətinin gerçək bir dərkolunmuş mənəvi borcunun ifadəsi idi. Həm də Heydər Əliyev kimi beynəlxalq miqyasda qəbul edilmiş görkəmli bir dövlət xadiminin Elmlər Akademiyasının həqiqi üzvü seçilməsini nəinki Azərbaycanda və keçmiş Sovet İttifaqı məkanında, hətta bütün dünyada eşidən hər kəsin bu işi təbii və layiqli bir addım kimi qəbul edəcəyi də əvvəlcədən məlum idi.

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkə alimlərinin ona göstərdikləri ehtiramı yüksək qiymətləndirsə də, Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi haqqındakı qərarı qəbul etməmişdir. Əslində, dövlət başçısının məsələyə bu cür münasibəti Elmlər Akademiyası üçün xoşagəlməz nəticə verə bilərdi.

Lakin ulu öndər Heydər Əliyev Elmlər Akademiyasının prezidenti, akademik Fəraməz Maqsudova və AEA-nın həqiqi üzvlərinə 24 may 1998-ci il tarixdə məktub ünvanlayaraq, akademiya alimlərinin onun fəaliyyətinə yüksək münasibətini müsbət dəyərləndirmiş, ancaq Elmlər Akademiyasının həqiqi üzvü seçilməsini məqsədəuyğun hesab etməmişdir. Bu, Azərbaycan Respublikasının Prezidentinin hələ sovet hakimiyyəti illərindən etibarən rəhbər vəzifəli şəxslərin elmi dərəcə almalarına qarşı apardığı mübarizəyə, həmin istiqamətdə yürütdüyü ardıcıl siyasətə güzəştsiz mövqedə dayanmasının əyani göstəricisi idi.

Akademiyaya ünvanlanmış məktubda da Heydər Əliyev onun akademik seçilməsi haqqında qərarı qəbul etməməsinin səbəbləri kimi, "heç vaxt Elmlər Akademiyasının üzvü olmaq arzusunda olmaması", "bu münasibətlə Elmlər Akademiyasına müraciət etməməsi" ilə bərabər, xüsusi olaraq "dövlət işləri ilə məşğul olduğuna görə buna ehtiyac duymaması"nı qeyd etməklə bir daha dövlət qulluğu sahəsində çalışanların dissertasiya müdafiə etmələrinə qarşı birmənalı münasibətini nəzərə çatdırmışdır.

Qeyd etmək lazımdır ki, bu hadisədən təxminən bir il qabaq, 31 yanvar 1997-ci ildə Prezident İqamətgahında Elmlər Akademiyasının geniş tərkibli elmi heyəti ilə görüşərkən də dövlət başçısı hələ 1969-cu ildə respublikanın birinci şəxsi seçildiyi vaxtdan bu məsələ ilə ciddi mübarizə apardığını alimlərin diqqətinə çatdıraraq demişdi: *"Xatirəmdədir, ...altmışıncı illərdə Azərbaycanda ciddi bir xəstəlik əmələ gəlmişdi, partiya, dövlət işində işləyən çox adamlar bununla yanaşı özlərinə mütləq elmi dərəcə almaq istəyirdilər, namizədlik, doktorluq dissertasiyaları hazırladırdılar. Hesab edirdilər ki, gələcək üçün lazımdır.*

*...Sizə məlumdur ki, mən 1969-cu ildə Azərbaycana rəhbər seçildikdən sonra bu hallarla ciddi mübarizəyə başladım, partiya, sovet işindəki şəxslərin belə məsələlərlə məşğul olmasının qarşısını almağa çalışdım. Hətta bəzi adamlar gizli şəkildə belə işlər gördüklərinə görə cəzalandırıldılar... Çünki o insanlar vəzifələrindən sui-istifadə edirdilər... Mən o vaxt da bunun əleyhinə olmuşam, indi də əleyhinəyəm. Bu, mənim mənəvi prinsipimdir".*

Akademiyanın Ümumi Yığıncağında həqiqi üzv seçilməsi haqqında məlumat aldıqdan sonra Prezident Heydər Əliyevin Elmlər Akademiyasının rəhbərliyinə və üzvlərinə şifahi şəkildə müraciət etməsi də Ümummilli liderin elmə, Akademiyaya, elm xadimlərinə bəslədiyi yüksək hörmət və ehtiramın ifadəsi ola bilərdi. Elmlər Akademiyasına ünvanlandığı 24 may 1998-ci il tarixli məktub isə Heydər Əliyevin bu ali dövlət elmi təşkilatının nüfuzunu qorumaq və daha da möhkəmləndirmək sahəsindəki fəaliyyətinin daha bir nümunəsidir. Bu məqamda keçmiş SSRİ Elmlər Akademiyasının tarixində baş vermiş analoji bir hadisə ilə əlaqədar ibrətamiz bir müqayisəni yada salmaq Heydər Əliyev fenomeninin nə demək olduğunu bir daha əyani şəkildə nümayiş etdirir.

Təxminən, 1960-cı ildə SSRİ Elmlər Akademiyasının prezidenti, akademik **Aleksandr Nikolayeviç Nesmeyanov** o zaman Sovet İttifaqının rəhbəri olan **Nikita Xruşşovdan** bu nəhəng akademik təşkilatın həqiqi üzvü seçilməsinə razılıq alır. SSRİ Elmlər Akademiyasının Ümumi Yığıncağında Nikita Sergeyeviç Xruşşovun Akademiyanın həqiqi üzvlüyünə dair seçki keçirilərkən Rusiya akademikləri ölkə rəhbərinə səs vermirlər. Onlardan hər biri belə fikirləşir ki, Aleksandr Nesmeyanovdan başqa yəqin heç olmasa, 1-2 nəfər də Nikita Xruşşovun lehinə səs verəcəkdir ki, soruşan olsa, həmin şəxsin özü olduğunu bildirməklə məsuliyyəti üstündən ata biləcəkdir. Lakin nəticə gözlənilənlərin əksinə olur. **Səsvermə qutusu açılıb, bülletenlər hesablanarkən məlum olur ki, Nikita Xruşşovun lehinə yalnız 1 nəfər səs vermişdir.** Həmin səs də yəqin ki, SSRİ Elmlər Akademiyasının prezidenti, akademik Aleksandr Nesmeyanov imiş.

Doğrudur, Nikita Sergeyeviç bu hadisədən sonra akademik Aleksandr Nesmeyanovu dərhal cəzalandırmamışdır. Lakin bir neçə aydan sonra, 1961-ci ildə Akademiyanın prezidentliyinə növbəti seçkilər zamanı 2 dəfə Sosialist Əməyi Qəhrəmanı, akademik Aleksandr Nikolayeviç Nesmeyanova yenidən etimad göstərilməmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev isə qanuni şəkildə keçirilmiş seçki əsasında yekdilliklə layiq görüldüyü Akademiya üzvlüyünü qəbul etməmiş, lakin ona səs vermiş Elmlər Akademiyasının rəhbərliyinə və üzvlərinə hörmət və ehtiramını ifadə edən xüsusi məktub göndərmişdir. Ümumiyyətlə, elm tariximiz və geniş mənada dövlətçilik baxımından son dərəcə əhəmiyyətli olduğunu nəzərə alaraq, Heydər Əliyevin Azərbaycan Elmlər Akademiyasına göndərdiyi 24 may 1998-ci il tarixli məktubun mətnini olduğu kimi təqdim edirik:

***"Azərbaycan Elmlər Akademiyasının prezidenti Fəraməz Maqsudov cənablarına***

***Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlərinə***

*Elmlər Akademiyasının hörmətli prezidenti!*

*Hörmətli akademiklər!*

*Dünən axşam mənə məlum olmuşdur ki, ümumi iclasınızda məni Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçmişsiniz. Mənə göstərdiyiniz böyük diqqətə və fəaliyyətimə verdiyiniz yüksək qiymətə görə hamınıza təşəkkür edirəm.*

*Lakin mən heç vaxt Elmlər Akademiyasının üzvü olmaq arzusunda olmamışam, bu münasibətlə Elmlər Akademiyasına müraciət etməmişəm və dövlət işləri ilə məşğul olduğuma görə buna ehtiyac da duymamışam.*

*Hesab edirəm ki, qərar qəbul etməkdən öncə siz mənim fikrimi öyrənməli və bunun üçün razılığımı almalı idiniz. Bütün bunları nəzərə alaraq xahiş edirəm ki, mənim barəmdə qəbul etdiyiniz qərarı ləğv edəsiniz.*

*Azərbaycan Elmlər Akademiyasının müstəqil Azərbaycanın həyatındakı böyük roluna və onun üzvlərinin Azərbaycan elmi qarşısında göstərdikləri misilsiz xidmətlərinə görə bir daha sizə hörmət və ehtiramımı bildirirəm.*

*Səmimiyyətlə*
*Heydər Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*24 may 1998-ci il".*

Həcm etibarilə kiçik olan bu ibrətamiz məktubda mahiyyətinə və əhəmiyyətinə görə böyük mətləblər ifadə olunmuşdur. Ulu öndər Heydər Əliyevi bir daha görkəmli dövlət başçısı kimi xarakterizə edən, eyni zamanda onun elmə, Elmlər Akademiyasına, alimlərə yüksək münasibətini əks etdirən və indiyədək tədqiqata cəlb olunmamış bu məktub bir neçə cəhətdən xüsusi əhəmiyyətə malikdir:

1. Ulu öndər Heydər Əliyev onu Elmlər Akademiyasının üzvlüyünə seçən alimlərə bu yüksək elmi adı qəbul etmədiyini məktub vasitəsilə bildirməklə məsələyə ciddi dövlət işi kimi rəsmi yanaşdığını göstərmişdir; 2. Dövlət qulluğu ilə məşğul olanların elmi dərəcə almalarına qarşı olduğunu birmənalı şəkildə ifadə etmişdir; 3. Bununla elmə olan böyük ehtiramını nümayiş etdirmişdir; 4. Akademiyanı elm məbədi kimi qoruduğunu əsl nümunəsini göstərmişdir; 5. Elm adamlarına xüsusi hörmət və ehtiramını bildirmişdir; 6. Elmi dərəcəni və elmi adı, ümumiyyətlə, alim adını uca tutmağa çağırmış, bu sahədə vəzifəsindən asılı olmayaraq, heç kəsə güzəşt etməməyi tələb etmişdir; 7. Nəhayət, dövlət işləri ilə ciddi məşğul olmağı, özünü bütövlükdə bir sahəyə həsr etməyi də cəmiyyətin diqqət mərkəzinə çəkmişdir; 8. Əsl görkəmli dövlət xadimi olduğunu bir daha isbat etmişdir.

Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi Elmlər Akademiyasına ünvanlanmış 24 may 1998-ci il tarixli məktubun elmi ictimaiyyətə çatdırılması və mühüm tarixi əhəmiyyətə malik olan məktubdan irəli gələn vəzifələrin müəyyən edilməsi məsələsini 26 may 1998-ci ildə keçirilmiş AEA Rəyasət Heyətinin iclasının gündəliyinə daxil etmişdir. Rəyasət Heyətinin 26 may 1998-ci il tarixli iclasının protokolunun əldə edilmiş stenoqramı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ölkə elminə, Elmlər Akademiyasına, eyni zamanda, ölkəmizin elm xadimlərinin də dövlət başçısına qarşılıqlı olaraq yüksək hörmət və ehtiramını bir daha nümayiş etdirir. Bu, Heydər Əliyevin timsalında dövlət başçısı ilə ölkəmizin elmi ictimaiyyəti arasında olan möhkəm birliyin, həmrəyliyin ifadəsinə konkret bir nümunədir. Geniş mənada xalqın bütün təbəqələri ilə, o cümlədən yaradıcı ziyalılarla ölkə rəhbərinin münasibətlərindəki həmin sarsılmaz birlik bütövlükdə respublikamızın və eyni zamanda, Elmlər Akademiyasının inkişafında mühüm rol oynamışdır. Bütün bunlara görə elm tariximiz üçün mühüm əhəmiyyətə malik olduğunu nəzərə alaraq, AEA Rəyasət Heyətinin 26 may 1998-ci il tarixli iclasının stenoqramının mətnini təqdim etməyi zəruri hesab edirik:

*"Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin 26 may 1998-ci il tarixli iclasının **Qərarı***

***Gündəlik:** Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin AEA-nın prezidenti akademik F.Maqsudova, akademiyanın həqiqi üzvlərinə 24 may 1998-ci il tarixli məktubu haqqında*

***Dinlənildi:** AEA-nın prezidenti, akademik Fəraməz Maqsudov EA Rəyasət Heyətinin üzvlərini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının EA prezidentinə və həqiqi üzvlərinə ünvanladığı 24 may 1998-ci il tarixli məktubu ilə tanış etdi.*

***Çıxış etdilər:** F.Maqsudov, N.Quliyev, T.Şahtaxtinski, M.Rüstəmov.*

*Çıxış edənlər Prezident Heydər Əliyevin 24 may 1998-ci il tarixli AEA-nın Ümumi Yığıncağının qərarı ilə bağlı Akademiyanın prezidentinə və onun həqiqi üzvlərinə səmimiyyətlə dolu məktubunda Akademiyaya verdiyi qiymətə görə ürəkdən minnətdarlıqlarını bildirdilər. Qeyd edildi ki, EA-nın Ümumi Yığıncağı dünya elmi-ictimai fikrində çoxdan formalaşmış rəyi yalnız hüquqi sənəddə təsdiq etdi. Əslində, cənab Heydər Əliyev siyasi elmlərin ustadı kimi dünyada ən mötəbər elmi məkrəzlər tərəfindən alim və mütəfəkkir kimi çoxdan qəbul olunmuşdur.*

*Eyni zamanda, Akademiyanın Ümumi Yığıncağının qərarı haqqında cənab Heydər Əliyevin mövqeyi xalqa, millətə təmənnasız xidmət göstərən böyük təvazökar insanın qərarı kimi qiymətləndirildi.*

***Qərara alındı:** Möhtərəm Prezident Heydər Əliyevin qazandığı mənəvi hüququ bütün qərar və elmi rütbələrdən üstün tutaraq, 23 may 1998-ci il tarixli AEA-nın Ümumi Yığıncağının qərarının icrası dayandırılsın".*

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Elmlər Akademiyasına həqiqi üzvlüyə seçilməsinə dair seçkilərin keçirilməsi prosesi geniş mənada çoxəsrlik elm tarixinin, eyni zamanda, həm də Akademiyanın inkişafının ibrətamiz tarixi hadisəsidir. Bu, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simasında əsl dövlət xadiminin siyasi-mənəvi ucalığını bir daha təsdiq edən ibrətamiz faktdır. Baş vermiş seçki proseslərində gedən müzakirələr və qəbul edilmiş qərar həmçinin Azərbaycan alimlərinin, Elmlər Akademiyası rəhbərliyinin və akademiklərin Prezident Heydər Əliyevə sədaqətini, dövlət başçısının çoxillik və çoxcəhətli yorulmaz fəaliyyətinin elm xadimləri tərəfindən dərindən, hərtərəfli şəkildə dərk və şərh olunduğunu əyani şəkildə əks etdirir.

Düşünürük ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin siyasi elmlər üzrə Elmlər Akademiyasının həqiqi üzvlüyünə seçilməsinə həsr edilmiş seçki prosesləri ilə əlaqədar təşkil edilən iclaslar, edilmiş məzmunlu çıxışlar, aparılmış yazışmalar, qəbul edilmiş qərarlar, çıxarılan nəticələr Azərbaycan Milli Elmlər Akademiyasının tarixinin ən şərəfli, məsuliyyətli və ibrətamiz səhifələridir. Həmin tarixi seçki prosesində tanınmış elm xadimlərinin göstərdikləri sədaqət və nümayiş etdirdikləri intellektual baxış yeni nəsil elm adamları üçün də əhəmiyyətli bir dərsdir.

Azərbaycan Respublikası Prezidentinin Elmlər Akademiyasının rəhbərliyinə və tanınmış alimlərə razılaşdırılmamış seçkilərə görə bəslədiyi tolerant münasibət və ifadə etdiyi hörmət və ehtiram Heydər Əliyev kimi geniş dünyagörüşünə malik uzaqgörən dövlət xadiminin əsl müdriklik nümunəsi olan addımıdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Elmlər Akademiyasının prezidentinə və akademiklərinə göndərdiyi 24 may 1998-ci il tarixli məktub Milli Elmlər Akademiyasının 80 illik tarixi salnaməsinin ən qiymətli səhifələrindən biridir.

Bu tarixi məktub Azərbaycan Elmlər Akademiyasının prezidentinin və üzvlərinin fəaliyyətlərini inamla davam etdirmələrinə dövlət başçısı tərəfindən verilmiş vəsiqədir. Elmlər Akademiyasının və alimlərimizin nüfuzunu qorumaq üçün dövlət başçısının atdığı müdrik addım nəticə etibarilə Azərbaycan elminin inkişaf etdirilməsi üçün yeni nəfəs və üfüqlər açmağa xidmət etmişdir.

(ardı 4-cü səhifədə)

# Azərbaycanın əbədi lideri

**12 dekabr tarixi müasir dövlətçiliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür. Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq, Azərbaycan xalqı öz xilaskarını heç zaman unutmur, daim onu ehtiramla yad edir. Ulu öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz.**



Ölkəmizdə milli tərəqqinin yarım əsrə yaxın bir mərhələsi Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran, hələ sağlığında ikən canlı əfsanəyə çevrilən Heydər Əliyevin millət və Vətən sevgisindən qaynaqlanan fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin siyasi fəaliyyəti tək Azərbaycan üçün deyil, keçmiş sovet məkanında əsarət altında olan bütün müsəlman-türk xalqları üçün şərəf və qürur örnəyidir. İşğalçı bolşevik ideologiyası idarəçilik sistemini gizli "müsəlman yaxşı kommunist ola bilər, amma ona etibar etmək olmaz” prinsipi üzərində qurmuşdu. Bu prinsip bütün sovet imperiyasının mövcudluğu ərzində qırmızı xətt kimi müsəlmanlar üzərində damokl qılıncına çevrildi. Ancaq Ulu öndər bu sipəri dağıtdı. İlk dəfə olaraq Azərbaycanda Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Heydər Əliyevin timsalında bu millətin nümayəndəsinə həvalə edildi.

Həmin dövrdə xüsusi xidmət orqanında milli kadrların yüksək vəzifə tutmasına uzun müddət imkan verilmirdi. Lakin Heydər Əliyev Azərbaycan təhlükəsizlik orqanına rəhbər təyin olunduqdan sonra bu stereotip dəyişdi və bu mühüm dövlət orqanında o, milli kadrların sayının artırılmasına, onların irəli çəkilməsinə, azərbaycançılıq ruhunun bərqərar edilməsinə nail oldu. Bir vaxtlar Azərbaycanın mənəvi dəyərləri ilə yanaşı, tarixi şəxsiyyətlərini də məhv edən qüvvələr Heydər Əliyevin bu cəsarətli addımlarına qarşı çıxırdılar. Bu təzyiqlərdən sarsılmayan Ulu Öndər milliləşdirmə siyasətini geniş vüsətlə davam etdirdi, milli ideyalara görə təqibə məruz qalmış bir çox ziyalı və ictimai xadimlər həbsdən və təzyiqlərdən xilas olundu.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açarkən, ilk növbədə 1969-1982-ci illərə, onun Sovetlər Birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirməyi vacib bilib. Onun sözlərinə görə, həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Ulu öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub. O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Halbuki respublikamız ittifaqda zəngin yerüstü, yeraltı sərvətləri ilə seçilib. Amma respublikamızın adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi.

Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başladı. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edilib, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirildi. Görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halında xüsusi mərhələ onun SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi fəaliyyətini davam etdirilməsi ilə bağlıdır. Heydər Əliyev SSRİ-nin müsəlman respublikalarının rəhbər işçiləri arasında belə yüksək vəzifəyə qalxan ilk şəxs idi.

1920-ci ildə Azərbaycanı işğal edən bir imperiya onun ən layiqli oğlunun idarəçilik və siyasi istedadının qarşısında məğlub olmuşdu. Azərbaycan işğal edilmiş əyalət bir ölkə idi. Şübhəsiz ki, belə bir ölkə tabe olmalı, müti davranmalı, rahat idarə edilməliydi. Lakin Heydər Əliyev millətimizi öz simasında imperiyanı idarə edən bir xalq səviyyəsinə qaldırdı. Bu Ulu öndərin xalqı adına böyük siyasi zəfəri idi. Amma sovet sistemi daxilindəki anti-Azərbaycan, antitürk qüvvələr bu yüksəlişə qarşı birləşdilər və Heydər Əliyevin vəzifədən getməsinə nail oldular.

1988-ci ildən başlanan və 1993-cü ilin ortalarına qədər baş verən proseslər göstərdi ki, Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olmadığı müddətdə xalqımızın başına çox böyük müsibətlər gəldi, ermənilər tərəfindən torpaqlarımızın bir hissəsi işğal olundu, Azərbaycan məhv olmaq, parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı. Bu Azərbaycan üçün çətin sınaq dövrü idi. Tarix iki dəfə Azərbaycan xalqını imtahana çəkib: “Əsrin əvvəllərində zaman məsələni belə qoymuşdu - “ya öz taleyinə şərik ol, ya da işğala məruz qalaraq bölün”. Azərbaycan Xalq Cümhuriyyətinin liderləri üzərlərinə düşəni layiqli şəkildə etdilər. Azərbaycanı bölünməyə qoymadılar. Təəssüf ki, rus ordusu ölkəmizi yenidən 70 illik əsarətə saldı. 1991-ci ildə müstəqilliyimizi əldə edərkən növbəti dəfə sınağa çəkildik. Konkret olaraq Azərbaycanın parçalanması, müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qaldıq.

1918-ci ildə böyük bir komandanın gördüyü işi Ümummilli lider təkbaşına gördü. Xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdan Ulu öndər xalqını naümid qoymadı. 1993-cü ilin iyununda Azərbaycan xalqı dövlətin idarə olunmasını Heydər Əliyevə etibar edəndə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, hərc-mərclik baş alıb gedirdi. Məhz Heydər Əliyevin qayıdışı ilə Azərbaycan xalqında ruh yüksəkliyi, öz gələcəyinə inam yarandı və Heydər Əliyev ölkəyə milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni stimul verdi, zaman-zaman Azərbaycanın başı üstündə dolaşan qara buludlar dağılmağa başladı, Azərbaycan parçalanma təhlükəsindən xilas oldu.

Nəzərə alsaq ki, milli azadlığa gedən yol məhz milli oyanışdan, milli dirçəlişdən, milli ruhun canlanmasından keçir, onda Heydər Əliyevin gəlişinin nə demək olduğunu açıqlamağa ehtiyac qalmır. Heydər Əliyevin prezidentliyi dövründə milli ordu quruculuğunda ciddi dəyişikliklər başladı. Təcavüzkar silahlı qüvvələrin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994-cü ilin mayında Ermənistan-Azərbaycan münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu.

1995-ci ilin noyabrında referendum yolu ilə Azərbaycan Respublikasının ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, Azərbaycanda ölüm cəzasının ləğv olunması, “Bələdiyyə seçkiləri haqqında” Qanunun və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycan xalqının Ümummilli lideri 2003-cü ilin prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq versə də, səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etdi və öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürdü. Ulu öndər Heydər Əliyev Prezident İlham Əliyevə böyük ümidlər bəsləyərək söyləyirdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Uzaqgörən siyasi xadim bu fikirlərində də yanılmamışdı.

Prezident İlham Əliyev Ulu öndərin ümidlərini doğrultdu və Ata vəsiyyətini yerinə yetirdi. Əgər bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırıbsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarını düşmən tapdağından azad edibsə, bütün uğurların təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır. Bu əsaslar Azərbaycanın ötən onilliklərdə güclənməsinə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı və əlbəttə ki, Ulu öndərin siyasət mücəssəməsi məhz bu günlər yaşadığımız zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı inamla yeni-yeni zəfərlərə doğru aparır. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi ədalət bərpa edilib, işğal altında olan torpaqlarımız azad olunub, Zəfər salnaməsi tarixdə layiqli yerini alıb. Bütün nailiyyətlərin təməlində isə Heydər Əliyev siyasəti dayanır. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun parlaq ideyaları gələcəyimizə daim nur saçacaq. Müstəqilliyimiz əbədi, Ulu öndərin ruhu şad olsun!

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı***

# Heydər Əliyevin akademiklik seçkisi və Akademiyanın dövlətçilik dərsləri

*(əvvəli 3-cü səhifədə)*



Bütün bunlarla bərabər, görkəmli dövlət xadimi Heydər Əliyevin Elmlər Akademiyasının həqiqi üzvlüyünə dair seçkilərin keçirilməsi və dövlət başçısının 24 may 1998-ci il tarixi məktubu tədqiqat baxımından Ulu öndərin şərəfli tərcümeyi-halının diqqətdən kənarda qalmış, öyrənilməmiş faktları və hadisələri kimi də mühüm əhəmiyyətə malikdir. Ümid edirik ki, Heydər Əliyev kimi dahi şəxsiyyətin tərcümeyi-halının naməlum səhifələrini əks etdirən təqdim olunmuş sənədlər və faktlardan onun həyatı və fəaliyyətini tədqiq edənlər mənbə kimi faydalanacaqlar. İnanırıq ki, haqqında danışılan seçki prosesinin düşünülməsi, gedişatı, detalları və nəticələri Milli Elmlər Akademiyasının inkişaf yolunu və ümumiyyətlə, elm tariximizi öyrənənlərin də diqqətini cəlb edəcəkdir. Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Siyasi elmlər üzrə Elmlər Akademiyasının həqiqi üzvlüyünə seçilməsi üçün seçkilərin keçirilməsi, nəticəsindən asılı olmayaraq, Akademiyanın və akademiklərin dövlətçilik dərsləri kimi mühüm tarixi əhəmiyyətə malik olan ibrətamiz hadisədir. Həmin dövlətçilik dərslərini dərindən öyrənmək və ondan lazımi nəticələr çıxarmaq Azərbaycan alimlərinin və Elmlər Akademiyasının rəhbərliyinin və akademiklərin, yeni elmi nəsillərin borcu və vəzifəsidir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Elmlər Akademiyasının həqiqi üzvlüyünə seçilməsi məsələsini müzakirə edərək, EA Ümumi Yığıncağı qarşısında vəsatət qaldırılan 23 may 1998-ci il tarixli iclasa sədrlik etmiş Akademiyanın İctimai Elmlər Bölməsinin akademik-katibi olan akademik Cəmil Quliyevin 2003-cü ildə yazdığı “Heydər Əliyev siyasət adamıdır, Heydər Əliyev həmçinin elm adamıdır” adlı məqaləsində baş vermiş tarixi seçki hadisəsi haqqında öz əkini tapmış aşağıdakı fikirlər həmin münasibətlə yaşanan proseslərə mənalı bir şəkildə yekun vurur:

“*Yeri gəlmişkən, bir faktı yada salmağı özümə borc bilirəm: 1998-ci ildə AMEA-nın İctimai Elmlər Bölməsi Heydər Əliyevin Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsini irəli sürmüş və Nizamnaməyə əsasən Heydər Əliyev Akademiyanın Ümumi iclasında gizli səsvermə yolu ilə yekdilliklə akademik seçilmişdir. Möhtərəm Prezident bu təşəbbüsü ehtiramla qarşıladı, lakin həqiqi üzvlük diplomunu qəbul etmədi… Amma bu məsələdə Heydər Əliyevin müdrikliyi təsdiqləndi.*

*…Heydər Əliyev tarixin ən mürəkkəb və çətin bir dövründə… XXI əsrin astanasında elmi-texniki potensiala, zəngin intellektual xəzinəyə malik Azərbaycan Milli Elmlər Akademiyasını xilas etdi. Alimin, elmin, ziyalının hörmət və nüfuzuna vurulan zərbələri dəf etdi.*

*…Qeyri-iradi …olaraq sual meydana çıxır: “Heydər Əliyevdə hansı keyfiyyət üstünlük təşkil edir – siyasətçilik, yoxsa alimlik? Bu suala birmənalı cavab vermək çətindir. Ancaq belə demək olar: “Görkəmli siyasətçi Heydər Əliyev görkəmli alim Heydər Əliyevi tamamlayır və əksinə”. Bu formulda, düsturda daxili dialektik məntiq vardır: Heydər Əliyev özündə görkəmli siyasi xadimi və görkəmli alimi dərindən təcəssüm etdirir”.*

**P.S.** Elmlər Akademiyasının Ümumi Yığıncağında 23 may 1998-ci ildə keçirilmiş gizli səsvermənin nəticələri əsasında Prezident Heydər Əliyevin adına yazılmış və həmin gündə imzalanmış siyasi elmlər üzrə 01 saylı həqiqi üzvlük diplomu hazırda Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində qorunub saxlanılan sənədlər sırasındadır. Ehtimal ki, Elmlər Akademiyasının prezidenti, akademik Fəraməz Maqsudov vaxtilə Ulu öndərin verilməsini dayandırdığı həmin diplomu tarixi bir sənəd kimi Naxçıvandakı Heydər Əliyev Muzeyinə təqdim etmişdir...

Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan elminin və Milli Elmlər Akademiyasının müasir dövr dünya təcrübəsinin reallıqları, müstəqil dövlətimizin inkişaf strategiyası və milli prioritetləri əsasında inkişaf etdirilməsi üçün aydın üfüqlər açmışdır. Bütövlükdə Azərbaycan elmi və Milli Elmlər Akademiyası yeni tarixi dövrün çağırışlarına layiqincə cavab vermək üçün bütün imkanlarını səfərbər etməkdə davam edir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***

## Heydər ƏLİYEV:

# Yaz, Elmira, yaz, səndə bu yaxşı alınır, mən isə...

*Müsahibimiz Xalq yazıçısı Elmira Axundovadır*



**(əvvəli qəzetimizin 9, 10 və 11 dekabr 2025-ci il saylarında)**

Heydər Əliyev üçün ağır zərbələrdən biri də Qorbaçovun SSRİ-də həyata keçirdiyi "Antialkoqol" kampaniyası oldu. Çünki Heydər Əliyev Azərbaycanın birinci katibi olanda 1970-ci illərin sonunda respublikada üzümçülüyün və şərabçılığın inkişafına çox böyük əmək sərf etmiş və diplomatik siyasi gedişlər etmişdi. L.İ.Brejnev və Kremlin ozamankı böyük məmurları onun bu layihəsinə pul yoxdur, deməsinlər deyə, Heydər Əliyev öz diplomatik ustalığından məharətlə istifadə etmişdi. Bizdə üzüm istehsalı 2 milyon tona çatmışdı. Amma Qorbaçov bir qərarla bütün bunların üstündən xətt çəkirdi. Azərbaycanda yüzlərlə hektar üzüm plantasiyaları məhv edildi!

**"Heydər Əliyev: şəxsiyyət və dövr" kitabından bir epizod:**

***Aleksandr İvanovun müsahibəsindən:*** *"Antialkoqol kampaniyası ilə bağlı Heydər Əliyev Rıjkovla çox sərt danışdı. Siyasi Büronun iclası Kremldə üçüncü mərtəbədə keçirilirdi, onların kabineti isə elə həmin binada ikinci mərtəbədə idi. Ona görə də onlar öz kabinetlərinə pilləkənlə düşürdülər və mübahisələri davam edirdi. Biz isə – Rıjkovun mühafizəsinin rəisi və mən onlarla yanaşı gedirdik. Heydər Əliyev deyirdi: "Belə bir qərarı necə qəbul etmək olar? Axı mən bu iş naminə nə qədər zəhmət çəkmişəm, üzümçülüyü və şərabçılığı inkişaf etdirmişəm, belə qərar qəbul etmək olarmı?" O, antialkoqol kampaniyasının əleyhinə idi. Rıjkov isə ona cavab verdi: "Axı, necə olmalıydı, siz buna səs vermədiniz deyə, mən də səs verməməliydimmi? Heç nə edə bilməzdik!" Buradan aydın görünürdü ki, Rıjkov bu qanunun lehinə səs verib, Əliyev də bundan qəzəblənib və onunla yüksək tonda, emosional danışır".*

Əliyevin nə qədər haqlı olduğunu gözləməyə elə çox vaxt lazım gəlmədi. SSRİ antialkoqol kampaniyası ilə mübarizənin birinci ilində 70-80 milyard rubl vəsait itirmişdi. 3 ildə bütün SSRİ ərazisində 1000-dən artıq şərab zavodu bağlanmışdı.

***"Heydər Əliyev: şəxsiyyət və dövr" kitabından bir epizod:*** *"Azərbaycana səfərdən qayıdan İ.Laptev respublikanın şərabçılıq və üzümçülük rayonlarındakı vəziyyət barədə Heydər Əliyevə ətraflı məlumat verdi. Bundan sonra Heydər Əliyevin rəngi qapqara qaraldı və bir müddət özünə gələ bilmədi. Ümumiyyətlə, Heydər Əliyevin yeni Baş katiblə və onun "əmrlərinə sözsüz tabe olan" əsgərləri ilə münasibətlərinin soyuması bir kənara, bu, vəhşi antialkoqol kampaniyası, xüsusilə üzüm plantasiyalarının insanlığa yaraşmayan şəkildə məhv edilməsi onun ürəyində dərin bir yara açdı".*

* * *

Mənə elə gəlir ki, bu kampaniya da dolayısı ilə elə Heydər Əliyevə qarşı yönəlmişdi, çünki Kremldə onun Azərbaycanda üzümçülüyün inkişafı ilə bağlı böyük əmək sərf etdiyini çox yaxşı bilirdilər.

İkinci bir məsələ də Heydər Əliyevin birdən-birə yüksək səviyyəli tədbirlərdən uzaqlaşdırılması idi. Tədqiqatlar apararkən mən bu məsələləri də çox əsaslı şəkildə araşdırıb Qorbaçovun naqisliklərini üzə çıxardım. Bilirsiniz ki, Andropovun və Çernenkonun Baş katib olduğu vaxtlarda bütün yüksək səviyyəli qəbullarda və görüşlərdə Heydər Əliyev onların yanında olur və bu məclislərdə iştirak edirdi. Bu dövrlərdə Qorbaçov həmişə arxa planda qalırdı. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi nəqliyyat və rabitənin, bir çox digər sənaye sahələrinin kuratoru olmaqla yanaşı, həm də Siyasi Büronun Yaxın Şərq ölkələrində siyasi xəttini həyata keçirən şəxs, bilavasitə xarici əlaqələr üzrə kurator idi. Yəni o, Siyasi Büroda Şərqin nümayəndəsi idi. Təsadüfi deyildi ki, Qərb analitikləri Heydər Əliyevi Kremlin Şərq siyasətini formalaşdıran və həyata keçirən adam hesab edirdilər. Mixail Qorbaçova qədər Heydər Əliyev bir çox xarici ölkələrə rəsmi səfərlərə gedir və Kremldə Şərq və Qərb ölkələrinin rəhbər şəxslərini qəbul edib danışıqlar aparırdı.

Qorbaçovun Baş katib olduğu dövrdə getdiyi bütün xarici səfərlərini izlədim, aydın oldu ki, bu adam bir dəfə də olsun Heydər Əliyevi nümayəndə heyətinin tərkibinə belə daxil edib xarici səfərlərə aparmayıb. Xarici ölkə rəhbərləri Moskvaya gələndə də Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevi onlarla görüşdə iştirak etməyə qoymamışdır. Amma vəzifəcə ondan aşağı olan, Siyasi Büronun üzvü olmayan adamlar görüşlərdə, rəsmi qəbullarda iştirak edirdilər.

Baxın, 1985-ci il oktyabrın 10-da Liviya inqilabının lideri, polkovnik Müəmmar Qəddafi Moskvaya səfərə gələndə Heydər Əliyev Andrey Qromıko və Eduard Şevardnadze ilə onu "Vnukova" hava limanında qarşılayırlar. Ancaq həmin gün Kremldə SSRİ–Liviya yüksək səviyyəli danışıqlarında Heydər Əliyev iştirak etmir. Hətta Qəddafinin şərəfinə verilən nahara belə onu dəvət etmirlər. Baxın, işdən çıxarılmış Nazirlər Sovetinin keçmiş sədri Nikolay Tixonov burada iştirak edir, lakin Heydər Əliyev yoxdur. Bu çox xırda bir detal kimi görünə bilər. Amma necə olur ki, ərəb, müsəlman aləminin yeni lideri Müəmmar Qəddafi ilə görüşə Kremldə, Siyasi Büroda yeganə müsəlman olan Heydər Əliyev bu tədbirlərə dəvət olunmur?

Belə faktlar kifayət qədər çoxdur və heç biri təsadüf deyil. Ən maraqlısı və Qorbaçovun bütün iyrəncliklərini, Heydər Əliyevə qarşı paxıllığını üzə çıxaran çox maraqlı bir hadisə isə 1986-cı il iyulun sonunda Türkiyənin Baş naziri Turqut Özalın Moskvaya rəsmi səfəri zamanı olub. SSRİ rəhbərliyində təmsil olunan yeganə türk oğlu türk olan Heydər Əliyevi ümumiyyətlə bu səfərlə bağlı heç bir tədbirə, hətta nahara və sənədlərin imzalanması kimi protokol mərasimlərinə belə dəvət etməmişlər. Moskvadakı əfsanəvi türk oğlu haqqında kifayət qədər məlumatlı olan Turqut Özal və onun rəhbərlik etdiyi nümayəndə heyəti buna məəttəl qalsalar da, sovet məmurları ölü bir sükut nümayiş etdirirdilər.

**– Heydər Əliyevlə ünsiyyətdə olan, onunla işləyən yüzlərlə siyasətçidən, mədəniyyət və incəsənət adamından, dövlət xadimindən müsahibələr almısınız və xatirələrini yazmısınız. Onların sırasında kimi ən maraqlı, kimi ən çətin müsahib hesab edirsiniz?**

– Xüsusi xidmət orqanlarının, DTK-nın işçiləri. Onların bir çoxu çəkinirdi, hər şeyi danışmaq istəmirdilər, adi epizodlarla kifayətlənirdilər. Bir neçə dəfə zəng etmək, xahiş etmək, məsələnin mahiyyətini açıqlamaq lazım gəlirdi. Amma Heydər Əliyevlə işləyənlər çox maraqlı müsahibələr verirdilər, onlarla söhbətimiz asan olurdu. Onlar indi də deyirlər ki, sizin birinci kitabınız ən maraqlı və qiymətli kitabdır. Mən də deyirəm, kitabların hamısı qiymətlidir. Məsələn, Naxçıvan dövrü beşinci kitabda əks olunub və 831 səhifədir. Kim Heydər Əliyevin Naxçıvan dövründən bu qədər yazıb?

Danışmaq istəməyənlərdən bir Kryuçkov idi - SSRİ DTK-nın keçmiş rəhbəri. Amma onun bir neçə müsahibəsi dərc edilmişdi və mən dolayısı ilə onlardan istifadə etdim. Şəxsən mənimlə görüşməyə razılıq vermədi. Bir dəfə Kryuçkova zəng vurdum. Dedi: "Mən sizə müsahibə verməröm". Soruşdum niyə? Dedi: "Siz DTK haqqında çox pis bir kitab yazmısınız." Sən demə Vaqif Hüseynov, mənim "Naşirin ölümü" kitabımı ona oxutdurub. Orada da Vaqif Hüseynovun Heydər Əliyevə qarşı bütün cinayət əməllərini ifşa etmişəm. Mən də Kryuçkova dedim, sizin bu cavabınız mənim fəaliyyətimə verilən ən böyük qiymətdir.

Amma onun birinci müavini Filipp Babkov mənə müsahibə verdi. Onun Heydər Əliyevə münasibəti çox yaxşı olub və uzun illər bir yerdə işləyiblər...

**Müsahibədən bir epizod:**

***Elmira Axundova: 1950-ci illərin ortalarında Heydər Əliyev demək olar ki, sadə bir əməliyyatçı vəzifəsinə endirildi, lakin təxminən bir-bir il yarım sonra o, tezliklə yenidən 2-ci şöbənin rəisi vəzifəsinə yüksəldi. Bunu necə qiymətləndirirsiniz?***

***Filipp BOBKOV:*** *Bu, onun layiqli insan və güclü peşəkar olduğunu göstərir. Onun işgüzarlığı burada əsas rol oynayıb. Heydər həyatı boyu heç vaxt karyeraçı olmayıb və heç vaxt hakimiyyətə can atmayıb. Hakimiyyətin ona gəlməsi onun dürüstlüyünə və işgüzarlığına bir töhfədir.*

* * *

**...**2023-cü ildə "Heydər Əliyev və DTK" kitabım çap olundu. Bu kitaba 25 müsahibəmi daxil etmişəm. O zaman arxivə girməyə çox da imkan vermirdilər və bu müsahibələr olmasaydı, kitab da olmayacaqdı. Bu kitabım da DTX-nın rəisi Əli Nağıyevin sayəsində işıq üzü gördü.

Yeri gəlmişkən, bu müsahibədə Kəmaləddin Heydərovun adını xüsusi çəkmək istərdim. Çünki onun dəstəyi olmasaydı, mən 6 aydan artıq Moskvada orturub bu materialları toplaya, müsahibələri ala bilməzdim və bu kitabların da çoxu olmaya bilərdi...

**– Elmira xanım, sizcə, siyasətçilər, tarixçilər, yazıçılar, jurnalistlər Heydər Əliyev haqqında hər şeyi deyib, hər şeyi yazıblarmı?**

– Yox. Özümü öymək üçün demirəm, Heydər Əliyev haqqında ən çox yazan, kitab nəşr edən mənəm. Amma yazdıqca, görürəm ki, hələ Heydər Əliyev haqqında çox kitablar yazılacaq və yazılmayan şeylər də çoxdur. Amma yenə deyirəm, həyatının son dərəcə maraqlı və gələcək nəsillər üçün böyük dəyəri olan tarixin bir çox məqamlarını yazıya köçürməməsinə təəssüf edirəm.

İndi gördüyüm işə, araşdırdığım materiallara və daha çox da 300-dən çox adamdan götürdüyüm müsahibələrə baxanda deyirəm, nə yaxşı vaxtında bunları edə bildim. Axı onunla işləyən insanların böyük bir qismi artıq həyatda yoxdur. Məsələn, indi deyirəm, nə yaxşı ki, o zaman Heydər Əliyevin şəxsi mühafizəçisi olan Aleksandr İvanovdan 5 müsahibə aldım. İndi o həyatda yoxdur. Bu adam Moskvada gecə-gündüz Heydər Əliyevin yanında idi, onun ailəsinin bir üzvünə çevrilmişdi. Ondan ilk dəfə 2003-cü ildə Moskvada müsahibə aldım. Sonra Prezident İlham Əliyev onu Bakıya gətirdi, iş verdi, çünki onu çox istəyirdilər, sədaqətli insan idi. Moskvaya qədər də o, Bakıda Heydər Əliyevin mühafizəçisi olmuşdu. Onun müsahibələri mənə 50-60 səhifəlik material verdi. Bu materiallar heç yerdə yoxdur. Bu materiallarda Aleksandr İvanovun gördüyü Heydər Əliyev və onun ailəsi, onların həyat tərzi, Heydər Əliyevin karyerasındakı çox maraqlı məqamlar, Zərifə xanımın ana, həyat yoldaşı, elm xadimi və ən əsası, böyük insani keyfiyyətləri öz əksini tapıb. Belə müsahibələr çoxdur.

**– Elmira xanım, Heydər Əliyev çox nadir siyasətçilərdəndir ki, son dərəcə maraqlı və zəngin həyat yaşamış olsa da, bunları heç vaxt qələmə almayıb. Bununla bağlı Heydər Əliyevlə söhbətiniz olubmu?**

– Olub, həm də çox olub. Bu mənim üçün ən ağrılı mövzudur. 1990-cı illərdən başlayaraq bir neçə dəfə bu haqda söhbətimiz olub. Hətta Naxçıvanda onunla söhbətlərimdən birində dedim: "Heydər Əliyeviç, mən Bakıda kondinsioner zavodunun tikilməsindəki xidmətinizə görə sizə minnətdaram. Çünki biz həyət evində yaşayırdıq, damımız qırla örtülmüşdü. Yayda evdə nəfəs ala bilmirdik".

Dedi: "Elmira, sən bilirsənmi mən bu zavodun Bakıda tikilməsinə hansı çətinliklərdən sonra nail olmuşam?" Dedim: "Yox". Dedi: "İstəyirsən, danışım?" Dedim: "Əlbəttə, istəyirəm". Onda Ulu öndər mənə bu zavodla bağlı çox uzun bir tarixçə danışdı və mən gördüm bu insan nə qədər böyük fədakarlıqla, ağılla buna nail olub.

Bunları danışıb qurtarandan sonra dedim: "Heydər Əliyeviç, çox yaxşı olardı siz bunları bir memuar kimi yazasınız. Bu çox yaxşı olardı". Dedi: "Mən bu barədə fikirləşirəm. Hətta bəzi qeydlərimi etməyə başlamışam. Çünki mən çox böyük, zəngin və mənalı bir həyat yaşamışam. Kimlərlə işləməmişəm?! Bütün bunları gələcək nəsillərə çatdırmaq lazımdır".

Bu söhbətimizdən bir neçə il keçdi. Heydər Əliyev artıq müstəqil Azərbaycanın prezident idi. Səfərlərin birində maraqlı bir epizod oldu və mən yenə bunu ona dedim: "Heydər Əliyeviç, axı siz deyirdiniz memuar yazacaqsınız. Bəs nə oldu?" Dedi: "Elmira, mənim vaxtım var?" Dedim: "Bəs Qorbaçovun, Yeltsinin vaxtı var?". Dedi: "Nədi ki?" Dedim: "Qorbaçov artıq beşinci kitabını çap etdirir. Yeltsininsə ikinci kitabı nəşr edilib". Əlini yelləyib dedi: "Ehh, sənin Yeltsininin içkidən başı ayılır ki, kitab yazsın. Elə bilirsən özü yazıb onları? Onun ətrafındakılar yazıb. Bəlkə özü heç oxumayıb onları. Mən isə alışmışam ki, hər işi özüm görüm. Əgər memuar yazsam, gərək hər şeyi özüm yazam, özüm hər şeyə baxam".

Sonra öyrəndim ki, onun yanına ABŞ-dan "BBC"dən jurnalistlər gəliblər və təklif ediblər ki, memuarlarını götürsünlər. Neçə gün oturublar, Heydər Əliyev onları qəbul etməyib. Sonra yenə özü mənə danışdı ki, Müslüm Maqomayev də gəlib ona təklif edib, tanınmış istedadlı jurnalistlər, yazıçılar gətirsin onun memuarlarını yazsınlar. Ona da deyib ki, vaxtım yoxdur.

Sonralar, səhv etmirəmsə, 2002-ci ilin axırları idi, mən yenə Heydər Əliyevlə yaxın olan bir adama dedim, "bəs kişi mənə söz vermişdi memuarlarını yazacaq. Amma bir xəbər yoxdur". Mənim sözlərimi ona çatdırmışdılar və artıq bu dəfə tam başqa cür yanaşmışdı. Bundan imtina etməmişdi və demişdi, "yaxşı, onda qoy Elmira bu memuarlar kitabını necə görmək istəyir, hansı suallara aydınlıq gətirmək lazımdır, kitab hansı üslubda yazılacaq, bu haqda qeydlərini yazıb göndərsin". Mən kitabın planını da hazırladım, birinci kitab üçün sualları da tərtib etdim. Yadımdadır, onları İlham Heydər oğlunun vasitəsilə Heydər Əliyevə çatdırdım, o da atasının bu işə başlamasının böyük tərəfdarı idi. Lakin bu ideya reallaşmadı.

Sonra demişdi ki, Elmira da olacaq, Moskvadan da bir neçə tanınmış publisist, jurnalist dəvət edərik və bu işə başlayarıq". O istəyirdi bu işi görmək üçün komanda olsun. Yəni vaxt itirmədən, uzun sürməsin deyə, bu, daha gözəl bir iş olardı. Amma o da alınmadı. Çünki bundan az bir müddət sonra xəstələndi... *(Elmira xanımın gözləri dolur və bu məqamda qubar ona danışmağa imkan vermir.)*

2003-cü ildə mən "Həqiqət anları" kitabını ona göndərdim. 2003-cü il aprelin əvvəlində kabinetdə işləyirdim, zəng gəldi. Heydər Əliyevin köməkçisi Tariyel Ağayev dedi, "cənab Prezident sizinlə danışmaq istəyir". Heydər Əliyev dedi ki, onun 80 illiyi münasibətilə yazdığım "Həqiqət anları" kitabımı alıb. Kitab onun çox xoşuna gəlmişdi. Özü dedi: "Bu günlərdə Tariyel sənin yeni kitabını mənə verib. Afərin! Bilirdim ki, sən mənim səfərlərim barədə çox yazırsan. Həm Moskva mətbuatında, həm də yerli mətbuatda sənin məqalələrini oxuyurdum. Lakin bütün bunları qoruyub saxlamağın, onları sistemli şəkildə işləməyin və öz kitabında bu cür uğurlu şəkildə təqdim etməyin mənim üçün gözlənilməz və çox xoşagələn bir hal oldu. Sağ ol!".

Birinci zəngində mənə mənzil hədiyyə etdiyini dedi, sonra zəng vurdu ki, mənzilin hazırdı, gedib baxa bilərsən. Dedi: "Elmira, sən məni iki dəfə sevindirmisən. Birinci dəfə "Naşirin ölümü" kitabını, ikinci dəfə də "Həqiqət anları" kitabını nəşr etdirib mənə göndərəndə. Bunlar çox qiymətli tarixi kitablardır. Mən istəyirdim kimsə bunları yazıb nəşr etdirsin".

Onda mən öz niyyətimi onunla bölüşdüm: "Heydər Əliyeviç, Sizin bioqrafiyanızı yazmaq istəyirəm". Çox uzaq bir səfərə könülsüz yollanan bir adam kimi belə cavab verdi: "Yaz, Elmira, yaz. Səndə bu yaxşı alınır, mən isə … özün görürsən ki, vaxtım çatışmır".

Bu sözlər indiyə qədər qulağımda səslənir: "Yaz, Elmira, yaz. Səndə bu yaxşı alınır…". Bir müddətdən sonra onun dediyi bu sözləri düşünəndə, dedim, ay Allahım, O, bilirmiş ki, əcəl yaxındadır. Bu, onun vəsiyyəti imiş. Bu, Heydər Əliyevin özünün mənə verdiyi xeyir-dua idi...

**– Heydər Əliyevin Elmira Axundovanın yaradıcılığında yeri müəyyən mənada aydındır, bəs taleyində rolu nədir?**

– Mənim üçün çox maraqlı sualdır. Çünki Heydər Əliyev həqiqətən mənim taleyimdə çox böyük rol oynayıb. Bu dahi insan mənim həyatımı dəyişib. Heydər Əliyev olmasa, mən adi bir jurnalist olacaqdım. Onlarla istedadlı, savadlı həmkarlarımdan biri kimi qələmim və ağlımla ailəmi dolandırardım, başqa heç nə olmayacaqdı.

Mənim bəxtim onda gətirdi ki, Heydər Əliyev mənim yaradıcılığımı bəyəndi, qəbul etdi və məni öz yanında görmək istədi. Əlbəttə, Ulu öndər mənə böyük vəzifə verməyib, amma yaradıcılığımın parlaması üçün mənə meydan açıb. Mənə bütün dünyanı göstərib.

**– Axı vəzifələr təklif edib, siz nədənsə qəbul etməmisiniz...**

– Bəli, olub, nə gizlədim. Birinci dəfə, 1994-cü ildə "Azərbaycan" qəzetinə baş redaktor vəzifəsini təklif etdi. Düşündüm ki, burada işləsəm, bununla da yaradıcılığım məhdudlaşacaq. Özünüz düşünün də, Heydər Əliyevlə dünyanı gəzib-dolanmasaydım, bütün bunları edə bilərdimmi? Yox! Əlbəttə, onun yanında olacaqdım, amma müşavirələrdə oturacağam, onun toplantılarından materiallar dərc edəcəkdim. Amma canlı ünsiyyət olmayacaqdı.

İkinci dəfə, o zaman dövlət müşaviri işləyən Qabil Hüseynli çox təkidlə mənə AzərTAC informasiya agentliyinin direktoru vəzifəsini üzərimə götürməyimi təklif etdi və dedi, bu, Heydər Əliyevin təklifidir. O zaman Şamil Şahməmmədov xəstələnmişdi və Heydər Əliyev istəyirdi ki, agentliyə mən rəhbərlik edim. Mənim üçün nə qədər çətin olsa da, bu təklifi də qəbul etmədim. Amma Ulu öndər məndən incidi. Heydər Əliyev heç kimə ikinci dəfə vəzifə təklif etməyib. Bircə Əhməd Əhmədzadədən başqa. O da Azərbaycana birinci dəfə rəhbərlik edən vaxtlarda. Əhməd müəllim müsahibəsində bu barədə mənə bildirib. Mənə də ikinci dəfə təklif etdi və imtina etdim.

Mən çox xoşbəxt insanam, çünki Heydər Əliyevin yanında çox maraqlı və dəyərli bir onillik yaşamışam. Polad Bülbüloğlu demişkən: "Mənim ən qiymətli diplomum Heydər Əliyev komandasında olmağımdır". Bu, bir Akademiya idi. Bu, 10 il mənim həyatımı dəyişdirdi və mən Heydər Əliyevin tanınmış bioqrafı oldum. Bu, Heydər Əliyevin sayəsində mümkün oldu.

Heydər Əliyev 1999-cu ildə birinci dəfə xəstələnəndə ona məktub yazdım: "Heydər Əliyeviç, Siz tezliklə Vətənə qayıdın, sizsiz jurnalistlər heç nə yaza bilmirlər. Sizsiz heç nə baş vermir və biz də heç nə yaza bilmirik". Məktub çox xoşuna gəlmişdi. Sonra bu məktubu qəzetdə çap etdirdim.

Xoşbəxtlik bilirsiniz nədə idi? Az adam olar ki, Yaponiya İmperatorunun sarayına girə bilsin, NATO-nun mənzil-qərargahında olsun. Mən girmişəm və Heydər Əliyevin sayəsində girmişəm. Bütün dünyanı onunla gəzmişəm. Lüksemburq sarayına girə bilərsiniz?

**− Girmişəm Elmira xanım, 1994-cü ildə Heydər Əliyev ilk dəfə müstəqil Azərbaycanın Prezidenti kimi xarici səfər çərçivəsində Fransaya getdiyi zaman, mən də onun komandasında idim...**

− Bax, görürsünüz, Heydər Əliyevin sayəsində. Heydər Əliyev BMT-nin tribunasında 1994-cü ildə çıxış edəndə mən zalda oturmuşdum və heyranlıqla ona qulaq asırdım. Bütün bunları yazdım və bütün bunlar böyük sənədli-tarixi əsərlərə çevrildilər.

**– "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" kitabından belə bir nəticə hasil olur ki, Heydər Əliyevin siyasəti və yolu yeni obrazda, yeni bir ruhda davam edir. Bu sizin qənaətinizdir, yoxsa reallıq bunu deyir?**

− Şübhəsiz, bu belədir. Reallıq budur. Mən o kitabımda yazmışam, "Bəzən elə olur ki, şagird ustadından da irəli gedir". Nə qədər parodoksal səslənsə də, XX əsrdə Heydər Əliyevin başa çatdıra bilmədiyi işləri Prezident İlham Əliyev çox böyük uğurla həyata keçirdi. Təkcə İkinci Qarabağ müharibəsində Zəfər qazanmadı, bütün Azərbaycanın simasını dəyişdirdi. Bizim regionların siması yeniləşdi, müasir şəhərlərə çevrildilər.

Milli Məclisin deputatı olan vaxtlarda tez-tez seçicilərlə görüşdüm. Adətən, bu görüşlərdə onlar yoldan, sudan, qazdan şikayətlənirdilər. Bir dəfə məndən nə tələb etsələr yaxşıdır? "Xanım deputat, müvafiq orqanlara deyin, bizim kəndləri yüksək sürətli internetlə təmin etsinlər". Dedim, maşallah, görün hara gəlib çatmışıq.

Demək istəyirəm ki, Heydər Əliyev dahi insan idi. Ömür ona imkan vermədi Qarabağ məsələsini başa çatdırsın. Amma onu da danmaq olmaz ki, bu istiqamətdə çox nəhəng işlər gördü. Mənim kitablarımda ayrıca bir bölmə var ki, Ulu öndər bu istiqamətdə hansı işləri gördü. Dünya ictimaiyyətini 2020-ci il Zəfərinə hazırladı. Bu, çox mühüm bir məsələ idi. İlham Əliyev isə Zəfəri reallaşdırdı.

İlham Əliyev XXI əsrin siyasətçisidir. Müasir tendensiyaları bilir, dünyanın əsas aktorları ilə çox ağıllı siyasi dialoq aparır, regional liderə çevrilən Azərbaycanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirir, Avropanın təhlükəsizliyinə töhfələrilə ölkənin nüfuzunu qaldırır.

Bu mənada, əlbəttə, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin arzularını gerçəkləşdirən siyasi liderdir, onun yolunu uğurla, şərəflə davam etdirir.

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

## Henri Kissincer:

# Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilər olduqca nadir bir haldır

*(əvvəli 10 dekabr 2025-ci il tarixli sayımızda)*

***"Heydər Əliyev xatirələr işığında" layihəsinin növbəti qonağı tarix elmləri doktoru, uzun müddət ulu öndər Heydər Əliyevin köməkçisi olmuş Dilarə Seyidzadədir***



**– Heydər Əliyevlə xarici səfərlərə getdiyiniz illərdə daha çox hansı səfəri xatırlayırsınız?**

– Onun hər səfəri qiymətli və unudulmaz tarixdir. 1995-ci ildə Kopenhagendə böyük bir konfrans keçirilirdi. ABŞ Prezidenti Bill Klinton da orada iştirak edirdi. Ümumiyyətlə, ABŞ prezidentləri tədbirə gələndə onun təhlükəsizliyini qorumaq üçün 2500 mühafizəçisi gəlirdi və hər yerə onlar nəzarət edirdilər. Qalan bütün mühafizəçilər istirahət edirdilər. Azərbaycan nümayəndə heyətinə də başqa iştirakçı dövlətlərlə yanaşı böyük bir binada yer ayırmışdılar. Heydər Əliyev dedi, gedək baxaq görək bizə nə yer ayırıblar. Böyük dəhlizlə gedirdik, baxdıq ki, bizimlə üz-üzə Kuba Prezidenti Fidel Kastro, nümayəndə heyəti də arxasında gəlir. Hamı dayanıb başladı əl çalmağa və qışqırmağa: "Fidel", "Haydar Aliyev", "Fidel", "Haydar Aliyev". Klinton keçsə, bəlkə də heç bir reaksiya olmayacaqdı. Heydər Əliyev böyük bir şəxsiyyət idi və dünya onu tanıyırdı.

Heydər Əliyevin 2000-ci ilin iyulunda Avstriyaya rəsmi səfəri də çox maraqlı oldu. Ölkənin Federal Prezidenti Tomas Klestilin rəsmi qəbulunda, Ulu öndər başladı məşhur avstriyalı bəstəkar Ştraus haqqında çəkilmiş filmlərdən danışmağa. Dedi: "Mən Ştrausun "Vyana meşəsindən hekayələr" – melodiyasının, "Yarasalar" operettasının ecazkar musiqisinin vurğunu olmuşam". Sonra İohann Ştraus haqqında ən məşhur filmlərdən biri olan, 1972-ci ildə yeni versiyası çəkilmiş "Böyük Vals" filmindən söhbət açdı. Mən də Klestilin yanında oturub ona tərcümə edirəm. Klestil təəccüblə dedi ki, mən o filmə baxmamışam. Heydər Əliyev gülə-gülə mənə baxıb dedi: "Buna bax e, heç Ştrausu tanımır". Sonra gəldik Avstriya parlamentinə. Baxdıq ki, Heydər Əliyevin stolunun üstünə bir qutu qoydular. Soruşdu ki, bu nədir? Dedilər, görürük siz Ştrausu çox sevirsiniz, biz də sizə Ştraus haqqında çəkilmiş yeni bir film hədiyyə edirik. Axşam da Heydər Əliyevin şərəfinə məşhur Vyana orkestrinin ifasında Ştrausun əsərlərindən ibarət möhtəşəm konsert təşkil edildi.

İştirakçısı olduğum maraqlı bir xarici səfər də Gürcüstanda oldu. Heydər Əliyevin Gürcüstana səfəri möhtəşəm təşkil edilmişdi. Axşam Eduard Şevardnadze Heydər Əliyevin şərəfinə böyük ziyafət verdi. Bu ziyafətə də yığıb məşhur müğənniləri- Vaxtanq Kikabidze, Nani Breqvadze, Mziuri və sairlərini, konsert olacaqdı. Birdən Heydər Əliyev qayıtdı ki, burada oturanların heç biri Tbilisi vağzalında yatmayıb. Amma mən yatmışam. Mən də yerimdə astadan qayıtdım ki, mən də yatmışam. Nani Breqvadze qayıtdı ki, siz orada neyləyirdiniz. Sən demə Heydər Əliyev eşidib. Səhəri gün mənə dedi: "Siz niyə Tiflisin vağzalında yatmısınız? Ananız, atanız sizə necə imkan verib orada yatmısınız".

Mən ona tələbə vaxtı başımıza gələn əhvalatı danışdım. Dedim: "Cənab Prezident, Bakı Dövlət Universitetində oxuyanda bizi Ağstafaya pambığa aparmışdılar. Ora da Gürcüstana çox yaxındır. Biz də heç pambıq yığa bilmirdik. Atam nazir olsa da pambıqda, hamı kimi döşəmədə, bir kisəyə saman doldurub döşək yerinə qoyub üstündə yatırdıq. Uşaqlardan birinin şuluq işinə görə, bizi hamama getməyə qoymurdular. Çox xahiş-minnətdən sonra bizi apardılar Tiflisə. Burada hamamda tez çimdik, çıxıb getdik univermağa, özümüzə qəşəng bəzək-düzək şeyləri aldıq. Başımız buna necə qarışdısa, avtobusa gecikdik. Axşam vağzalda qaldıq. Səhər saat 6-da durduq, yenidən getdik Ağstafaya pambıq yığmağa..."

**– Xarici səfərlərdə rəsmi tədbirlərlə yanaşı, proqramda mədəni tədbirlər də olurdu. Heydər Əliyevin belə tədbirlərə münasibəti necə idi?**

– Ulu öndər mədəni tədbirləri proqramda özü qeyd edirdi. Səfər öncəsi xarici işlər nazirindən proqramı alıb baxırdı və düzəlişlər edirdi ki, bax bura gedəcəyəm, bu yerləri gəzəcəyəm. İtaliyaya səfərə getmişdik. Bütün görüş yerlərində Rafaelin, Mikelancelonun, Tisianın rəsmləri asılmışdı. Bir yerdə də Tisianın "Danaya" əsərinə baxırdı. Bilirsiniz ki, bu əsəri ilk dəfə Rembrand çəkib, sonra Tisian, Korrecco, Klimt, Qossert kimi məşhurlar onu ayrı-ayrı çəkiblər. Heydər Əliyev dedi, eh, mən bunu 30 il əvvəl görmüşəm. Niyə bunu deyirəm? Çünki qayıtmamışdan 2 gün əvvəl mənə deyirdi götür operatoru, gedin o görməli yerlərin hamısını çəkin, qoy mənim xalqım da görsün biz hansı yerləri görmüşük. Bu yolla dünyanı da xalqına tanıdırdı.

**– Heydər Əliyev xalqın içində olmağı, insanlarla canlı ünsiyyəti çox sevərdi, xüsusilə də o zaman qaçqın düşmüş insanlarla. Acıdığı, kövrəldiyi, hətta qəzəbləndiyi məqamların olduğu istisna deyildi. Görüşlərdən sonra təəssüratını açıqlayırdımı?**

– Bu, onun ən yaralı yeri idi. Qaçqınların ozamankı vəziyyətindən həmişə ürək ağrısı ilə danışırdı. Bir gecə möhkəm yağış yağmışdı. Səhər işə gələndə gördüm çox qayğılıdır, fikrə dalıb. Soruşdum, cənab Prezident, bu gün çox fikirlisiniz. Dedi: "Bilirsiniz, axşam yağış yağırdı, səhərə qədər yatmamışam. Qaçqınlarımız gəlib gözümün qabağında durdu, axı mənim xalqım buna layiq deyil, niyə belə əziyyət çəkməlidir".

O çox ağır keçirirdi belə məqamları. Hətta kiminlə harada görüşürdüsə, onlara qaçqınların ağır yaşam tərzindən, taleyindən danışırdı.

Bir dəfə də Kürdəmirdə axşam qaçqınlarla görüşə gedirdik. Qəfildən yağış yağmağa başladı. Çadıra girdik, mən də başıma yaylıq bağlamışam. Çatdıra bilmirdim, bu məni soruşdu, mühafizəçilər dərhal məni götürüb onun qabağında yerə qoydular. Dedi: "Bu insanların problemlərini dinlə, hamısını bir-bir qeyd elə, sonra mənə məlumat ver, görək bunların yaşayışını necə yüngülləşdirə bilərik". Səhəri gün dedi, o nə idi sizi götürüb mənim qabağıma atdılar və ürəkdən güldü.

Otururdu çadırlarda, insanlarla söhbət edirdi, dərdlərinə şərik olurdu. Onlarla bir süfrədən yemək yeyirdi. Yadımdadır, bir dəfə bir çadır şəhərciyinə getdik, orada toya hazırlaşırdılar, bir qadın da toy süfrəsinə lavaş bişirmişdi. Götürdü lavaşdan yedi, gənclərə xeyir-dua verdi.

**– Heydər Əliyev yaradıcı adamlara çox böyük diqqət və qayğı ilə yanaşırdı. Bu nədən irəli gəlirdi?**

– Çünki özü də yaradıcı insan idi. Heydər Əliyev istedadlı adamları yüksək qiymətləndirirdi. Onun ən çox sevdiyi insanlar Azərbaycana şöhrət gətirən insanlar idi. Bu barədə söhbətlərimiz olurdu. Ölkəni idarə etməkdə də, rəhbərlikdə də ulu öndər yaradıcı insan idi. Hər şeyə diqqət edirdi və bilmədiyi məsələnə də öyrənməyə, aydınlaşdırmağa çalışırdı.

Bir dəfə "Azdrama"da "Aydın" tamaşasına getmişdik. Mən də təbii ki, iştirak edirdim. Tamaşadan sonra səhnə arxasına keçib aktyor truppası ilə söhbət etdi. Burada Cəfər Cabbarlı ilə yanaşı, Aydın rolunu nə zaman, kimlər oynayıb, obrazı yaratmağa necə nail olublar, hamısı haqqında müfəssəl danışdı. Mən heyran qalmışdım və səhəri gün gəlib dedim: "Cənab Prezident, olarmı mən bu danışdıqlarınızı bir kitab şəklində çap edim?" Çünki mən mənbələrlə işləyəndə bilirdim necə problemlər meydana çıxır. Bəzən mənbə tapılır, bəzən tapılmır, qəzetlərin həmin nömrələri olmur, olanda da o məqalələr kəsilmiş olurdu. Amma o bütün bunları əzbər deyirdi. Kitaba da böyük sevgisi vardı. Dedi: "Nədir, xoşunuza gəldi?" Dedim: "Cənab Prezident, mən Akademiyada işləmişəm, belə təhlil eşitməmişəm". Dedi: "Hazırla, çap etdir". Ondan sonra bu istiqamətdə işlərə başladıq və "Heydər Əliyev mədəniyyətin keşiyində" adlı 3 cildlik kitab nəşr etdirdik. Burada bütün mədəniyyət və incəsənət xadimlərinin yubiley materiallarını, o adamların Heydər Əliyevə təşəkkür məktublarını topladıq, Prezidentin mədəniyyət işçiləri ilə görüşlərini daxil etdik.

**– Heydər Əliyev insanlarda daha çox nəyi qiymətləndirirdi?**

– Düzgünlüyü və təmizliyi. Mən ona çox məsələləri açıq deyirdim və istəyirdim, o hər şeyi olduğu kimi bilsin. Hətta bir dəfə ona dedim ki, "cənab Prezident, mən sizin şəxsi xəbərçinizəm. Nə baş verirsə, nəyi bilirəmsə, mən sizə deyəcəyəm, qərar qəbul etmək artıq sizin səlahiyyətinizdir. Mənə bilirsiniz nə təsir edir, sizə gəlib bəzi məsələləri demirlər, xalq da deyir bəs Prezident hara baxır. Bilmirəm, elə məsələ var bəlkə də ona diqqət etmək lazım gəlmir, amma sizin bilməyinizi mən vacib hesab edirəm". Deyirdi, mütləq mənə məlumat verin.

Bilirsiniz, bəzən mən ona nəyisə danışanda deyirdi, sən bunu haradan götürmüsən? Deyirdim, bu haqda qəzetlərdə yazıblar. Deyirdi, bəs mənə bu haqda heç məlumat verən olmayıb.

Administrasiyada informasiya şöbəsi var idi, onlar materialları göndərirdilər, sadəcə, içəridən bəzi adamlar çox vaxt belə materialları ona göstərmirdilər. Sonra katiblik yaradıldı və artıq informasiya şöbəsinə ehtiyac qalmadı. Katiblik Azərbaycanla bağlı, Prezidentin fəaliyyətilə bağlı harada və hansı dildə materiallar dərc edilirdisə, bütün materialları toplayıb sonra onları Prezidentə təqdim edirdi.

## "Heydər baba, nə olar, sən getmə, yenə bizim Prezidentimiz sən ol..."

**– Ulu öndər bəzən gecə yarıya qədər işləyirdi. Şahidəm ki, hətta xarici ölkələrə rəsmi səfərlərdə belə saysız-hesabsız qəbullar keçirirdi və bu, gecə yarıya qədər uzanırdı. Heç dilə gətirdiyi olubmu ki, bu gün yaman yoruldum?**

– Səmimi deyim ki, yox. Heydər Əliyev işləməkdən sanki zövq alırdı. 1998-ci ili xatırlayın, Prezident seçkilərində ulu öndər qısa vaxtda öz kampaniyasında neçə rayona, bölgəyə ardıcıl səfərlər etdi. Bu səfərlərdən biri heç yadımdan çıxmır.

Seçki kampaniyası ilə bağlı Biləsuvar rayonuna səfərə yolda düşdük. Hava çox qızmar idi. Adətən həmin bölgə də çox isti olur. Biləsuvar şəhərinə çataçatda bir dəstə kiçik yaşlı uşaq avtomobil karvanı boyu qaçıb "Heydər baba, Heydər baba, sən getmə, Prezident sən ol!" deyə qışqırırdılar. Ulu öndər də əvvəl avtomobilin şüşəsini endirib onlar əl edirdi. Sonra uşaqların təhlükəyə məruz qala biləcəyini düşünüb, avtomobili saxlatdırdı və maşından düşdü. İstidə qısaqol maykada, pambıq şortda, üz-gözlərindən tər axa-axa onun maşının arxasıyca qaçan uşaqları yanına çağırdı. Soruşdu: "Niyə belə qaçırsınız?" Uşaqlardan biri ağlıya-ağlıya qayıtdı ona: "Heydər baba, nə olar, sən getmə, yenə bizim Prezidentimiz sən ol." Prezident bir az kövrələn kimi oldu və dedi: "Oğlum, kim deyir ki, mən gedirəm? Mən heç yerə getmirəm, görürsünüz gəlmişəm." Uşaq yenə ağlaya-ağlaya dedi: "Deyirlər, siz gedirsiniz, Etibar gəlir..." Prezident onu qucaqlayıb üzündən öpdü və dedi: "Darıxmayın, sizə söz verirəm ki, mən getməyəcəyəm, yenə Prezident olacağam!".

Bu sözlərdən sonra elə bil uşaqlara dünyanı verdilər. Gözləri parıldadı. Mənim də gözlərim dolmuşdu. Heydər Əliyev mənə dedi, o uşağın adını, familiyasını, atasının adını, ünvanını, oxuduğu məktəbi qeyd edin. Sonra da uşaqlara dedi: "İndi arxayın gedin evə, maşınların dalıyca qaçmayın. Yıxılarsız, maşın sizi vura bilər. Razılaşdıq?" Başları ilə razılaşıb geri çəkildilər.

Hamımız heyrətdən donub qalmışdıq. Prezidentin də, uşaqların da bu hərəkəti bizi kövrəltmişdi. Ulu öndər uşaqları tanımırdı, amma bilirdi ki, onlar da onun, rəhbərlik etdiyi dövlətin balalarıdır və bu cür də onlara sevgisini bildirdi.

Məsələ bununla bitmədi. Bu hadisədən 2-3 il keçmişdi. Axşam işdən çıxıb evə gəldim. Saat 9-10 arası telefon zəng çaldı. Telefonda ulu öndər idi. Dedi: "Seçki kampaniyası zamanı Biləsuvarda görüşdüyüm o uşaq yadınızdadır?" Dedim: "Bəli cənab Prezident!" Dedi: "Onun ünvanı, adı, familiyasını yazmışdınız, saxlamısınız onları?" Dedim: "Saxlamışam." Dedi: "Axtarın onu, tapın, sabah mənə məlumat verin".

O zaman da bu məlumatları kiçik bir bloknota yazmışdım. Fikirləşdim, yadıma sala bilmədim ki, onu hara qoymuşam. İş masama gəlib stula oturdum. Baxdım ki, stolun kənarında dəftərlərin üstündə. Dərhal Biləsuvarla əlaqə saxladım və məlumatları ötürdüm ki, uşağı tapsınlar. 1-2 saatdan sonra xəbər gəldi ki, uşağın ünvanını, oxuduğu məktəbi tapıblar. Sinif rəhbəri bildirib ki, ögey anası onun qidalanması ilə maraqlanmadığından, qayğı göstərmədiyindən uşaq vərəm xəstəliyi tapıb və hazırda Bakıda Ağ Ciyər Xəstəlikləri İnstitutunda müalicə olunur. İnstitutla əlaqə saxladım, xəbəri təsdiqlədilər.

Səhər işə gələn kimi Heydər Əliyev dərhal məni çağırdı və uşağı soruşdu. Bütün məlumatı ona çatdırdım. Çox pərişan oldu və dedi: "Mənim adımdan Bakı şəhərinin meri Abutalıbova tapşırın, o uşaqla ciddi şəkildə maraqlansın və onun müalicəsini nəzarətə götürsün, nə problemi var həll etsin..."

Bu yaxın illərdə tibb müəssisələrinin biri məni görüşə dəvət etmişdi və mən bu hadisəni danışdım. Bir həkim qalxıb dedi, Dilarə xanım, o zaman mən o İnstitutda çalışırdım, məlumatım var bu uşaqdan. O sağaldı, böyüyüb evlənib, indi 2 uşağı var, özü də Bakıda yaşayır. Baxın, Heydər Əliyev belə bir insan idi, onu unutmaq olarmı.

**– Dilarə xanım, Siz sonradan yeni yaradılan Prezidentin Katibliyi rəisinin müavini, rəisi vəzifəsində çalışdınız. Bu katiblik nə üçün yaradıldı?**

– Yeri gəlmişkən, elə katiblik ideyası da 1998-ci il seçki kampaniyasından sonra gündəmə gəldi. Azərbaycanın bütün bölgələrini gəzib, axırda gəldik Gəncəyə. Meydanda minlərlə insan toplaşmışdı. Tədbiri açandan sonra Prezident kürsüyə çıxıb çıxış etməyə başladı. Bu məqamda bir kənarda toplaşan şəhid anaları elə qışqırıb, haray-həşir saldılar ki, ağız deyəni, qulaq eşitmirdi. Birdən mühafizənin rəisi, general Vaqif Axundov mənə yaxınlaşıb dedi: "Cənab Prezident deyir, gedib o qadınlarla görüşsün və onları sakitləşdirsin". Dedim: "Mən gedə bilmərəm, yox, qorxuram. Onlar mənə qulaq asan deyillər, mən kiməm ki?" Dedi: "Gedim deyim getmirsiniz?" Dedim: "Yox, yox, ayıbdır, gedirəm". İndi gedirəm, tez-tez də dönüb Heydər Əliyevə baxıram. Prezident də baxır ki, mən qorxuram, sözünü saxlayıb üzünü qadınlara tutub dedi: "Mənim bacılarım, mənim analarım, qızlarım! İndi sizin yanınıza bir xanım gəlir, mən ona çox inanıram, siz də inanın. Nə dərdiniz-səriniz var ona deyin".

Onlar dərhal səslərini kəsdilər. Mən də ürəklənib dərhal onlara yaxınlaşdım və diktafonu yandırıb dedim: "İndi bir-bir özünüzü təqdim edib, dərdinizi deyin. Bütün danışdıqlarını lentə aldım. Prezidentin qəbuluna gələndə qadınların bütün danışdıqlarını ona çatdırdım. Biri deyirdi damım dağılıb, evimə su damır, icra başçısı məni eşitmir. Biri deyirdi evim yoxdur, küçədə qalmışam. Müxtəlif məişət problemləri. Prezident dərhal tapşırıq verdi, onların bütün problemlərini az bir vaxtda həll etdilər. Ondan sonra hər dəfə insanlarla görüşəndə məni göstərib deyirdi, bütün şikayətlərinizi, yazıb verin bu xanıma.

İnanın, hər görüşdə vətəndaşlar 1000-ə yaxın məktub verirdilər. Gətirib araşdırırdıq və başlayırdıq onların xahişlərini, problemlərini həll etməyə. Ondan sonra xalqın inamı birəbeş artdı. Mən bilavasitə bu işlə məşğul olurdum. Ona görə də Heydər Əliyev Administrasiyada öz katibliyini yaratdı və məni ora rəis təyin etdi.

O zaman prezidentlik iddiasında olanlar çox idi. Bir dəfə dedim: "Cənab Prezident, onlar bilirlərmi ki, Prezident olmaq nə deməkdir! Axı Prezident olmaq ən çətin vəzifədir". Başını tərbədib qayğılı-qayğılı dedi: "Kənardan baxana asan görünür. Belə iddia ilə də gəlib Prezident olublar və ölkəni bərbad günə qoyublar. İndi də boğazacan problemin içindəyik..."

**– Söhbətimizin əvvəlində dediniz ki, Heydər Əliyevlə bağlı 1993-2003-cü illərdə qeydlər apardığınız 60 dəftər var. O qeydlər sirr deyilsə, onlardan bəzilərini oxucularımızla bölüşə bilərsiniz?**

– Təbii ki, hamısını açıb demək mümkün deyil, amma bir neçəsini danışaram. Vatikan dövlətinin başçısı, Roma Papası II İoann Pavel 2002-ci il mayın 22-də Bakıya gəlmişdi. Yəqin bilirsiniz ki, Papa II İoann milliyyətcə polyak idi. Bakıya gələndə polyakların Azərbaycana necə gəlməsi, xüsusilə burada işləyən məşhur memarların niyə Azərbaycanda qalması, çoxlu sayda polyakın respublikamızda necə yaşadıqları ilə maraqlanırdı. Heydər Əliyev bir çox informasiyaları verəndən sonra mənə dedi, sən tarixçisən, danış, qoy bilsin polyaklar Bakıda necə dinc, əmin-amanlıq içində işləyib yaşayıblar. Papa da rus dilində danışırdı. O sual verir, mən də cavab verirdim. Sonda Papa qayıtdı ki, xanıma hədiyyə gətirin. Onlar da mənə muncuqdan bir boyunbağı bağışladılar.

Heydər Əliyevin zarafatla dediyi sözündə belə bir məna vardı. Yadımdadır, Moldova Prezidenti Petr Luçinski Azərbaycana səfərə gəlmişdi. Ona ziyafət veriləndə mən də stolda oturmuşdum. Qarşısında şərab vardı, hər dəfə qaldıranda mən də qaldırır, sonra yerə qoyurdum. Luçinski bunu gözdən qaçırmamışdı və Heydər Əliyevə dedi: "Niyə xanım içmir? Sizdə məgər xanımlar içki içmirlər?" Heydər Əliyev dedi: "O heç çörək də yemir". Bilirsiniz, niyə yemirdim. Çünki yemək süfrəsində də Prezident o qədər maraqlı fikirlər söyləyirdi ki, mən dərhal onları qeyd edirdim. Ona görə mən özüm özümə ad qoymuşdum - kəlmə güdən.

**– Dilarə xanım, Heydər Əliyevin yemək məsələsində bir kaprizi vardımı?**

– Yox. Doğrudur, milli mətbəximizi çox sevirdi, amma bəzən başqa yeməklərə də maraq göstərirdi. Yaponiyaya səfərə getmişdik. Heydər Əliyev orada bizə xidmət göstərənlərə dedi: "Bəsdir mənə Avropa mətbəxindən olan yeməklər verdiniz, istəyirəm yapon yeməklərini dadım". Dedilər: "Bacarırsınızsa, hazırlaya bilərsiniz". Dedi: "Əlbəttə bacarıram". Mən də bilirdim ki, o yeməkdən yeməyəcəyəm. Ət gətirirlər, qoyurlar qarşında, qabağında da plitə, özün bişirməlisən.

İqtisadi məsələlər üzrə dövlət müşaviri vardı, Vahid Axundov, ona dedim, siz Prezidentlə üz-üzə oturun, mən yanında oturum, qoy görməsin yeyirəm, ya yemirəm. Razılaşdı. Amma gələndə gördüm oturub Prezidentin yanında. Mən oturdum üzbəüz.

Heydər Əliyev bu əti balaca sobanın üstündə elə qəşəng bişirdi, o çubuqlarla da elə səliqə ilə yedi, hamımız məəttəl qaldıq. Çoxumuz heç bu çubuqları tuta bilmirdik.

*(ardı 7-ci səhifədə)*

## *Henri Kissincer:*

# Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilər olduqca nadir bir haldır

*(əvvəli 6-cı səhifədə)*

**– Eşitdiyim və bildiyim qədər Heydər Əliyev Allaha inanan, müqəddəs yerləri ziyarət etməyi sevən bir insan olub. Onunla işlədiyiniz illərdə bunu təsdiqləyən bir epizod danışa bilərsinizmi?**

– Heydər Əliyevin Allaha inancı ailədən gəlirdi. Bunu özü də daim deyirdi. Bir gün Zağulbaya gedirdik, iqamətgahda görüş olmalıydı. Avtomobil karvanı Mir Möhsüm ağanın ziyarətgahının yanından keçirdi. Birdən maşın karvanını saxladılar və dedilər, Prezident Mir Möhsüm ağanın qəbrini ziyarət edəcək. Mən də tez yaylığımı başıma bağladım, düşüb getdim onun ardınca. Mühafizəçilər mənə dedilər ki, deyib bircə Bəylər müəllim getsin onunla. Heydər Əliyev bunu gördü və dedi: Buraxın gəlsin.

Anam uşaq vaxtlarından öyrətmişdi bu ziyarətin qaydasını, o məqbərənin şəbəkəsini öpüb başına dolanırsan. Mənim üçün də çox maraqlı idi, görüm Prezident necə ziyarət edəcək. Baxdım ki, biz necə edirik, eynən o cür də ulu öndər ziyarət etdi. Gümüşü şəbəkəni öpdü və 3-4 dəfə dövrə vurdu. Sonra da Bəylərə dedi, qutuya pul sal. O nəzir saldı, mən də saldım. Sonra stoldan nəzir götürməyə getdik. Stolda bir qabda qənd, birində də konfet vardı. Mən qəndi götürüb ağzıma qoydum və birdən elə bil ayıldım, dedim, “vayy”. Heydər Əliyev qayıtdı mənə baxdı və soruşdu: “Oruc-san?” Dedim: “Bəli”. Dedi: “Mən burdayam, keçərlər, eybi yoxdur”. Sonra gəldi məsciddə ağsaqqalları yığdı və anasının ona Mir Möhsüm ağa haqqında danışdıqlarını onlara söylədi.

**– Anasından danışmışkən, bir sual da verim. Ulu öndər Prezident olduğu illərdə ona yaxın adam danışırdı ki, bizim qəzetdə İzzət xanımla Zərifə xanımın münasibətləri haqqında gedən bir nostalji məqaləni siz ona göstərmisiniz, ulu öndər oxuyandan sonra çox kövrəlib. Olubmu Sizinlə valideynləri, xüsusilə İzzət xanımla bağlı hansısa xatirələrini bölüşsün?**

– Əlbəttə, olub. Ümumiyyətlə, Heydər Əliyev üçün valideynləri, xüsusilə anası ilə bağlı xatirələri çox əziz idi. Tez-tez xatırlayırdı anasını. Naxçıvana gedəndə də mütləq valideynlərinin məzarını ziyarət edirdi.

Özbəkistanda səfərdə olarkən böyük bir təntənəli tədbirdə Heydər Əliyev möhtəşəm nitq söylədi və salon ayaq üstə onu alqışladı. Tədbirdən sonra İslam Kərimov Heydər Əliyevin qoluna girib soruşdu: “Heydər Əliyeviç, axı necə olur ki, siz hər şeyi bilirsiniz?” Ulu öndər səmimi hisslərlə cavab verdi ki, “yəqin ki, anamın sayəsində”. Valideynlərinə, xüsusən anasına böyük ehtiram bəsləyir, yetişməsində ailəsinin müstəsna rolunu həmişə xüsusi qeyd edirdi.



Baxın, biz oğul, ata, dost, qardaş, sirdaş kimi məfhumları götürsək, Heydər Əliyev onların hamısının ən yüksək və kamil nümunəsi idi.

Həyat yoldaşı Zərifə xanım mələk kimi bir xanım idi. Heydər Əliyev onunla bağlı nostalji xatirələrini bəzən bölüşürdü və mən görürdüm ki, bu insan həyat yoldaşını nə qədər böyük məhəbbətlə sevib.

**– Dilarə xanım, dekabrın 12-si ümummilli liderin anım günüdür. Heydər Əliyevin əbədiyyətə qovuşduğunu eşidəndə hansı hissləri yaşadınız?**

– Heydər Əliyev ilk dəfə 1998-ci ildə Türkiyədə müalicə alanda mən də onunla Gülhanəyə getmişdim. Şənbə günü idi, cənab Prezidentin qəbulu olmalı idi, gəlməmişdi. Dedilər özünü yaxşı hiss etmir. Sonra mənə dedilər hazırlaşın, bir neçə günlük Türkiyəyə gedəcəksiniz. Türkiyəyə getməmişdən Təhlükəsizlik Şurasının üzvlərini öz iqamətgahında topladı və dedi: “Mən müalicəyə gedirəm. Mənimlə Vaqif Axundov, bir də Dilarə Seyidzadə gedəcək”. Səhəri gün Binə hava limanına getdim. Hava limanında Türkiyənin də, Rusiyanın da təcili-tibbi yardım təyyarələri gözləyirdi. Heydər Əliyev Türkiyəni seçdi.

Mən təyyarəyə mindim. Salonda gördüm həkimlər bir-biriləri ilə danışırlar və başa düşdüm ki, Prezidentin səhhətində problemlər var.

Heydər Əliyevin təyyarəyə necə gəldiyini görmədim. Ankarada təyyarə eniş edəndə, baxdım ki, Heydər Əliyev kostyumda, qalstukda trapa çıxdı. Yanında da admiral, hərbi həkim. Dedim: “Keçmiş olsun, həmişə ayaq üstə”. Sonra danışanda gülürdü və məni göstərib deyirdi, bu, elə bilirdi mən artıq yoxam. Sən demə, ona görə kostyum geyib, qalstuk taxıbmış ki, onu müşayiət edən həkimlərə təşəkkür edib çox sağ ol desin.

Sonra Ankarada xüsusi bir məkanda Süleyman Dəmirəl 2 vertolyotla Prezidentimizi qarşıladı. Heydər Əliyev bizimlə bir vertolyota, Süleyman Dəmirəl ikinci vertolyota oturub Gülhanə hospitalına yola düşdük. Gülhanədə bütün Türkiyə media nümyəndələri, xarici ölkələrin buradakı jurnalistləri dərhal peyda oldular. Görünür, Heydər Əliyevin gəlişindən xəbər almışdılar.

3 həftə orada qaldıq. Mən səfirlikdə çalışan xanımlardan xahiş etdim, gedib mənə pal-paltar aldılar. Çünki 2 günlük ora gedən adam, gözləmirdim ki, 3 həftə orada qala bilərəm. Bütün tibbi müayinələrdən keçəndən sonra, mən hər gün onunla əlaqə saxlayıb Bakıya informasiya verirdim ki, səhhəti ilə bağlı rəsmi məlumat yaysınlar.

2003-cü ildə isə nələr baş verdi siz bilirsiniz. Aprelin 21-də Heydər Əliyev Respublika Sarayında ürək böhranından 2 dəfə yıxıldı. Dərhal Prezidentin həkimləri Respublika Sarayına çağırıldılar. Amma buna baxmayaraq, Prezident yenə səhnəyə qayıdıb tribunaya çıxdı və sözünü tamamladı.

Saraydan çıxanda hamıya dedi, gedin iş yerlərinizə. Bircə mənə heç nə demədi. Mən onun ardınca getdim. Bayıra çıxanda baxdıq ki, sarayın hər iki tərəfində yollar insanla doludur. Çünki çıxışı canlı gedirdi, vətəndaşlar bütün bu hadisəni görmüşdülər və hamı küçəyə tökülmüşdü, gözləri sarayda idi. Heydər Əliyev əvvəl istədi dərhal avtomobilinə otursun, sonra baxdı ki, insanlar sükutla, kədər dolu baxışlarla ona baxırlar, dayandı və hər iki tərəfə əl edib sağollaşdı. *(Dilarə xanım bu məqamda göz yaşlarını saxlaya bilmir)* Sanki bilirdi ki, bu onun xalqı ilə son görüşüdür. Bütün şəhər sükut içində idi. Sonra avtomobilə oturdu.

Prezident iqamətgahına yola düşdü. Mən isə getdim işə. 10:30-da mənə zəng vurdular ki, artıq iş vaxtı bitib. Getdim evə. Səhəri gün həmişəki vaxtda işə gəldim. Telefon zəng çaldı. Qaldırdım ki, Prezidentdir. Dedi: “Siz dünən gördünüz də baş verənləri?”. Dedim: “Bəli, cənab Prezident, keçmiş olsun”. Sonra qayıdıb mənə nə desə yaxşıdır. Dedi: “Mən deyirəm, bəlkə bu gün gəlməyim işə?”. Dedim: “Əlbəttə, cənab Prezident. Biz buradayıq, Siz narahat olmayın”. Üstündən 1 saat keçdi, köməkçisi zəng vurdu ki, “Prezident sizi çağırır”. Doğrusu, çaşıb qaldım, axı özü dedi ki, bəlkə gəlməyim. Dəstəyi qoydum. Sonra dedim, axı məni hara çağırır? Təzədən Tariyelə telefon açdım: “Cənab Prezident hardadır?” Dedi: “Gəlib, kabinetindədir”.

Gəldim ki, oturub kresloda. Dedi: “İndi mənim yanıma bir adam gələcək, üçümüz olacağıq. Hazırlaşın”. Ondan sonra yola düşdü Klivlendə. Mən onu bir daha görmədim *(sakitcə ağlayır və stolun üstündən salfet götürüb göz yaşlarını silir.).*

Bilirsiniz, uşaqlıqdan mənim həyatımda belə qəhrəmanlar olub. Birinci qəhrəman öz atam olub. Barat Şəkinskaya bir dəfə mənə dedi, “biz sizin atanızın kabinetinə girəndə ayaqqabılarımızı silib girirdik. O qədər təmiz və səliqəli adam idi”.

**– Heydər Əliyevin müstəsna xarakterini, insani keyfiyyətlərini, bitkin obrazını qısaca necə ifadə edərdiniz?**

– Heydər Əliyevin bitkin obrazını ifadə etmək üçün elə mükəmməl söz tapmıram ki, onu tam mənada açıb göstərə bilsin. Heydər Əliyev deyirdi ki, Azərbaycanın müstəqilliyi, xalqımın azadlığı yolunda canımdan da keçməyə hazıram. Onun fəaliyyətinə adi yanaşmaq olmaz, o böyük bir tarixdir. O, öz fəaliyyəti ilə böyük və şərəfli bir tarix yazıb, əbədiyyətə qovuşdu.

Bizim ən böyük xoşbəxtliklərimizdən biri odur ki, dərin siyasi, mədəni biliklərə, fenomenal qabiliyyətə malik olan Heydər Əliyev öz simasında xalqımızı dünyaya təqdim edib tanıtdırırdı. Xarici səfərlərə gedərkən getdiyi ölkənin tarixi və mədəni həyatı ilə bağlı o ölkələrin rəhbərlərinə bəzən elə məlumatlar verirdi, onlar Heydər Əliyevin erudisiyasına heyran qalırdılar. Ən möhtəşəm tədbirlərdə, zirvə görüşlərində, danışıqlarda Heydər Əliyev öz biliyini, savadını elə səmimi nümayiş etdirirdi ki, hamı ona valeh olurdu.

Heydər Əliyevlə bir neçə dəfə görüşmüş Amerikanın çox məşhur siyasi xadimi Henri Alfred Kissincer sonralar deyirdi: “Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilər olduqca nadir bir haldır”.

ABŞ-ın məşhur politoloqu Zbiqnev Bzejinski də Heydər Əliyevə daim böyük maraq göstərir və həmişə onunla görüşə can atırdı. O, Heydər Əliyevi SSRİ-nin ən böyük siyasi xadimi hesab edirdi. Sonralar Bzejinski, cənab Prezident İlham Əliyevə məktublarının birində yazmışdı ki, sizin böyük atanız regionun tarixini tamamilə dəyişdi. İnsan nə qədər əzəmətli, müstəsna qabiliyyətə, zəkaya sahib olmalıdır ki, bütöv bir regionun tarixini dəyişə bilsin? Heydər Əliyev bunu bacardı və zirvədə əbədi olaraq qalacaq.

Allah ruhunu şad etsin!

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Azərbaycanın çağdaş tarixinin və gələcək taleyinin memarı

**Bəzi insanlar, sadəcə, bir dövrü yaşayır, bəziləri isə bütöv bir dövrü yaradır. Ümummilli lider Heydər Əliyev ikinci qrupa, yəni tarixin axarını dəyişən, taleləri yenidən yazan dahi şəxsiyyətlər zümrəsinə aiddir. 12 dekabr anım günü sanki qüdrətli bir palıdın kölgəsində dayanıb, onun millətin tarixində və taleyində buraxdığı əbədi izə baxmaq anıdır.**

Ulu öndərin özünün dediyi kimi, onun həyatı sınaqlar labirintindən keçən, lakin mətinliklə yaşanmış bir ömür hekayəsidir. Bu ömür yolunda hər mərhələ Azərbaycan üçün bir qurtuluş, bir dirçəliş anı olub. 1969-cu ildə ölkəyə rəhbərliyə gəlişi qəflət yuxusundan oyanışın, iqtisadi gerilik bəndinin qırılıb atılmasının başlanğıcı idi. O, Azərbaycanı sadəcə xammal mənbəyi olmaqdan çıxarıb, sənaye və kənd təsərrüfatı sahəsində öz sözünü deyən, inkişaf templərinə görə önə çıxan bir məkana çevirdi. Bu, quruculuq erası idi. Mədəniyyətə, incəsənətə, milli-mənəvi dəyərlərə göstərdiyi diqqət, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili statusunun Konstitusiyaya daxil edilməsi – bütün bunlar Azərbaycan ruhunun toxunulmaz qalxanını yaratdı.

Lakin tale fırtınalarla doludur. 1987-ci ildə imperiyanın mərkəzindəki siyasi xəttə etirazı, tutduğu uca postdan imtinası, onun prinsipial iradəsinin və xalqına sadiqliyinin ən parlaq təzahürü idi. 1990-cı il Qara Yanvar faciəsindən dərhal sonra Moskvada həyatını təhlükəyə ataraq verdiyi cəsarətli bəyanat isə xalqa ümid nuru bəxş edən, haqsızlığa qarşı ucalan bir səs oldu.

Daha sonra Naxçıvan – blokada şəraitində mübarizə qalasına çevrilən Vətən parçası. Ulu öndər orada sadəcə yaşamadı, milli dövlətçilik ruhunu diriltdi. Üçrəngli bayrağı Naxçıvanın rəsmi rəmzi kimi təsdiqlənməsi, 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi kimi tarixi addımlar – bunlar böyük bir ideoloji təməlin ilk kərpicləri idi. Xalqın tələbi ilə yaradılan Yeni Azərbaycan Partiyası isə onun siyasi təcrübəsi və xarizması ətrafında birləşən xilaskar qüvvəyə çevrildi.



1993-cü ildə ölkə vətəndaş müharibəsi astanasında, uçurumun kənarında ikən xalqın təkidli çağırışı ilə Bakıya gəlişi Milli Qurtuluşun başlanğıcı oldu. O, dağılmaq, paramparça olmaq təhlükəsi qarşısında qalan Vətəni suverenlik alovunda qaynaq edib birləşdirdi.

Hərbi uğursuzluqlar fonunda siyasi iradəsi ilə 1994-cü ildə atəşkəsə nail olması ölkənin iqtisadi inkişafı və ordu quruculuğu üçün qiymətli zaman qazandırdı. Elə həmin il imzalanan “Əsrin müqaviləsi” isə müstəqil Azərbaycanın gələcək iqtisadi qüdrətinin bünövrəsi, dünyaya açılan enerji qapısı oldu.

Ulu öndər təməli qoyulmuş bir evi təmir etmədi, o, tamamilə yeni bir dövlət inşa etdi. 1995-ci ildə yeni Konstitusiyanın qəbulu, azərbaycançılıq məfkurəsi ilə xalqı bir bayraq altında toplamaq, senzuranın ləğvi ilə azad mətbuatın təməlini qoymaq, gənclər və qadın siyasəti ilə cəmiyyətin bütün təbəqələrini prosesə cəlb etmək – bunlar hamısı dərin uzaqgörənliyin nəticəsi idi. O, gənc nəslin və qadınların potensialını dövlət quruculuğu prosesinə cəlb edərək Azərbaycanı gələcəyə proqramlaşdırdı.

Heydər Əliyev bir siyasətçi olmaqdan çox, milli liderliklə siyasi liderlik keyfiyyətlərini özündə birləşdirən nadir bir fenomen idi. Onun qətiyyəti, dərin biliyi, tükənməz enerjisi və mahir natiqlik qabiliyyəti auditoriyanı heyran edirdi. O, sadəcə dinləyicilərlə deyil, həm də tarixlə danışırdı.

Bu gün biz bilirik ki, Ulu öndərin 30 il əvvəl bünövrəsini qoyduğu dayanıqlı inkişaf müasir Azərbaycanın bugünkü və gələcək müstəqilliyinin sarsılmaz zəmanətidir. Qurucu Liderin vaxtilə böyük uzaqgörənliklə atdığı addımlar müasir Azərbaycanın əldə etdiyi bütün uğurların, o cümlədən ərazi bütövlüyümüzün bərpası kimi tarixi Zəfərin ideoloji təməli olaraq qalır.

Əbədi lider Heydər Əliyev hər zaman vurğulayırdı ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası və güclü ordunun qurulması gələcək dövlətçiliyin təminatıdır. Bu amallar yalnız bir vəsiyyət deyil, həm də xalqın yaddaşına yazılmış böyük bir hədəf idi. Bu gün cənab Prezident İlham Əliyevin simasında biz bu irsə və amallara sədaqətli, mübariz və qurucu siyasi varislik modelinin real təzahürünü görürük.

Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə təməlini qoyduğu neft strategiyası, ordu quruculuğu siyasəti və milli birlik məfkurəsi, bir zəncirin həlqələri kimi, Zəfər naminə birləşdi. Məhz bu sağlam bünövrə üzərində cənab İlham Əliyev Azərbaycanı iqtisadi cəhətdən heç kimdən asılı olmayan, güclü və müstəqil bir dövlətə çevirdi. Prezidentin "İqtisadiyyatı güclü olan dövlət hər şeyi edə bilər" tezisi Ulu öndərin əsasını qoyduğu “Əsrin müqaviləsi” strategiyasının məntiqi nəticəsi idi.

2020-ci ilin 44 günlük Vətən müharibəsi isə bu sarsılmaz iradənin və hazırlığın ən parlaq təntənəsi oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Heydər Əliyevin 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin təməlini qoyması ilə başladığı ordu quruculuğu prosesinin pik nöqtəsini nümayiş etdirdi. Bu, tanklarla yox, ağıl, strategiya və insan amili ilə qazanılan Zəfər idi.

Şuşanın azad edilməsi müjdəsini xalqa çatdıran Müzəffər Liderin “Mən bu gün Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!” – sözləri, tarixi ədalətin bərpası ilə yanaşı, siyasi varisliyə sədaqətin ən yüksək təzahürü idi. 44 günlük müharibə ilə “Qarabağ Azərbaycandır!” reallığı döyüş meydanında bərqərar edildi və 30 illik işğala son qoyuldu.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında yeni inkişaf və quruculuq mərhələsinə qədəm qoyub. Azad edilmiş ərazilərimizdə həyata keçirilən geniş miqyaslı bərpa və quruculuq işləri Heydər Əliyevin xilaskar və qurucu lider obrazının müasir dövrdəki davamlılığıdır. Ölkəmiz dinamik inkişafın ən yüksək templərini nümayiş etdirir, geosiyasi və iqtisadi müstəqilliyini daha da möhkəmləndirir.

Ulu öndər Heydər Əliyevin irsi onun siyasi məktəbinin layiqli davamçısı tərəfindən Zəfər və Quruculuq salnaməsi olaraq yaşadılmaqdadır. Onun əbədiyaşar imzası, bu gün inkişaf edən, bütövləşmiş və Qalib Azərbaycanın hər uğurunun altında var və olacaq.

Ulu öndər Heydər Əliyev fiziki olaraq aramızda olmasa da, onun adı çəkiləndə gözlərimiz önündə Azərbaycanın müstəqillik qüdrəti, xilaskar iradəsi və əbədi tərəqqi yolu canlanır. O, qurucu və xilaskar dövlət xadimi kimi, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı,***
***Qərbi Azərbaycan İcması***
***İdarə Heyətinin sədri***

# Heydər Əliyev irsi davamlı inkişaf yoluna işıq saçır

**Ulu öndər Heydər Əliyevin bütün sahələrdə, xüsusilə də dövlət idarəçiliyi kimi mürəkkəb və məsuliyyətli bir istiqamətdə nümayiş etdirdiyi fitri istedad, dərin nəzəri biliklər və zəngin praktiki bacarıqlar o qədər geniş, çoxşaxəli və sərhədsizdir ki, bu irsin öyrənilməsi yalnız keçmişin dəyərli irsi kimi deyil, həm də bu gün üçün vacib elmi istiqamət, gələcək üçün isə tükənməz innovativ inkişaf mənbəyidir. Məhz buna görə Heydər Əliyev irsi müxtəlif dövrlərdə, fərqli nəslin nümayəndələri tərəfindən araşdırılır, yeni kontekstlərdə yenidən dəyərləndirilir və hər dəfə yeni mənalar qazanır.**



Bu davamlılığın səbəbi sadə, lakin olduqca dərin məntiqə söykənir: dünya dayanmadan dəyişir, qlobal proseslər sürətlənir, bəşəriyyətin üzləşdiyi çağırışların miqyası və mahiyyəti durmadan mürəkkəbləşir. Belə bir mənzərədə tarixi təcrübənin ən qiymətli nümunəsi kimi Heydər Əliyevin yaratdığı dövlətçilik məktəbi zamanın sınağından keçmiş, universallığı ilə seçilən etibarlı yol xəritəsi rolunu oynayır.

Bu gün də müxtəlif sahələrdə — siyasətdə, iqtisadiyyatda, təhlükəsizlikdə, sosial sahədə, elmdə və təhsildə — ən optimal qərarların hazırlanmasında Heydər Əliyevin irəli sürdüyü prinsiplərə, formalaşdırdığı idarəçilik fəlsəfəsinə istinad etmək, sanki bəşəriyyətin mürəkkəb suallarına verilən peşəkar cavabların mənbəyinə yönəlmək kimidir. Onun nəzəri irsi yalnız keçmişin deyil, həm bugünün, həm də gələcəyin tələblərinə cavab verən çevik idarəçilik modelidir.

Heydər Əliyevin dövlət idarəçiliyindəki möhtəşəm uğurlarının əsasında onun strateji düşünmə qabiliyyəti, geniş dünyagörüşü, dərin elmi hazırlığı və fitri idarəçilik istedadı dayanırdı. O, mürəkkəb prosesləri yalnız izləmək deyil, onları qabaqlamaq, mümkün ssenariləri əvvəlcədən görmək və ən doğru qərarı seçmək bacarığı ilə seçilən nadir dövlət xadimlərindən idi. Bu keyfiyyətlər Heydər Əliyevi hər bir dövrdə — istər sovet sisteminin sərt inzibati çərçivəsi içində, istərsə də müstəqil Azərbaycanın ən çətin illərində — fərqləndirən əsas amillərdən biri olmuşdur.

Heydər Əliyevin fəaliyyət palitrası o qədər çoxşaxəli idi ki, onun istedadının və idarəçilik məktəbinin nümunələri həm siyasi strategiyanın qurulmasında, həm iqtisadi modelin formalaşmasında, həm təhlükəsizlik və idarəetmə sisteminin tənzimlənməsində, həm də sosial-mədəni inkişafın əsas istiqamətlərinin müəyyən edilməsində özünü açıq şəkildə göstərirdi. Hər bir qərarında dövlətçilik məntiqi, xalqı düşünmək fəlsəfəsi və gələcəyə hesablanmış planlılıq dayanırdı.

Ulu öndərin bütün fəaliyyətinin mərkəzində isə bir amal vardı: Azərbaycanı ən müasir, güclü və nüfuzlu dövlətə çevirmək, xalqın rifahını yüksəltmək, ölkənin intellektual, sosial və mədəni potensialını yeni səviyyəyə daşımaq. Onun üçün dövlət idarəçiliyi sadəcə vəzifə icrası deyildi; bu, milli inkişafın mühərrikinə çevrilən böyük bir missiya idi. Məhz Heydər Əliyevin uzaqgörənliklə cızdığı strateji xəttin nəticəsidir ki, sovet dövründə başlanan bir çox mühüm layihələr, müstəqillik bərpa olunduqdan sonra da öz aktuallığını itirmədi, əksinə, daha da dəyər qazandı və müasir Azərbaycanın inkişafında başlıca rol oynadı. Bu layihələr yalnız iqtisadi və sənaye yönümlü təşəbbüslər deyildi — ölkənin gələcəyini əvvəlcədən düşünən, sabahın çağırışlarına cavab verən tammiqyaslı strateji proqramlar idi.

Heydər Əliyevin dövlətçilik irsinin ən parlaq səhifələrindən biri onun neft siyasətidir. Bu siyasət təkcə iqtisadi layihələr toplusu deyil, strateji düşüncənin, uzaqgörənliyin və milli məsuliyyətin möhtəşəm sintezidir. Azərbaycanın inkişaf salnaməsində neft amilini sərvətə, sərvəti isə dövlətçilik dayağına çevirmək məhz Ulu öndərin adı ilə bağlıdır.

Adətən Heydər Əliyevin neft strategiyasının başlanğıcı kimi 1994-cü il – “Əsrin müqaviləsi”nin imzalandığı tarix göstərilir. Bu, əlbəttə, doğrudur. Çünki 1994-cü ildə onun dəqiq hesablanmış strateji planlaşdırması, çoxsəviyyəli diplomatiyası və siyasi qətiyyəti nəticəsində dünyanın aparıcı neft şirkətləri Azərbaycana gəldi. Neft sənayesində ixtisaslaşmış korporasiyalarla yanaşı, neft hasilatını müşayiət edən texnoloji, ekoloji və mühəndislik şirkətləri də ölkəyə daxil oldu. Bu proses, əslində, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın inkişafı üçün tamamilə yeni iqtisadi-sənaye bazasının qurulmasına start verdi.

Həmin illər Azərbaycanın ən çətin dövrü idi: siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül, sosial problemlər, institusional boşluqlar... Belə bir vaxtda xarici şirkətləri ölkəyə cəlb etmək nəinki iqtisadi addım, həm də böyük siyasi iradə və liderlik tələb edən tarixi qərar idi. Heydər Əliyevin imzası ilə reallaşan bu proses, əslində, Azərbaycanın gələcək inkişaf modelinin təməllərini müəyyənləşdirirdi. Çünki neft müqavilələri təkcə sərmayə axını deyil, eyni zamanda yeni texnologiyalar, müasir menecment, beynəlxalq əməkdaşlıq təcrübəsi və ölkənin qlobal enerji xəritəsində yenidən möhkəm mövqeyini təmin etdi.

Bu gün Azərbaycanın enerji siyasətində, iqtisadi uğurlarında və beynəlxalq nüfuzunda Heydər Əliyevin 1990-cı illərdə əsasını qoyduğu neft strategiyasının rolu həlledicidir. Neft sektoru ölkənin iqtisadiyyatını yalnız xilas etmədi, həm də onu regionun geosiyasi mərkəzinə çevirən inkişaf platformasına çevrildi. Bu strategiya nəticəsində Azərbaycan qısa zamanda postsovet məkanının böhran içində olan ölkəsindən regional enerji liderinə çevrildi — bu, sözün əsl mənasında Heydər Əliyevin — dövlətçilik dahisinin şah əsərlərindən biridir.

Lakin aparılan təhlillər və tarixi araşdırmalar göstərir ki, Heydər Əliyevin neft strategiyasının kökləri 1990-cı illərdən qat-qat əvvələ — hələ sovet dövrünə dayanır. Bu, təsadüfi deyil. Çünki Ulu öndərin dövlət idarəçiliyində mühüm qərarlar vermək bacarığı yalnız dövrün tələblərini qarşılayan addımlarla məhdudlaşmırdı; o, gələcəyin konturlarını indidən görən, bir neçə onillik sonranı planlaşdıran strateji lider idi. Bu uzaqgörənliyin ən parlaq sübutlarından biri 1978-ci ildə Bakıda Dərin Özüllər Zavodunun tikintisinə başlanmasıdır. İlk layihə üzrə bu iri sənaye kompleksi Həştərxanda inşa edilməli idi. Lakin Heydər Əliyevin qəti mövqeyi, diplomatik məharəti və milli maraqları müdafiə etməkdə göstərdiyi prinsipiallıq nəticəsində zavodun Azərbaycanda tikilməsi qərara alındı. Bu, əslində, Xəzər dənizində dərin sulu yataqlarda neft hasilatının gələcək mərhələsini təmin edən strateji addım idi.

Dərin Özüllər Zavodu kimi nəhəng bir müəssisənin layihələndirilməsi və tikintisinə başlamaq üçün isə uzunmüddətli hazırlıq tələb olunurdu. Layihələrin işlənilməsi və təsdiqi, maliyyə mənbələrinin müəyyənləşdirilməsi və ayrılması, icraçı qurumların təyin edilməsi, texniki-iqtisadi əsaslandırmaların hazırlanması — bütün bunlar, mövcud təcrübəyə görə, ən azı 3–4 il vaxt aparan proseslər idi. Bu isə o deməkdir ki, zavodun tikintisinə 1978-ci ildə start verilibsə, hazırlıq işləri artıq 1970-ci illərin əvvəllərindən başlanmışdı. Deməli, hələ o dövrdə Heydər Əliyev dənizdə neft hasilatının gələcək mərhələsi barədə düşünür, Neft Daşları epoxasının əvvəlki mərhələ olduğunu, qarşıdakı illərdə Xəzərin daha dərin sularında yerləşən yataqlara çıxışın zəruriliyini dəqiq görürdü. Bu, yalnız texniki məsələlərin deyil, həm də böyük strateji planlamanın məhsulu idi.

Ulu öndərin “Əsrin müqaviləsi”nin imzalanması mərasimində dediyi sözlər həmin uzaqgörənliyə verilən ən doğru qiymətdir: “Bu müqavilənin təməli hələ 1970-ci illərdə qoyulmuşdur. O vaxt Azərbaycanın neft sənayesini yenidən qurduq, dənizdə irimiqyaslı işlər həyata keçirdik. Əgər o dövrdə bu tədbirlər görülməsəydi, bu gün bu müqaviləni imzalamaq mümkün olmazdı”.

Bu fikirlər bir daha sübut edir ki, Azərbaycanın müstəqillik dövründə reallaşan neft strategiyasının əsası əslində 20 ildən çox əvvəl – sovet dövründə Heydər Əliyevin uzaqgörən siyasəti ilə qoyulmuşdu. Onun neft strategiyası bir günün və ya bir dövrün məhsulu deyil, uzunmüddətli düşüncənin, ardıcıl fəaliyyətin və böyük dövlətçilik vizyonunun sistemli nəticəsidir.

*Şəkil 1. Ulu öndər Heydər Əliyevin neft strategiyasını xronologiyası*




Şəkil 1-dən göründüyü kimi, ulu öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində əsrin kontraktının imzalanması zamanı, Azərbaycanda artıq Dərin Özüllər Zavodu mövcud idi və ölkə bu nəhəng layihənin həyata keçirilməsi üçün hazır idi.

Dərin Özüllər Zavodu fəaliyyətə başladıqdan illər sonra, müəssisənin 25 illiyi münasibətilə keçirilən tədbirdə Prezident İlham Əliyevin söylədiyi fikirlər bu strateji qərarın tarixi əhəmiyyətini bir daha aydın göstərirdi. Dövlət başçısı qeyd edirdi: “Əgər 25 il əvvəl bu zavod Azərbaycanda tikilməsəydi, bəlkə də bu layihələr belə uğurla həyata keçirilməzdi... Ümumi xərclər 700 milyon dollar arta bilərdi. Əlbəttə, zavodun Azərbaycanda tikilməsi məhz o vaxt Heydər Əliyevin fəaliyyəti nəticəsində olubdur. O vaxt mərkəzi hökumət bu zavodu Həştərxan şəhərində tikmək qərarına gəlmişdi. Amma Heydər Əliyevin müdaxiləsindən sonra zavod Azərbaycanda tikildi. Bu gün burada 3500 azərbaycanlı işləyir, yüksək maaş alır... Neft sektorunda əldə olunan nəticələr ancaq cənab Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əgər o, gərgin vaxtlarda təşəbbüs, qətiyyət göstərməsəydi, bu layihələr elə layihə olaraq qalacaqdı”.

Bu sözlər bir daha sübut edir ki, Heydər Əliyevin sovet dövründə gördüyü uzaqgörən işlər müstəqillik illərində Azərbaycanın iqtisadi xilasının və davamlı inkişafının əsas dayaqlarına çevrilib. Bu gün ölkənin enerji sahəsində əldə etdiyi nailiyyətlərin kökündə həmin strateji qərarlar dayanır.

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu neft strategiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə tamamilə yeni mərhələyə yüksəldi. Əgər Heydər Əliyev Azərbaycanın enerji müstəqilliyini təmin etmişdisə, İlham Əliyev enerji təhlükəsizliyinin coğrafiyasını genişləndirdi, ölkəni təkcə neft-qaz istehsalçısı deyil, həm də “yaşıl enerji” dövrünün aparıcı iştirakçısı kimi formalaşdırdı.

Prezident İlham Əliyev 2003-cü ildə xalqın etimadı ilə dövlət başçısı seçildikdən cəmi bir il sonra – 21 sentyabr 2004-cü ildə – Azərbaycanın enerji gələcəyinin istiqamətini müəyyən edən mühüm qərar qəbul etdi: ölkədə bərpaolunan enerji üzrə Milli Proqram təsdiqləndi. Bu addım, əslində, dünyanın qlobal gündəmə çevirəcəyi prosesləri çox erkən mərhələdə qabaqlamaq demək idi.

Həmin illərdə Azərbaycan ağır tarixi sınaqlarla üzüzə idi. Ölkə ərazisinin 20 faizi işğal altında, əhalinin 13 faizi qaçqın və məcburi köçkün statusunda yaşayırdı. Eyni zamanda, ölkə 2020-ci ilə — işğalın sona çatdırılması, 2023-cü ilə isə tam suverenliyin bərpa olunması kimi tarixi mərhələlərə doğru irəliləmək üçün iqtisadiyyatını gücləndirir, sosial sahəni möhkəmləndirir, modern hərbi-siyasi infrastruktur qururdu. Belə mürəkkəb geosiyasi və daxili şərtlər fonunda, “yaşıl enerji”yə keçid istiqamətində qərar qəbul edilməsi həm cəsarət, həm də strateji zəkaya söykənən liderlik nümunəsi idi.

Bu siyasətin mahiyyəti isə müasir idarəçilikdə nadir rast gəlinən bir metodologiyaya — Prezident İlham Əliyevin tətbiq etdiyi rezonans və komplementar texnologiyalar üzərində qurulub. Bu, müxtəlif sahələrin inkişafının bir-birini dəstəklədiyi, paralel və sinxron şəkildə irəlilədiyi çoxməqsədli planlaşdırma modelidir. Məhz buna görədir ki, Azərbaycan ənənəvi enerji mənbələri ilə tam təmin olunmasına və böyük neft-qaz ixracatçısı olmasına baxmayaraq, bərpaolunan enerji siyasətini enerji qıtlığı deyil, strateji modernləşmə xətti kimi seçmişdir.

2004–2023-cü illər ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə yaşıl energetikanın inkişafını hədəfləyən 14 fərman və sərəncam qəbul olundu. Bu qərarlar Azərbaycanın enerji sektorunun strukturunu dəyişdirdi, ölkənin XXI əsrin qlobal enerji transformasiyasının aparıcı oyunçularından birinə çevrilməsinin əsası qoyuldu.

Beynəlxalq təşkilatların hesabatları da bu uğurun təsdiqidir. Azərbaycanın bərpaolunan enerjiyə keçid göstəricilərinə görə dünya ölkələri arasında 32-ci yerdə qərarlaşması, büdcə və əhalisi on dəfələrlə böyük olan inkişaf etmiş bir sıra Avropa və G7 ölkələrini belə qabaqlaması, həyata keçirilən siyasətin nə qədər sistemli və uzaqgörən olduğunu nümayiş etdirir.

Bu nəticələr həm Heydər Əliyevin yaratdığı möhkəm təməl, həm də İlham Əliyevin onu müasir dünyanın yeni çağırışlarına uyğun olaraq inkişaf etdirməsi sayəsində mümkün olmuşdur. Azərbaycanın enerji strategiyası artıq yalnız bir ölkənin inkişaf proqramı deyil — regional və qlobal miqyaslı bir model kimi qəbul edilir.

*Şəkil 2. Enerji Keçidi İndeksi (EKİ): Azərbaycan və bəzi “böyük yeddilik” G7 və Avropa Birliyi ölkələri (Mənbə: Dünya İqtisadi Forum, 2023)*




Şəkil 2.-də təqdim olunmuş məlumatlar Dünya İqtisadi Forumu (Cenevrə) tərəfindən 2023-cü ilin sonunda, Bakıda keçirilən BMT-nin iqlim konfransı – COP29 ərəfəsində hazırlanmış xüsusi hesabatda öz əksini tapmışdı. Bu hesabat əslində Azərbaycanın enerji siyasətinin son 20 ildə keçdiyi inkişaf yolunun beynəlxalq miqyasda rəsmi qiymətləndirilməsi idi. Sənəd göstərirdi ki, ölkəmizdə neft strategiyasının müasir mərhələdə genişləndirilməsi və paralel olaraq bərpaolunan enerji mənbələrinin strateji şəkildə cəlb edilməsi nəticəsində tamamilə yeni bir inkişaf modeli formalaşmışdır. Bu model həm qlobal çağırışların tələblərinə, həm də milli prioritetlərə — davamlı iqtisadi artıma, ekoloji təhlükəsizliyə və inklüziv cəmiyyətin qurulmasına yüksək səviyyədə uyğunluq nümayiş etdirir.

Hesabat bir daha sübut edirdi ki, Azərbaycan enerji sahəsində yalnız resurs ixrac edən ölkə deyil, eyni zamanda, enerji transformasiyasını idarə edən qabaqcıl dövlətlərdən biridir. Bu dəyərləndirmə təkcə Dünya İqtisadi Forumunun mövqeyi ilə məhdudlaşmırdı. Dünya Bankının 2025-ci ildə dərc etdiyi analitik məlumatlarda da Azərbaycanın enerji keçidi üzrə əldə etdiyi nəticələr xüsusi vurğulanırdı. Həmin qiymətləndirməyə əsasən, ölkəmiz ümumdaxili məhsulun (ÜDM) hər vahidinə — alıcılıq qabiliyyəti pariteti ilə hesablanmış 1000 ABŞ dollarına — 2,62 enerji keçidi əmsalı formalaşdırır ki, bu da enerji transformasiyasının effektivliyinə görə dünya ölkələri üçün nümunəvi göstərici hesab olunur.

Bu nəticələr təsadüfi deyil. Onların əsasında ulu öndər Heydər Əliyevin qoyduğu strateji təməllər, onun neft siyasətinin yaratdığı güclü iqtisadi baza və ən əsası, bu bazanın XXI əsrin tələblərinə uyğun şəkildə çevrilməsini təmin edən Prezident İlham Əliyevin modern idarəçilik yanaşması dayanır. Prezident İlham Əliyev ölkənin enerji siyasətini yalnız iqtisadi sahə kimi deyil, həm də elm, təhsil, texnologiya və innovasiyaya əsaslanan kompleks dövlət idarəçiliyi modeli kimi inkişaf etdirir. Məsələnin məhz bu yanaşma ilə həll edilməsi Azərbaycanı enerji transformasiyasını optimal şəkildə idarə edən ölkələrdən birinə çevirib.

Bu gün Azərbaycanın enerji strategiyası həm milli maraqların təminatçısıdır, həm də qlobal səviyyədə davamlı inkişaf və yaşıl iqtisadiyyat üzrə aparıcı tendensiyalara cavab verən nümunəvi model kimi qəbul olunur. Bu model Heydər Əliyevin müəyyən etdiyi ideya-siyasi xəttin Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə yeni keyfiyyət mərhələsinə yüksəldilməsinin real nəticəsidir.

Ulu öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin ən mühüm istiqamətlərindən biri elm və təhsilin inkişafı idi. O, istər sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə, istərsə də müstəqil dövlətimizin rəhbəri olduğu mərhələdə elm-təhsil sahəsini xüsusi həssaslıqla diqqətdə saxlayırdı. Heydər Əliyev yaxşı anlayırdı ki, xalqın intellektual potensialı olmadan nə iqtisadi tərəqqi mümkündür, nə də milli dövlətçilik ideyasının davamlılığı təmin edilə bilər. Buna görə də onun təhsillə bağlı fəaliyyəti təkcə idarəetmə qərarlarının məcmusu deyil, Azərbaycanın gələcək inkişaf xəritəsini müəyyən edən strateji düşüncənin ifadəsi idi.

Bu sahədə Heydər Əliyevin gördüyü işlər uzun illərdir araşdırmaların, elmi əsərlərin mövzusuna çevrilib və hələ də müxtəlif aspektlər üzrə tədqiq edilir. Lakin onun təhsil sahəsində həyata keçirdiyi bir təşəbbüs var ki, bu təşəbbüs təkcə ölkə miqyasında deyil, qlobal səviyyədə yenilik hesab olunur. Söhbət davamlı insan inkişafı fenomeni — o dövrdə dünya üçün tamamilə yeni olan bu konsepsiyanın — Azərbaycan təhsil sisteminə gətirilməsi və ümumtəhsil məktəblərinin proqramlarına daxil edilməsindən gedir.

Bəlli olduğu kimi, davamlı inkişaf anlayışı müasir dünyanın aparıcı prioritetidir. Bu termin son illərdə ölkəmizdə “dayanıqlı inkişaf” kimi də işlədilir. Dünyada iqtisadi, sosial və ekoloji çağırışların mürəkkəbləşməsi BMT-ni 2015-ci ilin sentyabrında — Nyu-Yorkda keçirilən Baş Assambleya sessiyasının və Dünya Sammitinin qərarı ilə — inkişafın yeni modelini müəyyənləşdirməyə vadar etdi. Həmin qərara əsasən, davamlı inkişaf bəşəriyyət üçün birinci dərəcəli problem kimi qəbul edildi və 2015–2030-cu illər üçün Davamlı İnkişaf Məqsədləri irəli sürüldü. Bu məqsədlər dünya dövlətlərinin iqtisadi siyasətində, sosial proqramlarında və ekoloji strategiyalarında aparıcı rol almağa başladı.

Hazırda davamlı inkişaf istiqamətində dünyanın bütün regionlarında genişmiqyaslı fəaliyyət həyata keçirilir. Azərbaycan da bu proseslərdə fəal iştirak edən ölkələrdən biridir. Lakin çox az ölkə var ki, davamlı insan inkişafı sahəsində təməl biliklərini ümummilli təhsilə BMT-dən illər əvvəl gətirib. Məhz bu səbəbdən Heydər Əliyevin həmin dövrdə atdığı addım unikal idi və Azərbaycanın qlobal miqyasda öndəgedən ölkələrdən biri olmasına yol açdı.

Qlobal miqyasda davamlı inkişaf məqsədlərinə nail olmaq üçün təkcə dövlətlərin iqtisadi, sosial və ekoloji siyasətini dəyişməsi kifayət etmirdi. Bu prosesin uğurla həyata keçirilməsi üçün dünya əhalisinin müasir inkişaf modelinin mahiyyəti barədə biliklərə malik olması, yeni davranış qaydalarını və idarəetmə bacarıqlarını mənimsəməsi tələb olunurdu. Başqa sözlə, davamlı inkişaf ideyasını yalnız siyasətçilər və mütəxəssislər deyil, bütün cəmiyyət anlamalı idi. Bu isə təhsilin üzərinə misilsiz bir vəzifə qoyurdu – yeni dövrün fəlsəfəsini, resurslarla davranış mədəniyyətini, ekoloji məsuliyyəti və sosial inklüzivlik kimi anlayışları dünyanın hər bir sakininə çatdırmaq.

Məhz buna görə BMT və UNESCO davamlı inkişafın bu genişmiqyaslı məqsədlərinə nail olmaq üçün təhsil sisteminin qlobal səviyyədə yenilənməsi təşəbbüsü ilə çıxış etdilər. Bu təşəbbüsün nəticəsi olaraq 2005–2014-cü illər dünyada Davamlı İnkişaf üzrə Tədris Onilliyi elan edildi. Məntiq olduqca sadə, lakin strateji baxımdan son dərəcə zəruri idi: on il ərzində (2005–2014) dünya əhalisi davamlı inkişafla bağlı əsas biliklərlə təmin olunacaq, bu sahədə çalışacaq mütəxəssislər hazırlanacaq, tədris proqramları yenilənəcək və cəmiyyət yeni düşüncə tərzi formalaşdıracaqdı.

Daha sonra növbəti illərdə (2015–2030) isə artıq bu biliklərə arxalanaraq Davamlı İnkişaf Məqsədlərinin real şəkildə icrası həyata keçiriləcəkdi.

Bu təşəbbüsün rəsmi əsasını qoyan sənəd 2005-ci ildə o dövrün BMT Baş katibi Kofi Annan və UNESCO-nun Baş direktoru Koişiro Matsuura tərəfindən imzalanmışdı (İNİS/İNF/63, 28 fevral 2005).

*(ardı 13-cü səhifədə)*



# Ulu öndərin zəfərlər salnaməsi

**1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan çıxılmaz vəziyyətlə üzləşmişdi. Torpaqların bir hissəsi işğal olunmuş, ölkədaxili siyasi vəziyyətə dağıdıcı xarici təsirlər heç vaxt görünməmiş dərəcədə yüksək həddə çatmışdı və ölkədə dezinteqrasiya prosesləri günbəgün güclənirdi. Ölkə vətəndaş müharibəsi ərəfəsində idi və dövlətin mövcudluğu özü böyük sual altında idi.**

Belə bir çətin dönəmdə xalqın tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev həlli mümkün görünməyən çox çətin problemlərin öhdəsindən gəlməli idi. Müharibəni dayandırmaq, ölkəni parçalanmaya aparan separatizmi cilovlamaq, ayrı-ayrı dəstələr şəklində özbaşına, vahid komandanlıq və döyüş üçün ən zəruri silah-sursatı olmayan ordu hissələrində nizam-intizam yaratmaq və eyni zamanda, gündən-günə genişlənən işğalın qarşısını almaq lazım idi. Döyüş meydanında ölkənin müdafiəsini təşkil etməklə yanaşı, həm də nizami ordu və yeni zəruri dövlət idarəçilik institutları yaradılmalı idi. Bir sözlə, ölkə uzun müddət davam edən uğursuzluqlar labirintindən çıxarılmalı idi. Məhz o zamanlarda ilk baxışdan həlli olmayan problemlərə Heydər Əliyev yanaşmasının orijinallığı və unikallığı özünü bütün qüdrəti ilə göstərdi.

Heydər Əliyev, ilk növbədə, müharibəni dayandırmağa müvəffəq oldu. Qısa bir müddətdə hərbi, siyasi və iqtisadi layihələrlə yanaşı, özünün yeni neft strategiyasını hazırladı. Çoxlarının təəccübünə səbəb olsa da, yeni neft strategiyası ozamankı hərbi-siyasi və iqtisadi-sosial böhran vəziyyətində Heydər Əliyev siyasətinin prioritet məsələsi kimi təqdim olunurdu. Çünki Heydər Əliyev ölkə üçün ən təcili və zəruri iqtisadi-sosial problemlərin, habelə ölkənin ərazi bütövlüyünün təmin olunması kimi taleyüklü hərbi-siyasi problemin həllini məhz özünün hazırladığı yeni neft strategiyasında birləşdirmişdi.

Azərbaycan neft sənayesinin gücü və əhəmiyyəti Heydər Əliyevə hələ 1970-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdən yaxşı bəlli idi. Hələ o zaman onun rəhbərliyi ilə Xəzər dənizinin Azərbaycan sektorunda yeni neft yataqlarının kəşfiyyatı və istismarı istiqamətində böyük işlər görülmüşdü. Yeni neft-qaz yataqları aşkar edilmiş və istismara verilmişdi. Neft və qaz ehtiyatlarının həcmi bir neçə dəfə artırılmış, ölkədə çoxsaylı neft sənayesi müəssisələri yaradılmışdı.

Müharibənin dayandırılması, eyni zamanda, dünyamiqyaslı neft şirkətləri ilə Azəri, Çıraq və Günəşli yataqlarının birgə işlənməsi haqqında danışıqlara başlanıldı. Heydər Əliyev qısa bir müddətdə aparıcı beynəlxalq şirkətləri Azərbaycan tərəfindən təklif olunan layihələrə sərmayə yatırmağa razı sala bildi. 1994-cü il sentyabrın 20-də dünyanın 7 ölkəsindən olan 11 şirkətin iştirakı ilə Azərbaycanın tarixində ən böyük neft müqaviləsi imzalandı. Bu müqavilə tarixə "Əsrin müqaviləsi" adı ilə daxil oldu. "Əsrin müqaviləsi" təkcə Azərbaycan neftinin gələcəyini müəyyən etmədi, həm də milli müstəqilliklə bağlı Azərbaycan xalqının taleyini həll etdi. Məhz Heydər Əliyevin neft strategiyası həmin dövrdə ölkəni bürümüş dərin iqtisadi-sosial və ictimai-siyasi böhranın qarşısını aldı. Siyasi, iqtisadi və sosial həyatda tənəzzülə son qoyuldu və kövrək inkişaf meyilləri özünü göstərməyə başladı. Daha sonrakı dövrdə neft müqavilələrinin işləməsi və ilbəil hasilatın artırılması tədricən ölkəni böhrandan çıxardı. Neft strategiyasının uğuru dünyanın aparıcı ölkələrinin Azərbaycana marağını təmin etdi.

Az sonra yeni əsaslar üzərində bazar iqtisadiyyatının qurulması və maliyyə sabitliyinin yaradılması təmin olundu. Davamlı olaraq aparılan uğurlu sosial siyasət qaçqın və məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmağa, xalqın rifah halını yüksəltməyə imkan yaratdı. Daha sonrakı illərdə Heydər Əliyevin neft strategiyası Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və nəhayət, Cənub Qaz Dəhlizi kimi qlobal layihələrin uğurla həyata keçirilməsində öz əksini tapdı. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının kəsişmə məntəqəsinə çevrildi. Son iki onillikdə ölkədə həyata keçirilmiş ardıcıl islahatlar Azərbaycanın davamlı inkişaf edən müasir və demokratik ölkəyə çevrilməsinə və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınmasına gətirib çıxardı.

Dövlət idarəçiliyinin təkmilləşdirilməsi, ictimai-siyasi və mədəni-sosial həyatın demokratikləşdirilməsi istiqamətində aparılan islahatlar Azərbaycanı ən islahatçı ölkə kimi tanıtdırdı. Dünyanın bir çox ölkələri ilə sıx əməkdaşlıq münasibətləri quruldu. O cümlədən Avropa İttifaqının üzvü olan 9 ölkə ilə Strateji Tərəfdaşlıq haqqında müqavilələr imzalandı. Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyasını Prezident İlham Əliyevin uğurla həyata keçirməsi sayəsində Azərbaycan Qafqaz geosiyasətində aparıcı rola yiyələndi.

Lakin bütün bunlar torpaqlarımızın 20 faizinin işğal olunduğu və ölkəmizə qarşı hərbi-siyasi təzyiqlərin davam etdiyi bir dövrdə baş verirdi. Bu müddət ərzində Azərbaycan güclü müasir ordu yaratmağa və onu ən qabaqcıl texnika və silahlarla təmin etməyə nail oldu. Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu arasında yer aldı. Bütün bu nailiyyətlər işğal altında qalmış torpaqlarımızın azad edilməsi üçün güclü zəmin və sarsılmaz inam yaradırdı. Nəhayət, 2020-ci il sentyabrın 27-də çoxdan gözlənilən həqiqət anı gəldi. Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycan Ordusu 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımızı cəmi 44 gün ərzində düşməndən azad etdi. Bu, Azərbaycan xalqının tarixində ən böyük Qələbə idi. Bu, xalqla ordu birliyinin Qələbəsi, cəmiyyətdə ictimai konsensusun və Prezident İlham Əliyevin yüksək sərkərdəlik məharətinin parlaq nümayişi idi.

Bu gün Azərbaycan dünya miqyasında rəğbət olunan, geosiyasi məsələlərlə bağlı mövqeyi böyük güc mərkəzləri tərəfindən nəzərə alınan müstəqil və güclü bir dövlətdir. Azərbaycan hazırda Avropanın enerji resursları ilə təminatında yeganə alternativ mənbə kimi dünya ölkələri üçün çox vacib bir tərəfdaşdır, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu daha da güclənməkdədir. Azərbaycan bütün istiqamətlərdə qaliblər sırasındadır. Bu qələbələrin əsası isə hələ keçən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.

Ulu öndər özünün dediyi kimi, "...həyatının qalan hissəsini də xalqına xidmətə həsr etdi". Ahıl yaşlarına baxmayaraq, əvvəlki illərdən daha böyük əzmlə çalışan Heydər Əliyev Azərbaycanın müstəqillik illərində ölkənin ən böyük uğurlarına imza atmağı bacardı. Böyük məharətlə ölkəsini vətəndaş müharibəsindən xilas edən lider Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz etdi. Qarabağı işğaldan azad etməyə ömür vəfa etməsə də, o böyük inamla bu azadlığa aparan yolun əsasını qoydu. Qarabağın azadlığına aparan "yol xəritəsi"ni etibarlı əllərə həvalə etdi. Həyatla vidalaşarkən son andı, son arzusu və yeganə vəsiyyəti Qarabağın azad olunması oldu. Heydər Əliyevin sonuncu möhtəşəm Qələbəsi İlham Əliyev tərəfindən Qarabağın azad olunması ilə təmin edildi. Tarix göstərdi ki, Heydər Əliyev aramızda olmasa da, onun siyasəti xalqımıza qələbələr qazandırmaqda davam edir.

Həyatı qələbələr salnaməsini xatırladan bu böyük insanın bioqrafiyasına baxanda öz həyatını heç zaman, heç bir şəraitdə özü üçün yaşamadığını görmək olur. Buna baxmayaraq, onu tariximizin ən xoşbəxt adamlarından biri hesab etmək olar. Çünki o öz xoşbəxtliyini dövlətinin azadlığında və müstəqilliyində, öz xalqının xoşbəxtliyində görürdü. Bu gün xalqımız dünyanın ən xoşbəxt xalqlarından biridir. Çünki Qarabağ azad olunub. Çünki Azərbaycan onun dediyi kimi, "bir günəş kimi dünyaya doğmaqdadır". Azərbaycanın müstəqilliyi isə Heydər Əliyevin dediyi kimi, "əbədidir, dönməzdir və sarsılmazdır."

12 dekabr Ulu öndərin anım günüdür. Adı memarı olduğu müstəqil Azərbaycanın tarixində, işıqlı xatirəsi isə daim xalqının qəlbində yaşayacaqdır!

*Cavanşir FEYZİYEV,*
*Milli Məclisin deputatı,*
*fəlsəfə doktoru*

# Ümummilli liderin dövlətçilik irsi tükənməz mənəvi sərvətdir



**Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf strategiyasının nəticəsidir ki, ölkəmizdə tarixən qısa müddətdə müasir dövlətçiliyin mükəmməl siyasi-ideoloji, iqtisadi-sosial və mənəvi dayaqlar sistemini yaradılıb. Düzgün qurulmuş xarici siyasət isə milli dövlətimizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasını təmin edib.**

Xalqının azadlığı, ölkəsinin müstəqilliyi, dövlətinin tərəqqisi naminə misilsiz xidmətləri olan Ulu öndər bu tarixi missiyasını dahiyanəliklə gerçəkləşdirdiyinə görə milli yaddaşda əbədiyaşarlıq qazanıb. Elə buna görə də xalqımız hər il öz Ümummilli liderinin əbədiyyətə qovuşduğu gündə onun xatirəsini ümummilli səviyyədə sonsuz ehtiram və qədirbilənlik duyğuları ilə yad edir. Ötən əsrin 90-cı illərində ictimai-siyasi gərginliyin, böhranın hökm sürdüyü bir zamanda öz nicatını məhz Heydər Əliyevdə tapdığına görə, Azərbaycan xalqı Heydər Əliyevə özünü borclu sayır.

Hər il dekabrın 12-də Fəxri xiyabanda yaşanan böyük izdiham Ona olan minnətdarlığın, ehtiramın təcəssümüdür. Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüş Heydər Əliyev tarixi yazan və yaradan nadir şəxsiyyət kimi tarixdə iz saldı. XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunduğu zamanda baş verən hadisələr Ulu öndərin hakimiyyətə qayıdışını şərtləndirmiş oldu. 1993-cü ildə ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlişi ilə dövlətçiliyimizi yox olmaq təhlükəsindən xilas etdi.

Həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan dahi lider Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradaraq, xidmətləri ilə əbədilik qazandı. Ötən illərə diqqətlə nəzər salsaq, görərik ki, müdrik siyasətçinin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlər məhz Heydər Əliyev siyasətinin məntiqi nəticəsidir.

Heydər Əliyev 1990-cı ildə törədilmiş 20 Yanvar faciəsi zamanı Azərbaycan xalqına qarşı həyata keçirilən siyasətə etirazını bildirdi və ona qarşı siyasi təqiblər daha da artmağa başladı. Çətin və mürəkkəb dövrdə Azərbaycana qayıdıb xalqı ilə birlikdə olmaq istəyən Heydər Əliyev siyasi iradəsini ortaya qoydu və vətənə döndü.

1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşdü. Tarixin silinməz zamanına nəzər salsaq, görərik ki, ulu öndər Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələnin qaldırılması haqqında tarixi qərarlar qəbul edildi.

Naxçıvanda qısa bir zamanda demokratik tədbirlər həyata keçirildi. Azərbaycanın gələcək işıqlı yollarına doğru addımlar atılırdı. Çox da uzaq olmayan tariximizin salnaməsinə silinməz izlər salındı. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Tariximizə həkk olunduğu kimi, 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi. Xronoloji ardıcıllığa nəzər salsaq, görərik ki, 1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini oldu.

Muxtar respublikanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Ümummilli liderimiz Heydər Əliyevin Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında birləşməyə də müvəffəq oldu. 1991-ci il dekabrın 16-da Ali Məclisin "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul etməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir.

Bütün bu nailiyyətlər Heydər Əliyev siyasətinin təntənəsi idi. Azərbaycanın ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə isə 1992-ci il noyabrın 21-də Naxçıvanda baş verən müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılması oldu. Həmin vaxtlar YAP-ın yaranması tarixi zərurət idi. Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib-hazırlamaq və onu reallaşdırmaq həmin dövr üçün güclü siyasi iradə və bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs yalnız ulu öndər Heydər Əliyev ola bilərdi.

1992-ci il noyabrın 21-də YAP-ın təsis konfransı keçirildi və qısa zaman kəsiyində, YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirdi. YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantına çevrildi. Azərbaycanın gələcəyinin təhlükə qarşısında qaldığı, dövlətimizin taleyinin həll olunduğu bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoymuş oldu.

Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan, Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi dahi şəxsiyyət dayanırdı. 1993-cü ildə ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlişi ilə tariximizin yeni dövrü başladı. Doğma xalqı üçün taleyüklü məqamda hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardı.

Dünya şöhrətli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi həyatında yeni mərhələ başladı. Müstəqil dövlət quruculuğu prosesi başlandı. Milli Ordu formalaşdı, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı və bunun nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu. Ölkəmiz parçalanmaq təhlükəsindən xilas edildi, müstəqilliyinin sütunları möhkəmləndi.

Ümummilli liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı ilə Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsindən qurtuldu. 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirməyə başladı. Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadəsinə imkanlar açmış oldu. "Əsrin müqaviləsi"nin tərəfdaşı olan ölkələrin hər biri dünyada böyük nüfuza və gücə malik idilər. Bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilmələri təhlükəsizliyimizin təminatında öz sözünü deyə bilən amillər sırasındadır.

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı.

Bu gün ölkəmizdə Ümummilli liderin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan uğurla inkişaf edir. Prezident İlham Əliyevin milli maraqlara söykənən məqsədyönlü siyasəti Azərbaycan xalqı tərəfindən birmənalı şəkildə dəstəklənir. 2003-cü ildən sonrakı dövrdə keçirilmiş bütün seçkilərin nəticələri bu dəstəyin bariz nümunəsidir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər ulu öndər Heydər Əliyev ideyalarının bəhrəsidir.

Ümummilli lider Heydər Əliyevin vəfatından ötən 22 ildə Azərbaycan tanınmaz dərəcədə dəyişərək dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. Otuz il işğal altında qalan torpaqlarımız siyasi-hərbi yolla azad olunub, ərazi bütövlüyümüz bərpa edilib.

Dahi siyasətçi və qüdrətli lider Heydər Əliyevin formalaşdırdığı böyük siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan sürətlə inkişaf edir, dünyada nüfuzlu müstəqil dövlət və etibarlı tərəfdaş kimi tanınır.

*Azər SÜLEYMANOV,*
*Yeni Azərbaycan Partiyası*
*Nəsimi rayon təşkilatının sədri,*
*tarix üzrə fəlsəfə doktoru*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026─2030-cu illər üçün Konsepsiya

## 1. Qısa xülasə

Məhkəmə ekspertizası fəaliyyəti ədalət mühakiməsinin mühüm elementlərindən biri olmaqla, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatında, qanuni və əsaslı qərarların qəbul olunmasında mühüm rola malikdir.

Azərbaycanda məhkəmə ekspertizası fəaliyyətinin təşəkkülü ötən əsrin 20-ci illərinə təsadüf etmiş, inkişafı mərhələli şəkildə davam etmişdir. Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra məhkəmə ekspertizası fəaliyyəti daha da təkmilləşdirilmiş, 1999-cu ildə "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu ilə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Məhkəmə-hüquq sisteminin davamlı inkişafı məhkəmə ekspertizası sahəsinin müasir dövrün tələblərinə uyğun qurulmasını və bunun üçün qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsini, bu sahədə rəqəmsal texnologiyaların tətbiqini və infrastrukturun daim yenilənməsini zəruri edir.

Bu məqsədlə hazırlanmış "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026–2030-cu illər üçün Konsepsiya" (bundan sonra – Konsepsiya) məhkəmə ekspertizası sahəsində dövlət tənzimləməsinin səmərəliliyinin artırılmasını, yəni normativ hüquqi bazanın təkmilləşdirilməsini, bu sahədə fəaliyyətin rəqəmsallaşdırılmasını, keyfiyyət təminatı sisteminin yaradılmasını və vahid standartların hazırlanmasını, özəl məhkəmə ekspertlərinin səmərəli fəaliyyətinin təmin edilməsini, məhkəmə ekspertizası idarələrinin kadr potensialının və məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsini, məhkəmə ekspertizası idarələrinin infrastrukturunun, maddi-texniki təminatının yaxşılaşdırılmasını, maliyyə dayanıqlılığının təmin edilməsini ehtiva edir.

## 2. Qlobal trendlər

Müasir dövrdə bütün əlaqəli sahələrin modernləşdirilməsi, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların sosial-iqtisadi həyata uğurla tətbiqi məhkəmə ekspertizası qarşısında yeni trendlər müəyyən edir.

Transmilli mütəşəkkil cinayətkarlığın, o cümlədən kibercinayətkarlığın müxtəlif növlərinin meydana gəlməsi, virtual platformaların və süni intellektin formalaşdırdığı mürəkkəb ictimai münasibətlər yeni reallıq və çağırışlar yaradır. Bu da bütün sferalarda, həmçinin məhkəmə ekspertizası sahəsində də fəaliyyətin ən yüksək tələblər səviyyəsində qurulmasını şərtləndirir.

Beynəlxalq əməkdaşlığın və məhkəmə ekspertizası sahəsinin davamlı inkişafının təmin edilməsi üçün aşağıdakı qlobal trendlər mövcuddur:

**Məhkəmə ekspertizası fəaliyyətinin rəqəmsal transformasiyası** – məhkəmə ekspertizasını təyin (sifariş) edən orqanların (qurumların) və ya şəxslərin, habelə ekspertiza aparan subyektlərin fəaliyyətinin rəqəmsallaşdırılması effektiv və sürətli fəaliyyətin, o cümlədən şəffaflığın və hesabatlılığın, vətəndaş məmnunluğunun təmin edilməsinə, resursların optimallaşdırılmasına və bununla da ədalət mühakiməsinin həyata keçirilməsində səmərəliliyin artırılmasına xidmət edir.

Müasir rəqəmsal texnologiyalar vasitəsilə məhkəmə ekspertizası fəaliyyətinin ümumi informasiya bazasının yaradılması, rəqəmsal platformalar üzərindən ekspertiza təyin (sifariş) edən orqana (quruma) və ya şəxslərə sürətli və keyfiyyətli xidmətin göstərilməsi, hədəfli məlumatlandırmanı təmin edən rəqəmsal infrastrukturun yaradılması hazırkı fəaliyyətin əsas meyarlarından birinə çevrilmişdir.

Məhkəmə ekspertizası infrastrukturunun ən qabaqcıl rəqəmsal texnologiyalar əsasında qurulması və ekspertiza sahəsində süni intellektin tətbiqi bu sahədə davamlı inkişafa təkan verir.

**Qloballaşma, standartlaşdırma və unifikasiya** – bu trendlər qlobal iqtisadi və texnoloji inkişafın nəticəsi olaraq laboratoriya nəticələrinin etibarlılığını və xidmətlərin keyfiyyətini artırır, eləcə də beynəlxalq əməkdaşlığın dərinləşməsini təmin edir. Ölkələrin milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair həyata keçirdikləri tədbirlər, o cümlədən Beynəlxalq Standartlaşdırma Təşkilatının bu sahədəki əlaqələndirici fəaliyyəti bu istiqamətləri qlobal trendə çevirir.

Müasir qloballaşma şəraitində ekspertiza tədqiqatının mövcud metodlarının beynəlxalq təcrübəyə inteqrasiyası, standartlara, norma və qaydalara uyğunlaşdırılması sözügedən trendlərin tətbiqini zəruri edir.

**Xüsusi təlimlər və davamlı peşəkar inkişaf** – texnologiyaların sürətli inkişafı və yeni nəsil kriminalistik avadanlığın istehsalı, ekspertlərin beynəlxalq standartlara uyğun biliklərə və sertifikatlara sahib olması, insan kapitalına yönəlmiş strategiyalar və ömür boyu öyrənmə konsepsiyası mütəxəssislərin bilik və bacarıqlarının yenilənməsini tələb edir. Ekspertlərin xüsusi təlim və davamlı peşəkar inkişafı həm fərdi, həm də təşkilati səviyyədə müasir dünyada vacib tələblərdən biri kimi qlobal trend hesab olunur.

Məhkəmə ekspertizası sahəsində insan resurslarının davamlı inkişafı, bu sahədə xüsusi təlim proqramlarının hazırlanması peşəkar kadr korpusunun formalaşdırılmasına xidmət edir.

**İctimai etimad, şəffaflıq və hesabatlılıq** – qabaqcıl beynəlxalq təcrübədə şəffaflıq və hesabatlılıq qlobal təşəbbüslər kimi qeyd edilmiş, sosial media platformalarının dövlət idarələrinin fəaliyyətini izləmək, korrupsiya və sui-istifadə hallarının qarşısını almaq imkanları qlobal trend kimi müəyyən edilmişdir.

Məhkəmə ekspertizası fəaliyyəti üzrə hesabatlılıq və şəffaflıq mühitinin yaxşılaşdırılması vətəndaşların ekspertiza xidmətinə əlçatanlığını, habelə bu sahəyə ictimai etimadın gücləndirilməsini təmin edir.

## 3. Mövcud vəziyyətin təhlili

Azərbaycan Respublikasında məhkəmə ekspertizasının əsas təməl prinsiplərinin müəyyən edilməsi istiqamətində görülən işlər Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında aparılmış, hüquqi dövlət quruculuğunun normativ hüquqi bazasının formalaşdırılması ilə bağlı təxirəsalınmaz addımlar atılmış, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsi və cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynayan ekspertizanın hüquqi və təşkilati əsaslarını müəyyən edən qanun qəbul olunmaqla, ölkəmizdə ekspertiza fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Sonrakı mərhələlərdə bu sahədə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində ekspertiza fəaliyyəti müasirləşdirilmiş, məhkəmə ekspertizası idarələrinin maddi-texniki təminatı və institusional imkanları gücləndirilmiş, habelə özəl ekspertiza institutunun formalaşması üçün hüquqi əsaslar yaradılmışdır.

Bununla yanaşı, "Məhkəmə Ekspertizası Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 avqust tarixli 243 nömrəli Sərəncamı ilə məhkəmə ekspertizası sahəsində dövlət idarəetməsinin və tənzimləməsinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, habelə bu sahədə vahid standartların hazırlanması və onların tətbiqinin təşviqi, kadr potensialının gücləndirilməsi məqsədilə məşvərətçi əsaslarla fəaliyyət göstərən Məhkəmə Ekspertizası Şurası (bundan sonra – Şura) yaradılmış və bu sahə ilə bağlı inkişaf konsepsiyasının hazırlanması tapşırığı verilmişdir. Bundan irəli gələrək, mövcud vəziyyət təhlil edilmiş və məhkəmə ekspertizası sahəsinin inkişafı üçün əsas istiqamətlər müəyyən edilmişdir.

Hazırda ölkəmizdə qeyri-tibb məhkəmə ekspertizası sahəsində əsas fəaliyyət Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən, məhkəmə-tibb ekspertizası sahəsində isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir. Bundan başqa, hərbi qulluqçulara və hərbi məhkəmələrin (hərbi prokurorluqların) səlahiyyətlərinə aid edilmiş cinayət işləri və inzibati xətalar haqqında işlər üzrə hərbi qulluqçu olmayan şəxslərə münasibətdə məhkəmə-tibb ekspertizası, həmçinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, ilkin və əlavə məhkəmə-daktiloskopik, məhkəmə tibbi-genetik, məhkəmə partlayış-texniki və məhkəmə-ballistik ekspertizaları isə, həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir *(cədvəl 1).*

*Cədvəl 1*

| Sıra №-si | Məhkəmə ekspertizası idarələri | Ekspertiza növlərinin sayı | 2024-cü ildə daxil olan işlər | |
|---|---|---|---|---|
| | | | *rəqəmlə* | *faizlə* |
| 1. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" publik hüquqi şəxs (MTEPAB) | 8 | 76.168 | 51 |
| 2. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi" publik hüquqi şəxs (MPEM) | 2 | 5.142 | 3,5 |
| 3. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi (MEM) | 20 | 42.552 | 28,5 |
| 4. | Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Məhkəmə Tibbi─Ekspertiza və Patoloji Anatomiya Mərkəzi (MTEPAM) | 5 | 23.649 | 15,8 |
| 5. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kriminalistik Tədqiqatlar İdarəsi (KTİ) | 4 | 1.850 | 1,2 |
| **CƏMİ** | | 39 | 149.361 | 100 |

2024-cü ildə ölkənin məhkəmə ekspertizası idarələrində 149.000-dən artıq qərar və qərardad icra edilmişdir.

Ötən dövr ərzində məhkəmə ekspertizası sahəsində beynəlxalq əməkdaşlıq genişləndirilmiş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi 2011-ci ildə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kriminalistik Tədqiqatlar İdarəsi isə 2024-cü ildə Avropa Məhkəmə Ekspertizası İnstitutları Birliyinə (ENFSI) üzv olmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində aparılan 16 tədqiqat metodu ISO/IEC 17025 standartının tələblərinə uyğun olaraq Türk Akkreditasiya Qurumu (TÜRKAK) tərəfindən akkreditə edilmişdir.

Beynəlxalq əməkdaşlıq çərçivəsində qeyri-tibb məhkəmə ekspertizaları sahəsində Gürcüstan, Ukrayna, Qırğızıstan, Qazaxıstan, Özbəkistan və Belarus Ədliyyə nazirlikləri, həmçinin Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında sazişlər bağlanılmış, məhkəmə-tibb ekspertizası sahəsində Türkiyə Respublikasının Məhkəmə-Tibbi Ekspertiza Qurumu və bu sahədə ali təhsil müəssisələri ilə qarşılıqlı fəaliyyət nəticəsində "TURAZ Bilim Derneyi" yaradılmışdır.

Məhkəmə ekspertizası sahəsində əsaslı nailiyyətlər əldə edilsə də, bu sahədə çağırışlara uyğun olaraq müəyyən çatışmazlıqlar da mövcuddur.

Belə ki, ədalət mühakiməsi çərçivəsində verilən ekspert rəyi sübut mənbəyi, onun məzmununda öz əksini tapan iş üçün əhəmiyyətli olan məlumatlar isə sübut qismində tanındığından törədilən cinayətlərin və məhkəmələrin icraatındakı işlərin sayının artması ilə əlaqədar məhkəmə ekspertizası idarələrinə daxil olan işlərin sayı ilbəil artan xətt üzrə inkişaf edir *(bax: cədvəllər 2 ─ 4).*

*2020-ci və 2024-cü illərdə məhkəmə ekspertizası idarələrinə daxil olmuş işlərin müqayisəli təhlili*

*Cədvəl 2*




*2020 ─ 2024-cü illərdə məhkəmələrin icraatına daxil olan işlərin sayı*

*Cədvəl 3*




*2020 ─ 2024-cü illərdə cinayətlərin statistikası*

*Cədvəl 4*




2020–2024-cü illər ərzində məhkəmə ekspertizası idarələrinə daxil olan işlərin təhlili göstərir ki, son 5 ildə qeyri-tibb ekspertizaları üzrə 43,1 faiz, tibbi ekspertizalar üzrə isə 42,1 faiz artım müşahidə olunur.

Ekspertin iş yükü normasının müəyyən edilməsi ilə bağlı ölkəmizin hüquq sisteminə uyğun ölkələrin təcrübəsi təhlil olunduqda, Azərbaycan Respublikasında iş yükü normasının əhəmiyyətli dərəcədə yüksək olduğu müşahidə edilir. Ekspertlərin iş yükünün çox olması isə, öz növbəsində, ekspert rəylərinin keyfiyyətinə mənfi təsir göstərir.

Bütün bunlar ölkəmizdə ekspertlərin iş yükünün də optimallaşdırılması ilə bağlı tədbirlər görülməsini şərtləndirir.

## 4. Konsepsiyanın hədəf göstəriciləri

4.1. Konsepsiyanın 5-ci hissəsi ilə müəyyən edilən məqsədlərə uyğun olaraq, Konsepsiyada aşağıdakı hədəflər müəyyən edilir:

4.1.1. məhkəmə ekspertizası fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili;

4.1.2. elm və texnikanın sürətli inkişafı, o cümlədən rəqəmsallaşma və biometrik autentifikasiya kimi yeni texnoloji tendensiyalarla uzlaşan fəaliyyətin təşkili;

4.1.3. ekspertiza xidmətinə əlçatanlığın təmin edilməsi və ictimai etimadın yüksəldilməsi;

4.1.4. ekspert rəylərinin keyfiyyətinin artırılması, məhkəmə ekspertizası idarələrinin fəaliyyətinin təkmilləşdirilməsi, sınaq laboratoriyalarının akkreditasiyasının təmin edilməsi;

4.1.5. özəl məhkəmə ekspertizası institutunun təşviq edilməsi və bu sahənin inkişaf etdirilməsi;

4.1.6. məhkəmə ekspertizası fəaliyyəti subyektlərinin tələbatı nəzərə alınaraq yeni növ və ixtisaslar üzrə ekspertizaların aparılması;

4.1.7. yeni çağırışlar və qlobal trendlər nəzərə alınmaqla, məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın davamlı təkmilləşdirilməsi.

4.2. Konsepsiyanın reallaşdırılması məhkəmə ekspertizası fəaliyyətinin davamlı inkişafını təmin edəcək, bu sahədə maddi-texniki bazanın, maliyyə dayanıqlılığının, xüsusi təlim və kadr infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulmasına imkan verəcəkdir. Bütün bunlar ekspertlərin müstəqilliyinin daha da möhkəmləndirilməsini təmin edəcəkdir.

## 5. Konsepsiyanın məqsədləri

Konsepsiyanın məqsədləri mövcud imkan və resurslar nəzərə alınmaqla, Azərbaycanda məhkəmə ekspertizası sahəsinin qabaqcıl beynəlxalq standartlara və müasir çağırışlara uyğun təşkil edilməsinə, ekspert rəylərinin keyfiyyətinin artırılmasına, insanların hüquq və azadlıqlarının etibarlı təmin olunmasına, ədalət mühakiməsinin çevik və səmərəli aparılmasına nail olmaqdan ibarətdir.

## 6. Konsepsiyanın prioritet istiqamətləri

**6.1. Məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətində keyfiyyət təminatı sisteminin yaradılması və ayrı-ayrı növ məhkəmə ekspertizalarının aparılması sahəsində vahid standartların müəyyən olunması:**

**6.1.1. Əsaslandırma:** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nda laboratoriya fəaliyyətinin beynəlxalq standartlara, milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, texniki tənzimləmə sisteminin və bu sahəyə dövlət nəzarətinin formalaşdırılması, texniki tənzimləmə və standartlaşdırma sahəsində yüksək texnologiyaların və innovativ həllərin tətbiqi prioritet istiqamətlər olaraq müəyyən edilmişdir.

Məhkəmə ekspertizası sahəsində xidmətlərin ölçülə bilən meyarlara uyğun olması, həmin xidmətlərin keyfiyyətinin bu meyarlar üzrə qiymətləndirilməsinin mümkünlüyü vacib şərt kimi çıxış edir. Qeyd olunanlar isə yalnız səmərəli yanaşmaların məcmu şəklində tətbiqi, icrası və inkişafı ilə mümkündür. Bu baxımdan məhkəmə ekspertizası sahəsinin spesifik xidmət və iş sahəsi kimi özünün ayrıca keyfiyyət təminat sistemi olmalıdır.

Beynəlxalq Standartlaşdırma Təşkilatı, Beynəlxalq Elektrotexnika Komissiyası, Avropa Standartlaşdırma Komitəsi, Müstəqil Dövlətlər Birliyinin Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şurası, Sınaq və Materiallar üzrə Amerika Cəmiyyəti, eləcə də digər beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi, standartlaşdırma, akkreditasiya, uyğunluğun qiymətləndirilməsi sahələrində 30-dək hökumətlərarası saziş və qurumlararası anlaşma memorandumunun imzalanması milli standartlaşdırma sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində atılan mühüm addımlardır.

Bununla belə, ölkəmizdə məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olan orqanlarda (qurumlarda) keyfiyyətin səviyyəsinin ölçülməsi və qiymətləndirilməsi meyarlarında mövcud çatışmazlıqların aradan qaldırılması, ekspert rəylərinin etibarlılığının və mötəbərliliyinin artırılması məqsədilə məhkəmə ekspertizası idarələrində bu sahədə fəaliyyətin təkmilləşdirilməsinə zərurət vardır.

Eyni zamanda, yeni çağırışlar və qlobal trendlər nəzərə alınmaqla, məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın davamlı təkmilləşdirilməsi hüquq sisteminin səmərəliliyini və ədalət mühakiməsinin keyfiyyətini artırmaq üçün vacibdir. Buna görə də, məhkəmə ekspertizası institutunun normativ hüquqi çərçivəsi müasir elmi və texnoloji yenilikləri nəzərə almalı, mütərəqqi təcrübələrə uyğun inkişaf etdirilməlidir;

**6.1.2. Görüləcək tədbirlər:**

6.1.2.1. yeni çağırışlar, qlobal trendlər və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.2.2. məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitələrin yaradılması məqsədilə zəruri tədbirlər görülməsi;

6.1.2.3. məhkəmə ekspertizası sahəsində dövlət standartlarının hazırlanması və qəbulu;

6.1.2.4. məhkəmə ekspertizası ensiklopediyasının hazırlanması;

6.1.2.5. məhkəmə ekspertizası idarələrində keyfiyyət təminatı sisteminin qurulması;

6.1.2.6. sınaq laboratoriyalarının "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçirilməsi;

6.1.2.7. məhkəmə ekspertizasının aparılması şərtlərini və qaydalarını müəyyən edən təlimatın hazırlanması;

**6.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.1. məhkəmə ekspertizası fəaliyyətinin hüquqi əsasları təkmilləşdiriləcək;

6.1.3.2. məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitənin yaradılması ekspert rəylərinin keyfiyyətinin artmasına səbəb olacaq;

6.1.3.3. məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə tədbirlərin görülməsi dövlət standartlarının qəbul edilməsini, dövlət reyestrinə və fonduna daxil edilməsini təmin edəcək;

6.1.3.4. ekspertiza fəaliyyətinin iştirakçıları və digər şəxslər ekspertiza fəaliyyəti barədə daha məlumatlı olacaq;

6.1.3.5. məhkəmə ekspertizası idarələrinin fəaliyyətinin keyfiyyət təminatı sistemi əsasında təşkil edilməsi ekspertlərin bilik və bacarıqlarının artırılmasına, kadr hazırlığının səmərəli təşkilinə xidmət edəcək;

6.1.3.6. sınaq laboratoriyalarının akkreditasiyadan keçirilməsi işinin yekunlaşdırılması həmin laboratoriyaların fəaliyyətində keyfiyyət irəliləyişinə səbəb olacaq;

6.1.3.7. müvafiq sahə üzrə təlimat məhkəmə ekspertizası fəaliyyətində konkretliyi və səmərəliliyi təmin edəcək;

**6.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.1. müvafiq standartlaşdırma və akkreditasiya prosesinin təşkili qurumların təşkilati-struktur, maddi-texniki, kadr və metodiki təminatı ilə bağlıdır. Müvafiq zəruri infrastrukturun qurulması, habelə beynəlxalq akkreditasiya prosesinin təşkili üçün tələb olunan maliyyə vəsaitinin ayrılmasında müəyyən çətinliklər yarana bilər. Bununla əlaqədar, Konsepsiyanın 7-ci hissəsində qeyd olunan mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər.

**6.2. Məhkəmə ekspertizası fəaliyyətinin rəqəmsallaşdırılması:**

**Əsaslandırma:**

Məhkəmə və hüquq mühafizə orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması və innovativ texnologiyaların cəmiyyətin bütün fəaliyyət sahələrinə inteqrasiyası məhkəmə ekspertizası təcrübəsində müasir texnologiyaların tətbiqini zəruri edir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd edildiyi kimi, perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacaqdır.

Bununla əlaqədar olaraq, məhkəmə ekspertizası sahəsində də çeviklik, obyektivlik, şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanan, habelə data əsaslı rəylərin verilməsini təmin edən fəaliyyətin təşkili üçün bu sahənin rəqəmsallaşdırılması təmin edilməlidir;

**(ardı 11-ci səhifədə)**

# Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026─2030-cu illər üçün Konsepsiya

*(əvvəli 10-cu səhifədə)*

**6.2.2. Görüləcək tədbirlər:**

6.2.2.1. məhkəmə ekspertizası sahəsində vahid informasiya sisteminin fəaliyyətinin təşkili, dövlət orqanlarının (qurumlarının) aidiyyəti dövlət informasiya sistemlərinin və ehtiyatlarının həmin sistemə inteqrasiyasının təmin edilməsi;

• Məhkəmə ekspertizası idarələrinin maddi-texniki təminatının gücləndirilməsi;

6.2.2.3. məhkəmə ekspertizası sahəsindəki mövcud rəqəmsal informasiya resurslarının, o cümlədən metodik fond və reyestrlərin təkmilləşdirilməsi;

6.2.2.4. məhkəmə ekspertizası fəaliyyəti sahəsində süni intellektin tətbiqi imkanlarının araşdırılması və nəticəsindən asılı olaraq tədbirlər görülməsi;

**6.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.3.1. məhkəmə ekspertizası fəaliyyətinin informasiya sistemi üzərindən də həyata keçirilməsi məlumatların toplanılması, saxlanılması və təhlilini asanlaşdıracaq, ekspertiza xidməti daha sürətli və səmərəli təşkil ediləcək, dövlət orqanları (qurumları) ilə məhkəmə ekspertizası idarələri arasında məlumat mübadiləsi aidiyyəti dövlət informasiya sistemləri və ehtiyatları vasitəsilə həyata keçiriləcək;

6.2.3.2. ekspertiza laboratoriyalarının maddi-texniki təminatının gücləndirilməsi insan amilini azaldacaq və tədqiqatın nəticələrinin etibarlılığı yüksələcək;

6.2.3.3. məhkəmə ekspertizası sahəsindəki elektron resurslar genişləndiriləcək, tədqiqat obyektlərinin (maddi sübutların, sənədlərin və s.) daha etibarlı qorunması, kənar müdaxilə, fiziki zədə və itkilərdən mühafizəsi təmin ediləcək və bununla da məhkəmə ekspertizası sahəsindəki elektron resurslar daha əlçatan olacaq;

6.2.3.4. məhkəmə ekspertizası idarələrində süni intellektin tətbiqi imkanları gücləndiriləcək;

**6.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.2.4.1. qurumların fəaliyyətinin rəqəmsallaşdırılması ilə bağlı zəruri infrastrukturun qurulması üçün tələb olunan maliyyə vəsaitinin ayrılmasında müəyyən çətinliklər yarana bilər. Bununla əlaqədar, Konsepsiyanın 7-ci hissəsində qeyd olunan mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.2.4.2. bir sıra ekspertlərin rəqəmsal bacarıqlarının aşağı olması məhkəmə ekspertizası fəaliyyətinin tam rəqəmsallaşdırılmasına maneə yarada bilər. Bununla əlaqədar, ekspertlərin rəqəmsal bacarıqlarının artırılması üzrə intensiv təlimlər təşkil edilə bilər;

6.2.4.3. vahid informasiya sisteminin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiya prosesi ləngiyə bilər, bu sahədə fəaliyyətin əlaqələndirilməsində çətinliklər yarana bilər. Bununla əlaqədar, müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur.

**6.3. Özəl məhkəmə ekspertlərinin səmərəli fəaliyyətinin təmin edilməsi:**

**6.3.1. Əsaslandırma:**

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanında nəzərdə tutulan tapşırıqların icrası üzrə özəl məhkəmə ekspertizası institutunun fəaliyyətini tənzimləyən müvafiq normativ hüquqi baza formalaşmışdır. Lakin bu sahədə zəruri təşviqat işlərinin aparılmasına ehtiyac vardır.

Özəl məhkəmə ekspertizası institutunun ekspertiza fəaliyyəti sahəsində ümumi iş yükünü azaltma potensialı üzrə ilkin təhlillər göstərir ki, hazırkı normativ hüquqi baza çərçivəsində özəl məhkəmə ekspertizası institutu məhkəmə ekspertizası idarələrinin iş yükünü əhəmiyyətli dərəcədə azaltmaq potensialına malikdir.

Beləliklə, özəl məhkəmə ekspertizası institutunun fəaliyyətə başlaması ekspertiza sahəsində alternativliyi təmin etməklə, ədalət mühakiməsinin inkişafına mühüm töhfə verəcəkdir.

Bununla belə, özəl məhkəmə ekspertizası institutu ilə bağlı mümkün risklər, o cümlədən özəl məhkəmə ekspertlərinin rəylərinin keyfiyyətinin və tələb olunan resurslara çıxışının məhkəmə ekspertizası idarələrinin ekspertləri ilə müqayisədə daha aşağı səviyyədə ola bilmə ehtimalı, ilkin mərhələdə özəl məhkəmə ekspertizası institutuna ictimai etimadın formalaşmaması, habelə təcrübədə formalaşacaq real potensialı nəzərə almaqla, bu instituta keçidin mərhələli şəkildə təmin edilməsi məqsədəmüvafiqdir. Özəl məhkəmə ekspertizası institutunun səmərəli fəaliyyətindən asılı olaraq, gələcəkdə onun tətbiqi sferasının genişləndirilməsi, o cümlədən normativ əsaslarının daha da təkmilləşdirilməsi məsələləri də nəzərdən keçirilməlidir;

**6.3.2. Görüləcək tədbirlər:**

6.3.2.1. özəl məhkəmə ekspertizası institutunun tətbiqinə başlanılması;

6.3.2.2. özəl məhkəmə ekspertizası institutunun fəaliyyətinin genişləndirilməsi ilə bağlı təkliflər hazırlanması;

**6.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

• özəl məhkəmə ekspertləri fəaliyyətə başlayacaq, özəl məhkəmə ekspertizası institutunun səmərəli fəaliyyəti nəticəsində məhkəmə ekspertizası sahəsində alternativlik təmin ediləcək;

• özəl məhkəmə ekspertizası institutunun fəaliyyət dairəsi genişlənəcək, bununla da məhkəmə ekspertizası xidmətlərinə əlçatanlıq artacaq, rəqabətli mühit şəraitində ekspertiza sahəsinin inkişafına nail olunacaq;

**6.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

• özəl məhkəmə ekspertləri tərəfindən həyata keçirilməsi mümkün olan bəzi ekspertiza növləri üzrə müvafiq avadanlıqlara, xüsusi proqram təminatlarına və‑sınaq laboratoriyalarına ehtiyac ola bilər. Müvafiq infrastrukturun qurulması yüksək maliyyə yükü tələb etdiyi hallarda həmin sahələr üzrə şəxslər özəl məhkəmə eksperti kimi fəaliyyət göstərməkdən çəkinə bilərlər. Bununla əlaqədar olaraq, özəl məhkəmə ekspertlərinin məhkəmə ekspertizası idarələri, elmi müəssisə və təşkilatlar, ali təhsil müəssisələri, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyaları, özəl hüquqi şəxslər ilə əməkdaşlıq imkanları nəzərdən keçirilə bilər;

6.3.4.2. özəl məhkəmə ekspertləri tərəfindən müvafiq fəaliyyətin təşkili zamanı metodiki və təşkilati çatışmazlıqlar, habelə ilkin mərhələdə bu instituta etimad aşağı ola bilər. Bununla əlaqədar, belə risklərin aradan qaldırılmasını təmin edəcək metodiki dəstək və hesabatlılıq mexanizmlərindən istifadə edilə bilər;

• özəl məhkəmə ekspertizası institutunun inkişafı və maliyyə dayanıqlılığının təmin edilməsi məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən ekspertlərin bu sahəyə yönəlməsinə səbəb ola bilər. Bu da, öz növbəsində, məhkəmə ekspertizası idarələrinin kadr potensialına təsir edə bilər. Bununla əlaqədar olaraq, məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən ekspertlərin təminatı gücləndirilməli, həmin idarələrin rəqabətqabiliyyətliliyi təmin olunmalıdır;

**6.4. Məhkəmə ekspertizası idarələrinin kadr potensialının və məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsi:**

**6.4.1. Əsaslandırma:**

Məhkəmə ekspertizası institutunun inkişafı, o cümlədən ekspert tədqiqatlarının tam və hərtərəfli aparılması, ekspert rəylərinin keyfiyyətinin artırılması bu sahənin kadr potensialı ilə birbaşa bağlıdır. Kadr potensialının gücləndirilməsi həm zəruri təşkilati-ştat, həm də ekspertlərin bilik səviyyəsi və peşəkarlığının artırılması üzrə sistemli tədbirlərin görülməsini şərtləndirir, həmçinin məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən ekspertlərin maddi təminatı sahəsində müvafiq tədbirlərin görülməsini zəruri edir;

**6.4.2. Görüləcək tədbirlər:**

6.4.2.1. beynəlxalq təcrübə və iş yükünün dinamikası nəzərə alınmaqla, məhkəmə ekspertizası idarələrinin ştat vahidlərinin sayının artırılması ilə bağlı təkliflərin hazırlanması;

• məhkəmə ekspertinin ixtisası üzrə tələb olunan baza ali təhsil sahələrinin müəyyən edilməsi və bu sahələrdə ixtisaslı kadrların məhkəmə ekspertizası fəaliyyətinə cəlb edilməsi üzrə tədbirlər görülməsi;

6.4.2.3. məhkəmə ekspertlərinin nəzəri-praktiki hazırlığı, habelə onların bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu məqsədlə xüsusi təlim proqramlarının hazırlanması;

• məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən əməkhaqlarının artırılması ilə bağlı təkliflərin hazırlanması;

**6.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.4.3.1. məhkəmə ekspertlərinin optimal iş yükü müəyyən edilməklə, məhkəmə ekspertizası idarələrinin fəaliyyət imkanları gücləndiriləcək;

6.4.3.2. məhkəmə ekspertizası fəaliyyətinə peşəkar kadrların cəlb edilməsi, ali təhsil müəssisələri ilə əməkdaşlıq şəraitində həmin sahələr üzrə təhsil proqramlarına məhkəmə ekspertizası ilə bağlı seçmə fənlərin daxil edilməsi mümkün olacaq;

6.4.3.3. məhkəmə ekspertlərinin nəzəri-praktiki hazırlığının, habelə onların bilik və bacarıqlarının təkmilləşdirilməsi işi beynəlxalq standartlar əsasında qurulacaq, bu sahədə ixtisaslı kadrların hazırlanması, habelə məhkəmə ekspertlərinin bilik və bacarıqlarının davamlı artırılması təmin ediləcək;

6.4.3.4. məhkəmə ekspertlərinin sosial rifahı yaxşılaşdırılacaq, rəqabətədavamlı əməyin ödənişi sistemi formalaşdırılacaq və məhkəmə ekspertizası fəaliyyəti sahəsində dayanıqlı inkişaf təmin ediləcək;

**6.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.4.4.1. kadr potensialının gücləndirilməsi, xüsusilə beynəlxalq təcrübə nəzərə alınmaqla, ayrı-ayrı məhkəmə ekspertizası növləri üzrə xüsusi təlim proqramlarının hazırlanması, məhkəmə ekspertlərinin yüksək səviyyədə ixtisaslaşmasının təmin edilməsi maliyyə vəsaiti tələb edir. Bu da müvafiq resursun ayrılmasında çətinliklər yarada bilər. Bununla əlaqədar, Konsepsiyanın 7-ci hissəsində qeyd olunan mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

• məhkəmə ekspertizası idarələrinin ekspertlərinin əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması üçün tələb olunan maliyyə vəsaitinin ayrılmasında çətinliklər yarana bilər. Bununla əlaqədar, məhkəmə ekspertizası idarələrinin maliyyə dayanıqlılığının təmin edilməsi və müvafiq xidmətlərin göstərilməsindən əldə olunan vəsaitin ekspertlərin əməyinin ödənişinə yönəldilməsi imkanları nəzərdən keçirilə bilər.

**6.5. Məhkəmə ekspertizası idarələrinin infrastrukturunun, maddi-texniki təminatının gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi:**

**6.5.1. Əsaslandırma:**

Məhkəmə ekspertizası fəaliyyətinin səmərəli təşkili, habelə müvafiq ekspertizalar üzrə tədqiqat metodlarının beynəlxalq akkreditasiyalardan keçirilməsi və bu sahədə standartlaşdırmanın təmin edilməsi məhkəmə ekspertizası idarələrinin infrastrukturundan asılıdır. Bununla əlaqədar, hazırda məhkəmə ekspertizası idarələrinin infrastrukturunun əsaslı olaraq təkmilləşdirilməsi, o cümlədən onların ən müasir avadanlıqla təchiz edilməsi zəruridir.

Eyni zamanda, məhkəmə ekspertizası idarələrinin maliyyə dayanıqlılığının təmin edilməsi, o cümlədən göstərilən xidmətlərə görə ödənilən haqqın məbləğinin qabaqcadan toplanılması mexanizminin müəyyən edilməsi ilə əlaqədar tədbirlər görülməsinə ehtiyac vardır;

**6.5.2. Görüləcək tədbirlər:**

6.5.2.1. məhkəmə ekspertizası fəaliyyətinin maliyyə dayanaqlılığının təmin edilməsi və maliyyələşmə mənbələrinin gücləndirilməsi, ekspertiza xərclərinin ödənilməsi mexanizmləri üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.5.2.2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin yeni inzibati binasının inşası və laboratoriyalarının müasir tələblərə uyğun komplektləşdirilməsinə dair tədbirlər görülməsi;

6.5.2.3. məhkəmə ekspertizası idarələrinin mərkəzi və yerli qurumlarının ehtiyacları nəzərə alınmaqla yeni binaların inşa edilməsi ilə bağlı tədbirlərin görülməsi;

6.5.2.4. məhkəmə ekspertizası idarələrinin laboratoriyalarının şəraitinin yaxşılaşdırılması, həmin qurumların müasir avadanlıqla təmin edilməsi;

**6.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.5.3.1. ekspertiza xərclərinin ödənilməsi mexanizmlərinin təkmilləşdirilməsi nəticəsində məhkəmə ekspertizası idarələrinin özünümaliyyələşdirmə imkanları genişləndiriləcək;

6.5.3.2. dövlət büdcəsindən ayrılan investisiyalar çərçivəsində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin müasir inzibati binası inşa ediləcək və istifadəyə veriləcək, bunun nəticəsində həmin Mərkəzin və laboratoriyalarının fəaliyyəti ən müasir tələblər səviyyəsində qurulacaq;

6.5.3.3. məhkəmə ekspertizası idarələrinin mərkəzi və yerli qurumlarının ehtiyacları nəzərə alınmaqla yeni binaların inşa edilməsi həmin məhkəmə ekspertizası idarələrində göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına səbəb olacaq;

6.5.3.4. məhkəmə ekspertizası idarələrinin laboratoriyalarının şəraitinin yaxşılaşdırılması və zəruri avadanlıqla təmin olunması nəticəsində məhkəmə ekspertizası idarələrinin beynəlxalq akkreditasiya imkanları genişlənəcək, bu sahədə müasir metodların tətbiqi, habelə yeni növ məhkəmə ekspertizalarının aparılması imkanları təmin olunacaq;

**6.5.4. Gözlənilən risk və onların neytrallaşdırılması tədbirləri:**

6.5.4.1. Müvafiq tədbirlərin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitinin ayrılmasında çətinliklər ola bilər. Bununla əlaqədar, Konsepsiyanın 7-ci hissəsində qeyd olunan mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər.

## 7. Konsepsiyanın maliyyələşdirilməsi

Məhkəmə ekspertizası idarələrinin fəaliyyəti dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Məhkəmə ekspertizasının lazımi səviyyədə aparılmasının təmin edilməsi, o cümlədən məhkəmə ekspertizası idarələrinin müasir texnika və avadanlıqla təchiz edilməsi üçün dövlət büdcəsindən vəsait ayrılması nəzərdə tutulur.

Bundan başqa, müvafiq tədbirlərin maliyyələşdirilməsi zamanı ekspertiza fəaliyyətinin özünümaliyyələşdirmə mexanizmlərindən istifadə edilməsi, o cümlədən ekspertiza xidmətləri göstərilməsindən daxil olan vəsaitin bir hissəsinin bu sahənin inkişafına yönəldilməsi imkanları da nəzərdən keçiriləcəkdir.

Konsepsiyanın əsas prioritet istiqamətlərinin həlli üçün dövlət─özəl tərəfdaşlığı nəticəsində formalaşan maliyyə vəsaitindən, yerli və xarici investisiyalardan, beynəlxalq təşkilatların, donorların və fondların vəsaitindən, qanunda nəzərdə tutulan digər mənbələrdən də istifadə edilə bilər.

## 8. "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026─2030-cu illər üçün Konsepsiya"nın icrasına dair tədbirlər planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətində keyfiyyət təminatı sisteminin yaradılması və ayrı-ayrı növ məhkəmə ekspertizalarının aparılması sahəsində vahid standartların müəyyən olunması** | | | | | | | |
| 8.1.1. | Yeni çağırışlar, qlobal trendlər və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi | NK | ƏN, SN, DİN, MN<br>Tövsiyə edilir: Ali Məhkəmə, Baş Prokurorluq, Vəkillər Kollegiyası | 2026 | Məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi üçün mütərəqqi təcrübələrin öyrənilməsi | Qabaqcıl təcrübələr, habelə yerli xüsusiyyətlər və mövcud ehtiyaclar nəzərə alınmaqla, məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair layihələrin hazırlanması, razılaşdırılması və aidiyyəti üzrə təqdim olunması | Məhkəmə ekspertizası sahəsində yeni normativ hüquqi aktların qəbulu ilə məhkəmə ekspertizası fəaliyyətinin hüquqi əsaslarının təkmilləşdirilməsi |
| 8.1.2. | Məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitələrin yaradılması məqsədilə zəruri tədbirlər görülməsi | ƏN, SN | AİBNDA, DİN, MN | 2026 | Məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitələrin əsasnaməsi, strukturu və iş planı layihələrinin hazırlanması | Məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitələrin yaradılması məqsədilə milli standartlaşdırma qurumuna müraciət olunması | Məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitələrin yaradılması, bununla da ekspert rəylərinin keyfiyyətinin artması |
| 8.1.3. | Məhkəmə ekspertizası sahəsində dövlət standartlarının hazırlanması və qəbulu | ƏN, AİBNDA | SN, DİN, MN | 2026─2030 | Standartlaşdırma üzrə texniki komitə tərəfindən dövlət standartları layihələrinin hazırlanması | Dövlət standartları layihələrinin razılaşdırılması | Dövlət standartlarının qəbulu, dövlət reyestrinə və fonduna daxil edilməsi |
| 8.1.4. | Məhkəmə ekspertizası ensiklopediyasının hazırlanması | ƏN, SN, DİN, MN | AMEA | 2026 ─ 2030 | Analoji xarici təcrübənin öyrənilməsi, ensiklopedik materialların hazırlanması üçün müəllif heyətinin müəyyən edilməsi | Məhkəmə ekspertizasının müxtəlif sahələrini əhatə edən xüsusi elmi məlumatların toplanılması və məhkəmə ekspertizası sahəsində ensiklopedik materialların hazırlanması | Məhkəmə ekspertizası fəaliyyətinin iştirakçılarının və digər şəxslərin ekspertiza fəaliyyəti barədə daha məlumatlı olması |
| 8.1.5. | Məhkəmə ekspertizası idarələrində keyfiyyət təminatı sisteminin qurulması | ƏN, SN, DİN, MN | İN | 2026 ─ 2030 | Məhkəmə ekspertizası sahəsində xidmət səviyyəsinin ölçülməsi və qiymətləndirilməsi meyarlarının müəyyən edilməsində müşahidə olunan çatışmazlıqların təhlili | Keyfiyyət təminatı fəaliyyətini həyata keçirən müvafiq struktur qurumlarının təsis edilməsi | Məhkəmə ekspertizası idarələrinin fəaliyyətini keyfiyyət təminatı sistemi əsasında təşkil etməklə, ekspertlərin bilik və bacarıqlarının artırılması, kadr hazırlığının səmərəli təşkili |
| 8.1.6. | Sınaq laboratoriyalarının "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçirilməsi | AİBNDA | ƏN, SN, DİN, MN | 2026 ─ 2030 | Sınaq laboratoriyalarının akkreditasiyadan keçirilməsi üçün zəruri infrastruktur, maddi-texniki və metodiki təminata dair ehtiyaclarının öyrənilməsi | Sınaq laboratoriyalarının akkreditasiyadan keçirilməsi üçün zəruri təşkilati və texniki tədbirlər görülməsi | Sınaq laboratoriyalarının akkreditasiyadan keçirilməsi işinin yekunlaşdırılmasının həmin laboratoriyaların fəaliyyətində keyfiyyət irəliləyişinə səbəb olması |
| 8.1.7. | Məhkəmə ekspertizasının aparılması şərtlərini və qaydalarını müəyyən edən təlimatın hazırlanması | NK | ƏN, SN, DİN, MN | 2026 | Məhkəmə ekspertizası sahəsində beynəlxalq təcrübənin öyrənilməsi | Beynəlxalq təcrübə nəzərə alınmaqla, təlimatın və onun hüquqi əsasının müəyyən edilməsi ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması və təqdim olunması | Məhkəmə ekspertizasının aparılması şərtlərini və qaydalarını müəyyən edən təlimatın qəbulu nəticəsində məhkəmə ekspertizası fəaliyyətində konkretliyin və səmərəliliyin təmin olunması |
| **8.2. Məhkəmə ekspertizası fəaliyyətinin rəqəmsallaşdırılması** | | | | | | | |
| 8.2.1. | Məhkəmə ekspertizası sahəsində vahid informasiya sisteminin fəaliyyətinin təşkili, dövlət orqanlarının (qurumlarının) aidiyyəti dövlət informasiya sistemlərinin və ehtiyatlarının həmin sistemə inteqrasiyasının təmin edilməsi | NK | ƏN, RİNN, SN, DİN, MN, İN, ƏƏSMN, DGK, XRİTDX<br>Tövsiyə edilir: Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası, Baş Prokurorluq | 2026 | Məhkəmə ekspertizası fəaliyyətinin rəqəmsallaşdırılması üçün mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla, normativ hüquqi bazanın formalaşdırılması, məhkəmə ekspertizası idarələrinin müvafiq məlumat resurslarına tələbatının öyrənilməsi və bu istiqamətdə aidiyyəti qurumların elektron resurslarının imkanlarının təhlil edilməsi | Məhkəmə ekspertizası fəaliyyəti subyektlərinin tələbatı və mövcud infrastrukturu nəzərə alınmaqla, müvafiq informasiya sisteminin formalaşdırılması, mərhələli istifadəyə verilməsi, məlumatların səmərəli inteqrasiyası | Məhkəmə ekspertizası fəaliyyətinin informasiya sistemi üzərindən də həyata keçirilməsi, bununla da məlumatların toplanılmasının, saxlanılmasının və təhlilinin asanlaşdırılması, ekspertiza xidmətinin daha sürətli və səmərəli təşkil edilməsi, dövlət orqanlarının (qurumlarının) məhkəmə ekspertizası idarələri arasında məlumat mübadiləsinin aidiyyəti dövlət informasiya sistemləri və ehtiyatları vasitəsilə aparılması |

*(ardı 12-ci səhifədə)*

# Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026─2030-cu illər üçün Konsepsiya

*(əvvəli 11-ci səhifədə)*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.2. | Məhkəmə ekspertizası idarələrinin maddi-texniki təminatının gücləndirilməsi | NK | ƏN, SN, DİN, MN | 2026 | Rəqəmsallaşmanı təmin etmək məqsədilə ekspertiza fəaliyyətini həyata keçirən qurumların tələbatının öyrənilməsi | Qurumların maddi-texniki təminatının gücləndirilməsinə dair təkliflərin ümumiləşdirilməsi | Müvafiq sahədə maddi-texniki təminatın gücləndirilməsi ilə insan amilinin azaldılması və tədqiqatın nəticələrinin etibarlılığının yüksəldilməsi |
| 8.2.3. | Məhkəmə ekspertizası sahəsindəki mövcud rəqəmsal informasiya resurslarının, o cümlədən metodik fond və reyestrlərin təkmilləşdirilməsi | NK | ƏN, MN, SN, DİN | 2026 — 2030 | Dövlət orqanlarının (qurumlarının) aidiyyəti dövlət informasiya sistemlərinin və ehtiyatlarının mövcud vəziyyətini təhlil edərək onların təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması | Fond və reyestrlərdəki məlumatların kağız və elektron daşıyıcılarda mühafizəsi ilə bağlı zəruri tədbirlər görülməsi | Tədqiqat obyektlərinin daha etibarlı qorunması, kənar müdaxilə, fiziki zədə və itkilərdən mühafizə edilməsi, həmçinin mövcud resursların genişləndirilməsi və bununla da məhkəmə ekspertizası sahəsindəki elektron resurslara əlçatanlığın təmin edilməsi |
| 8.2.4. | Məhkəmə ekspertizası fəaliyyəti sahəsində süni intellektin tətbiqi imkanlarının araşdırılması və nəticəsindən asılı olaraq tədbirlər görülməsi | ƏN, SN, DİN, MN | | 2028 — 2030 | Ekspertiza sahəsində süni intellektin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi | Beynəlxalq təcrübənin tətbiqi üçün zəruri tənzimləmənin və tələb olunan maddi-texniki infrastrukturun araşdırılması, bu sahədə süni intellektin imkanlarından istifadəyə dair təkliflər hazırlanması, aidiyyəti üzrə təqdim olunması | Məhkəmə ekspertizası idarələrində süni intellektin tətbiqi imkanlarının gücləndirilməsi |
| | **8.3. Özəl məhkəmə ekspertlərinin səmərəli fəaliyyətinin təmin edilməsi** | | | | | | |
| 8.3.1. | Özəl məhkəmə ekspertizası institutunun tətbiqinə başlanılması | ƏN | AŞ, MİA | 2026 | Mümkün risklər, o cümlədən özəl məhkəmə ekspertlərinin fəaliyyətində təşkilati və metodiki çatışmazlıqlar nəzərə alınmaqla təcrübədə daha çox ehtiyac duyulan fəaliyyət sahələrinin müəyyən edilməsi | Peşəkar kadrların özəl məhkəmə eksperti qismində fəaliyyət göstərməyə cəlb edilməsi üçün təşviqat-təbliğat tədbirlərinin görülməsi | Özəl məhkəmə ekspertlərinin fəaliyyətə başlaması, özəl məhkəmə ekspertizası institutunun səmərəli fəaliyyəti nəticəsində məhkəmə ekspertizası sahəsində alternativliyin təmin edilməsi |
| 8.3.2. | Özəl məhkəmə ekspertizası institutunun fəaliyyətinin genişləndirilməsinə dair təkliflər hazırlanması | NK | SN, ƏN<br>Tövsiyə edilir: Ali Məhkəmə, Baş Prokurorluq, Vəkillər Kollegiyası | 2028 — 2030 | Özəl məhkəmə ekspertizası institutunun fəaliyyətinin səmərəliliyinin təhlil edilərək ümumiləşdirilməsi | Təhlilin nəticələrindən asılı olaraq, özəl məhkəmə ekspertizası institutunun fəaliyyətinin genişləndirilməsinə dair beynəlxalq təcrübənin öyrənilməsi, bununla bağlı təkliflər hazırlanması və aidiyyəti üzrə təqdim olunması | Özəl məhkəmə ekspertizası institutunun fəaliyyət dairəsinin genişləndirilməsi, bununla da məhkəmə ekspertizası xidmətlərinə əlçatanlığın artması, rəqabətli mühit şəraitində ekspertiza sahəsinin inkişafına nail olunması |
| | **8.4. Məhkəmə ekspertizası idarələrinin kadr potensialının və məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsi** | | | | | | |
| 8.4.1. | Beynəlxalq təcrübə və iş yükünün dinamikası nəzərə alınmaqla, məhkəmə ekspertizası idarələrinin ştat vahidlərinin sayının artırılması ilə bağlı təkliflər hazırlanması | NK | ƏN, SN, DİN, MN | 2026 | Məhkəmə ekspertinin iş yükü normasına və ekspertiza tədqiqatlarının mürəkkəblik dərəcəsinə dair xarici ölkələrin təcrübəsinin öyrənilməsi və məlumatların təhlili | Müvafiq təhlillər əsasında məhkəmə ekspertizası növlərindən asılı olaraq, ekspertlərin optimal iş yükünə və məhkəmə ekspertizası idarələrinin ştat sayının artırılmasına dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | Məhkəmə ekspertlərinin optimal iş yükü müəyyən edilməklə məhkəmə ekspertizası idarələrinin fəaliyyət imkanlarının gücləndirilməsi |
| 8.4.2. | Məhkəmə ekspertinin ixtisası üzrə tələb olunan baza ali təhsil sahələrinin müəyyən edilməsi və bu sahələrdə ixtisaslı kadrların məhkəmə ekspertizası fəaliyyətinə cəlb edilməsi üzrə tədbirlər görülməsi | NK | ƏN, SN, DİN, MN, ETN | 2026 | Məhkəmə ekspertinin ixtisası üzrə baza ali təhsil sahələrinin siyahısına dair beynəlxalq təcrübənin öyrənilməsi | Məhkəmə ekspertinin ixtisası üzrə zəruri baza ali təhsil sahələrinin müəyyən edilməsinə dair təkliflərin toplanılması və ümumiləşdirilməsi | Müvafiq sahələr üzrə ixtisaslı kadrların məhkəmə ekspertizası fəaliyyətinə cəlb edilməsi üzrə tədbirlər görülməsi, o cümlədən ali təhsil müəssisələri ilə əməkdaşlıq şəraitində həmin sahələr üzrə təhsil proqramlarına məhkəmə ekspertizası ilə bağlı seçmə fənlərin daxil edilməsi |
| 8.4.3. | Məhkəmə ekspertlərinin nəzəri-praktiki hazırlığı, habelə onların bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu məqsədlə xüsusi təlim proqramlarının hazırlanması | NK | ƏN, SN, DİN, MN, ETN | 2026 — 2028 | Məhkəmə ekspertlərinin nəzəri-praktiki hazırlığı, habelə onların bilik və bacarıqlarının təkmilləşdirilməsi ilə bağlı xarici ölkələrin təcrübəsinin öyrənilməsi | Beynəlxalq mütəxəssislər cəlb edilməklə, məhkəmə ekspertlərinin nəzəri-praktiki hazırlığı, habelə onların bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün xüsusi təlim proqramlarının hazırlanması | Məhkəmə ekspertlərinin nəzəri-praktiki hazırlığının, habelə onların bilik və bacarıqlarının təkmilləşdirilməsinin beynəlxalq standartlar əsasında qurulması, bununla da bu sahədə ixtisaslı kadrların hazırlanmasının, habelə məhkəmə ekspertlərinin bilik və bacarıqlarının davamlı artırılmasının təmin edilməsi |
| 8.4.4. | Məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən əməkhaqlarının artırılması ilə bağlı təkliflər hazırlanması | NK | ƏN, MN, SN, DİN | 2026 | Ekspert peşəsinin xüsusiyyətləri nəzərə alınaraq onların sosial müdafiəsinin gücləndirilməsi, vəzifələrinin nümunəvi icrasının qiymətləndirilməsi məqsədilə təkliflər hazırlanması | Toplanmış təkliflər əsasında müvafiq normativ hüquqi akt layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | Məhkəmə ekspertlərinin sosial rifahının yaxşılaşdırılması, rəqabətədavamlı əməyin ödənişi sisteminin formalaşdırılması və məhkəmə ekspertizası fəaliyyəti sahəsində dayanıqlı inkişaf təmin edilməsi |
| | **8.5. Məhkəmə ekspertizası idarələrinin infrastrukturunun, maddi-texniki təminatının gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi** | | | | | | |
| 8.5.1. | Məhkəmə ekspertizası fəaliyyətinin maliyyə dayanıqlılığının təmin edilməsi və maliyyələşmə mənbələrinin genişləndirilməsi, ekspertiza xərclərinin ödənilməsi mexanizmləri üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi | NK | ƏN, SN, DİN, MN<br>Tövsiyə edilir: Ali Məhkəmə, Baş Prokurorluq, Vəkillər Kollegiyası | 2026 | Ekspertiza xərclərinin ödənilməsi mexanizmlərinin müəyyən edilməsi ilə bağlı normativ hüquqi bazanın təhlili | Təkliflərin toplanılması, təhlili və normativ hüquqi akt layihələrinin hazırlanması, razılaşdırılması və aidiyyəti üzrə təqdim olunması | Ekspertiza xərclərinin ödənilməsi mexanizmlərinin təkmilləşdirilməsi nəticəsində məhkəmə ekspertizası idarələrinin özünümaliyyələşdirmə imkanlarının genişləndirilməsi |
| 8.5.2. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin yeni inzibati binasının inşası və laboratoriyalarının müasir tələblərə uyğun komplektləşdirilməsinə dair tədbirlər görülməsi | NK | ƏN, İN | 2026 — 2027 | "Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətinin müasirləşdirilməsi haqqında" Azərbaycan Respub-likası Prezidentinin 2018-ci il 11 iyun tarixli 205 nömrəli Sərəncamı ilə ayrılmış maliyyə vəsaiti hesabına hazırlanmış və inşa edilməsi nəzərdə tutulan binanın layihə-smeta sənədlərinin üzərində təkmilləşdirmə işləri aparılması | Yeni binanın inşası və zəruri avadanlıqla təmin edilməsi məqsədilə müvafiq maliyyə vəsaitinin ayrılması | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin inzibati binasının istifadəyə verilməsi, həmin Mərkəzin və laboratoriyalarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində qurulması |
| 8.5.3. | Məhkəmə ekspertizası idarələrinin mərkəzi və yerli qurumlarının ehtiyacları nəzərə alınmaqla yeni binaların inşa edilməsi ilə bağlı tədbirlərin görülməsi | NK | ƏN, SN, DİN, MN | 2026 — 2030 | Yeni inzibati binaların inşası ardıcıllığının müəyyən edilməsi | Müvafiq maliyyə vəsaitinin ayrılmasının təmin edilməsi | Məhkəmə ekspertizası idarələrinin mərkəzi və yerli qurumlarının ehtiyacları nəzərə alınmaqla yeni binaların inşa edilməsi, bununla da həmin məhkəmə ekspertizası idarələrində göstərilən xidmətlərin keyfiyyətinin artırılması |
| 8.5.4. | Məhkəmə ekspertizası idarələrinin laboratoriyalarının şəraitinin yaxşılaşdırılması, həmin qurumların müasir avadanlıqla təmin edilməsi | NK | ƏN, SN, DİN, MN | 2026 — 2030 | Məhkəmə ekspertizası idarələrinin laboratoriyalarının şəraitinin yaxşılaşdırılması üzrə ehtiyaclarının qiymətləndirilməsi və tələb olunan avadanlığın alınması ilə bağlı ardıcıllığın müəyyən edilməsi | Müvafiq maliyyə vəsaitinin ayrılmasının təmin edilməsi | Məhkəmə ekspertizası idarələrinin laboratoriyalarının şəraitinin yaxşılaşdırılması və zəruri avadanlıqla təmin olunması, bu sahədə müasir metodların tətbiqinə imkan yaradılması |

## 9. Akronimlər və ixtisarlar

AİBNDA ─ Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi
AMEA ─ Azərbaycan Milli Elmlər Akademiyası
AŞ ─ Azərbaycan Respublikasının Audiovizual Şurası
DGK ─ Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
DİN ─ Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
ETN ─ Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
ƏƏSMN ─ Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
ƏN ─ Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
XRİTDX ─ Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti
İN ─ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
MİA ─ Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
MN ─ Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
NK ─ Azərbaycan Respublikasının Nazirlər Kabineti
RİNN ─ Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
SN ─ Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**Goranboy rayonunda ümummilli lider Heydər Əliyevin anım günü münasibətilə dərin ehtiram hissi ilə keçirilən "Heydər Əliyev – dövlətçilik və liderlik məktəbi" adlı konfrans böyük mənəvi məzmunu, yüksək təşkilatçılığı və ideya dolğunluğu ilə yadda qaldı. 12 dekabr Ümummilli liderimizin anım günü çərçivəsində təşkil olunan silsilə tədbirlərin mühüm bir hissəsi olan bu konfrans, Goranboy Rayon İcra Hakimiyyətinin Tədbirlər Planına uyğun olaraq gerçəkləşdirildi.**

# Goranboyda anım mərasimi



Tədbirdə rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev, partiya fəalları, ağsaqqallar, ziyalılar və gənclər iştirak edərək Ulu öndərin xalq və dövlət qarşısındakı tarixi xidmətlərini bir daha minnətdarlıqla xatırladılar.

Konfransdan əvvəl iştirakçılar ümummilli lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış möhtəşəm abidəsini ziyarət etmiş, gül dəstələri qoyaraq onun nurlu xatirəsinə ehtiramlarını bildirmişlər. Bu anım mərasimi bir daha göstərdi ki, Heydər Əliyev Azərbaycan xalqının yaddaşında təkcə görkəmli siyasi lider kimi deyil, həm də müasir müstəqil dövlətimizin memarı, ölkəmizin tərəqqisini təmin edən dahi şəxsiyyət kimi əbədi yaşayır.

Daha sonra tədbir YAP rayon təşkilatının inzibati binasının akt zalında davam etdirildi. Konfransda Heydər Əliyevin dövlətçilik strategiyasını, idarəçilik fəlsəfəsini və liderlik məharətini əks etdirən videoçarx nümayiş etdirildi. Videoçarx iştirakçılara Ulu öndərin Azərbaycan üçün gördüyü misilsiz işləri, milli dövlət quruculuğundakı prinsipial mövqeyini və xalqına bağlılığını bir daha xatırlatdı.

Çıxış edən natiqlər Heydər Əliyev məktəbinin Azərbaycan üçün tükənməz bir inkişaf mənbəyi olduğunu vurğulayaraq, onun siyasi irsinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd etdilər. Onlar həmçinin Heydər Əliyevin dərin zəkası, müdrikliyi, uzaqgörənliyi və yenilməz iradəsi sayəsində Azərbaycanın təhlükəsizlik, inkişaf və modernləşmə yoluna çıxdığını diqqətə çatdırdılar.

Tədbir Ümummilli liderimizin parlaq xatirəsinə ehtiramın ifadəsi olmaqla yanaşı, Heydər Əliyev dövlətçilik məktəbinin mənəvi-siyasi dəyərlərinin yeni nəsillərə ötürülməsi baxımından da mühüm əhəmiyyət daşıdı.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

*Xuntaçıların məhkəməsi*

# Dövlət ittihamçısı Ermənistanın hərbi cinayətlərini sübuta yetirib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 11-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev replikasında əvvəlcə təqsirləndirilən şəxslərin cinayətkar birlikdə rollarının mübahisələndirilməsinə dair hissə barədə danışıb. O xatırladıb ki, müdafiə tərəfinin fikrincə, cinayətkar birlik dünya təcrübəsinə əsasən, kriminal cinayətlərin törədilməsi üçün yaradılır.



Dövlət ittihamını müdafiə edən prokurorun sözlərinə görə, məhkəmə iclasında tədqiq edilmiş sübutlarla da təsdiqlənib ki, Birinci Qarabağ müharibəsi başlanmazdan bir neçə il əvvəl qeyd edilən cinayətkar dəstələr Ermənistan tərəfindən formalaşdırılmağa başlanmışdı. Prokuror bildirib ki, Azərbaycan Respublikasının ərazilərinin Ermənistan tərəfindən işğalı danılmaz həqiqət olmaqla məhkəmə iclasında təqdim edilmiş çoxsaylı sübutlar təsdiq edilsə də, bu fakt onun formalaşdırdığı cinayətkar birliyin əsas fiqurlarından olan hazırkı təqsirləndirilən şəxslərin məsuliyyətini azaltmır, onları məsuliyyətdən azad etmir.

Dövlət ittihamçısı vurğulayıb ki, bütün hüquqi gerçəkliklərə bələd olmalarına baxmayaraq, hazırkı təqsirləndirilən şəxslər cinayətkar birliyin qeyd edilən vahid məqsədlərinə (Azərbaycanın vaxtilə işğal edilmiş ərazilərinin Ermənistana birləşdirilməsinə - red.) çatmaq uğrunda öz üzərlərinə götürdükləri "funksiyalarını" icra ediblər.

V.Əliyev daha sonra deyib: "Davit Allahverdiyan, David Babayan və digər təqsirləndirilən şəxslərin Birinci Qarabağ müharibəsi dövründə yaşlarının az olması ilə bağlı və sair fikirlər səsləndirilsə də, nəzərə alınmalıdır ki, qeyd olunan dövrə dair həmin şəxslərə ittiham elan edilməyib".



Sonra təqsirləndirilən şəxslərin müdafiəçilərinin çıxışları dinlənilib. Təqsirləndirilən şəxslər isə üstlərində silah gəzdirsələr də, cinayət törətmədiklərini və özlərini təqsirli hesab etmədiklərini bildiriblər.

Məhkəmə prosesi dekabrın 19-da davam etdiriləcək.

***XQ***

# Heydər Əliyev: Liderin zəka və qətiyyəti

**II MƏQALƏ**

## İdentikliyin sivilizasiya konteksti və realpolitika

Dövlət identikliyinin sivilizasiya fenomeni ilə sıx əlaqələndirilməsinin Cənubi Qafqaz tarixində çox əhəmiyyətli yenilik olduğunu dərindən anlamaq gərəkdir. Bu məqam Ulu öndərin, ümumiyyətlə, müasir dövlətçiliyə verdiyi əvəzsiz töhfədir. Onun iki mühüm aspektini vurğulamaq lazımdır.

Birinci aspekt müasir realpolitika kontekstində həqiqi sülhsevər dövlətin qurulması ilə bağlıdır. Bu o demək idi ki, Azərbaycan dövləti hər bir fəaliyyət istiqamətində qətiyyətlə sülhü qazanmaq xəttinə üstünlük verəcəkdir. 2020-ci il Vətən müharibəsindən sonrakı dönəm bu tezisi tam təsdiq etmişdir. Etiraf olunur ki, Azərbaycan hərbi meydandakı qələbəsi ilə sülhü qazanmışdır.

İkinci aspekt Heydər Əliyev konseptual yanaşmasını məharətlə xarici siyasətin bütün istiqamətləri üzrə əməkdaşlıqdan təhlükəsizliyə nail olmaq və sülhü qazanmaq məqsədinə xidmət etməyə yönəltməsi ilə bağlıdır. Bu məsələnin strateji mənasını aydınlaşdırmaq üçün bir faktı nümunə kimi gətirə bilərik. Biz Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü ildə dərc olunmuş çox dərin məzmunlu tədqiqata əsaslanan "Azərbaycanın Xəzər nefti" adlı əsərində yer almış faktlar və irəli sürülən fikirlərə müraciət edəcəyik. Onlar faktiki olaraq Ulu öndərin konseptual siyasi ideyalarını böyük məharətlə realpolitika çərçivəsində praktikaya tətbiqini çox gözəl aydınlaşdırırlar.

Prezident İlham Əliyev yazır ki, "Xəzər regionunun geosiyasi əhəmiyyəti onun kontinentlərin və sivilizasiyaların kəsişməsində yerləşməsi ilə müəyyən olunur". Bura həmçinin regionda olan karbohidrat ehtiyatlarının siyasi-strateji əhəmiyyəti daxildir. Təbii ki, Xəzərin geosiyasətinə vurğulanan təbii resursların istehsalı, istismarı və nəqli məsələləri də ciddi təsir edir.

Əsərdə vurğulanır ki, Ulu öndər Heydər Əliyev Xəzərin statusunu müəyyən etmək üçün onun beş ayrı sektora bölünməsi prinsipini təklif etmiş və bunu Rusiya ilə Qazaxıstan qəbul etmişdir. Öz mövqeyinin doğruluğuna tam əmin olan Ümummilli lider Xəzərlə bağlı mübahisələrin "formal olaraq başa çatmasını gözləmədən" çevik surətdə dənizin Azərbaycan sektorunda neft və qaz yataqlarının birgə istismarı ilə bağlı xüsusi Əmr imzalamışdlr. Buna ABŞ dərhal reaksiya vermişdir və Xəzəryanı dövlət rəhbərlərinin 1996-cı il 11-12 noyabr Aşqabat görüşündən sonra ABŞ Dövlət katibinin xüsusi nümayəndəsi Ceyms Kollinz Bakıya səfər edərək Amerikanın Azərbaycanın mövqeyini dəstəklədiyini və həmin məsələdə "uzunmüddətli strateji maraqları olduğunu" vurğuladı. 1997-ci ildə Rusiya, İran və Türkmənistan arasında imzalanan məlum Memorandum faktiki olaraq, dolayısı ilə Azərbaycanın Xəzərlə bağlı mövqeyini dəstəkləmək anlamına gəlirdi.

Ulu öndərin bu məharətli enerji diplomatiyasının uğuru həm region tarixində yenilik idi, həm də geosiyasi müstəvidə diplomatik nailiyyətlərin əsasını qoyurdu. Konkret ifadə etsək, Xəzər hövzəsinin geosiyasi tarixində yeni bir diplomatiya fenomeni meydana gəlmişdi. Onun konseptual və praktiki tərəfləri vəhdət halında idi. Bu vacib tezisin üzərində dayanaq.




## Enerji diplomatiyasının Heydər Əliyev nümunəsi

Xəzərin geosiyasi əhəmiyyəti fonunda Heydər Əliyevin atdığı addım müasir diplomatiyada faktiki yenilik idi. Hər şeydən öncə, Heydər Əliyev Xəzərin sivilizasiyalar arasında vacib geosiyasi birləşdirici məkan kimi tarixi roluna tam uyğun təşəbbüs göstərmişdir. Xəzərin onun əhatəsində olan 5 müstəqil dövlət arasında hüquqi və ədalətli bölünməsinin konseptual siyasi əsasını qoymuşdur. Buna görədir ki, bəlkə də məcburən Rusiya, Qazaxıstan, İran və Türkmənistan bundan açıq imtina edə bilməmişlər (sonrakı təcrübə göstərdi ki, onların bəziləri "sualtı maneələr" törətməyə çalışdılar).

Digər mühüm məqam Azərbaycan üçün çox mürəkkəb bir geosiyasi mərhələdə Heydər Əliyevin müstəqil addım atması ilə bağlıdır. Bu, Ulu öndərin 1994-cü il və 1995-ci illərdə BMT-də dövlət identikliyi ilə bağlı bəyan etdiyi prinsiplər üzrə fəaliyyət göstərdiyinin böyük təsdiqlərindən biri idi.

Təsəvvür edək: Xəzərin enerji resurslarının istehsalı, istismarı və nəqli ilə bağlı Rusiya və İran kimi böyük dövlətlərin aydın mövqeyi olmadığı şəraitdə müstəqil Azərbaycan hüquqi əsası olan konkret təklif irəli sürür və kimsədən soruşmadan dərhal onu reallaşdırmaq istiqamətində addım atır. Liderin bu qətiyyəti və müstəqil davranışı Qərbin diqqətini dərhal çəkir və bununla bütövlükdə Xəzər hövzəsi və Cənubi Qafqazın geosiyasi taleyi dəyişməyə başlayır.

Heydər Əliyev Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyi məsələsinin əhəmiyyətini qətiyyətlə enerji diplomatiyası istiqamətində məharətlə nümayiş etdirmişdir. 1997-ci ildə C.Kollinzin Bakıya səfəri ilə Heydər Əliyevin enerji diplomatiyasının konseptual prinsiplərinin praktiki tətbiqində yeni mərhələ başlamışdır. Bu tezis təsdiqini cəmi iki il sonra (1999-cu ildə) E.Şevardnadzenin bir etirafında tapmışdır.

## Şevardnadzenin tarixi etirafı

Prezident İlham Əliyev vurğuladığımız əsərində ATƏT-in İstanbul sammitində Gürcüstanın o dönəmdəki başçısı Eduard Şevardnadzenin bir sıra fikirlərini ifadə etmişdir. Orada E.Şevardnadze etiraf edir ki, 1999-cu il 18 noyabr tarixi qlobal layihələrin iştirakçısı olan müstəqil dövlətlər üçün tarixi gündür. KİV təmsilçiləri qarşısındakı çıxışı zamanı isə həmin layihələrin həyata keçməsində Heydər Əliyevin xidmətlərini xüsusi vurğulamışdır.

Gürcüstanın o illərdəki başçısı bəyan etmişdi ki, neftin Gürcüstan ərazisindən nəqli məsələsini Heydər Əliyev öz üzərinə götürdü və layihə iştirakçılarını onu qəbul etməyə "məcbur etdi".

Fikirlərinə E.Şevardnadze belə davam etmişdir: "Prezident Heydər Əliyev məqsədyönlü siyasəti həyata keçirmək üçün heyrətamiz qabiliyyətə malikdir, o cümlədən qonşu Gürcüstana qarşı bunu etmişdir. Mən onu böyük müttəfiqimiz kimi qəbul edirəm. O, düşünə bilən insandır. Siyasəti müasir mütərəqqi prinsiplərə əsaslanır və bunu Gürcüstan hər kəsdən daha çox hiss edir. Əgər Prezident Əliyev olmasaydı, bu marşrutlar Gürcüstandan keçməzdi".

Əslində E.Şevardnadzenin bu tarixi etirafının əsasında konkret faktlar dayanırdı. Belə ki, 1997-ci ildə Azərbaycan neftinin Qara dənizə çıxarılması üçün Bakı-Supsa marşrutu ilə nəqlinə dair Azərbaycanla Gürcüstan arasında saziş imzalanmışdır. 1999-cu ilin aprelində isə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verilmişdir. Nəzərə almaq lazımdır ki, Heydər Əliyev Gürcüstan istiqamətində siyasətini paralel olaraq Rusiya siyasəti ilə məntiqi bağlılıqda aparmışdır. 1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəqlinə dair Rusiya ilə Azərbaycan arasında hökumətlərarası saziş imzalanmışdır. Həmin xətt 1997-ci ilin oktyabrında istifadəyə verilmişdir. 1998-ci ildə isə Azərbaycan neftinin fəaliyyəti bərpa edilmiş Bakı-Novorossiysk kəməri ilə Qara dənizə nəql edilməsinə başlanılmışdır.

Əlbəttə, Gürcüstanla Rusiya istiqamətlərində enerji siyasətinin sinxron aparılması təsadüfi deyildi. Rusiyanın regiondakı proseslərə nə qədər həssas yanaşdığını Ulu öndər çox gözəl bilirdi. Buna görə də həm müstəqil siyasət yeridir, həm də Bakı ilə Tbilisini Moskvanın mümkün qəzəbindən qoruyurdu. Bu bağlılıqda Prezident İlham Əliyevin əsərində gəldiyi bir qənaət olduqca maraqlı və doğrudur. Dövlət başçısı yazır ki, "AMOKO"nun prezidenti Terri Adams bəyan etmişdi ki, "Rusiyanın özünün layihədə iştirakı yataqların istifadəsinin qanuniliyinin qarantıdır". Fikirlərinə bu kontekstdə davam edərək Azərbaycan lideri vurğulayır ki, "Rusiyanın Azərbaycan variantını qəbul etməsinin yekun etirafı 2001-ci ildə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2001-ci ildə Bakıya olan rəsmi səfərindən sonra baş verdi".

Beləliklə, 1996-2001-ci illər Xəzərin beynəlxalq əməkdaşlıq zonasına çevrilməsi baxımından çox mühüm bir mərhələ olmuşdur. Heydər Əliyevin müdrik siyasəti bunun reallaşmasında başlıca rol oynamışdır. Azərbaycanın Ümummilli lideri yüksək zəkası və qətiyyəti ilə region üçün tarixi töhfə vermişdir. Xəzər hövzəsi və Cənubi Qafqaz qlobal geosiyasətin təlatümlərinin davam etdiyi bir şəraitdə geniş əməkdaşlıq məkanına çevrilmişdir. Eyni zamanda, bu, ölkələrin milli təhlükəsizliyinin təmin edilməsi demək idi.

## Tarix və özünüdərk: milli birlikdən sivilizasion birliyə

Çox çətin vəziyyətdə müstəqilliyini qoruyan və yeni dövlət quran bir ölkə üçün geniş geosiyasi məkanda sivilizasiyaların birliyinə töhfə verən siyasət yürütməsi təsadüfi ola bilməzdi. Bizcə, ulu öndər Heydər Əliyev buna mükəmməl daxili həmrəylik mühiti yaratmaq əsasında nail olmuşdur. Siyasi baxımdan burada milli özünüdərk, milli identiklik və dövlət identikliyinin bir-birini tamamlaması aparıcı rol oynamışdır. Bu baxımdan Heydər Əliyevin müəyyən etdiyi yeni dövlət identikliyi xalq suverenliyinə və milli-mədəni keyfiyyətlərə əsaslanır.

Şübhəsiz ki, burada milliözşüur əsasında milli özünüdərkin rolu ayrıcadır. Milliözünüdərk XX əsrin son onilliyindən azərbaycançılıq məfkurəsi çərçivəsində baş verməkdədir. Cəmiyyətin bütövlüyü isə multikultural dəyərlərin vəhdəti əsasında reallaşır. Bunları diqqətə alaraq, Ümummilli liderin mövqeyinə milli özşüur və özünüdərk prizmasında nəzər salaq.

Heydər Əliyevin dövlətin identikliyində "hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu"nu önə çəkməsi tarixi, siyasi, geosiyasi ilə yanaşı, məfkurəvi xarakterli faktorlarla birbaşa bağlıdır. Azərbaycan dövlətçilik ənənəsində hüquqilik həmişə xüsusi yer tutmuşdur. Onun təməlini üç Qanun və ya hüquq təşkil etmişdir. Onlar Hökmdar Qanunu (Hüququ), Parlament Qanunu (və ya Divan Hüququ) və Yosun Qanunudur (və ya cəmiyyətin özünütəşkil Hüququ). Bu zaman cəmiyyətin özünütəşkilinin fəlsəfəsi əsas yer tutmuşdur. Onun sosial-mədəni təsir sərhədləri törə ilə müəyyən edilmişdir. Törənin isə əsas mahiyyəti mənəvi, əxlaqi, etik və hüquqi faktorların cəmiyyətin həyatında mütləq surətdə gözlənilməsindən ibarətdir

Bundan başqa, Azərbaycan dövlətçiliyi üçün mənəvi-əxlaqi, etik və hüquqi dəyərlər "ədalət" anlayışından kənar feili gücə malik deyildir. Yəni bütün hallarda Azərbaycan dövlətçiliyində tarixi ədalət əsas yerlərdən birini tutur. Buradan aydın olur ki, müasir Azərbaycanın dövlət identikliyində Ulu öndərin vurğuladığı "demokratiklik" və "sivilizasiyalıq" anlayışları da Azərbaycan cəmiyyətinin tarixən "hüquqilik" (və ya qanunçuluq) və "ədalətlilik" anlayışlarının fonunda konkret məzmun almışdır.

Həmin özəllik ümumi səviyyədə Heydər Əliyevin "Güclü Azərbaycan" konsepsiyasının məntiqi, məzmunu və strateji hədəfləri bağlılığında dəqiqliklə görünür. Çünki dövlətin güclü olmadığı yerdə qanunun aliliyi təmin oluna bilmir. Qanunun aliliyi olmayan ölkədə isə real demokratiya yoxdur. Deməli, Güclü Azərbaycan faktiki olaraq demokratik Azərbaycanın yaradılmasının hüquqi, siyasi, ideoloji və geosiyasi təməlini təşkil edir. Ulu öndərin 1994-cü il BMT Baş Məclisinin 49-cu sessiyasında ifadə etdiyi və bizim I məqalədə xüsusi təqdim etdiyimiz aşağıdakı tezisi dərin məqamların nəzərə alınmasından qaynaqlanır. Heydər Əliyev demişdi: "Məhz oz xüsusiyyətlərimizi başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq".

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Heydər Əliyev irsi davamlı inkişaf yoluna işıq saçır

*(əvvəli 8-ci səhifədə)*

Bu sənəd dünyanın bütün ölkələri üçün yeni bir çağırış idi: təhsil sistemlərini yeniləmək, dərs proqramlarını müasirləşdirmək və davamlı inkişafı bəşəriyyətin gündəlik davranış norması kimi formalaşdırmaq.

Beləliklə, davamlı inkişaf üzrə qlobal tədris onilliyi dünyada yeni bir mərhələnin – ekoloji mədəniyyətin, sosial məsuliyyətin və düzgün resurs idarəçiliyinin beynəlxalq sosial normalara çevrilməsinin başlanğıcı oldu.

Ulu öndər Heydər Əliyevin imzası ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Təhsil Strategiyası ölkəmizi bu sahədə dünyanın qabaqcıl təcrübəsindən xeyli irəli çıxaran addımların əsasını qoydu. Qlobal miqyasda davamlı inkişaf üzrə tədris onilliyi 2005-ci ildən başlanmışdısa, Azərbaycanda bu proses artıq dörd il öncə, 2001-ci ildə start götürmüşdü. Təhsil Nazirliyinin ümumtəhsil müəssisələrində "davamlı insan inkişafı" fənninin tədrisinə dair ilk əmri — № 964, 14 sentyabr 2001-ci il — məhz Heydər Əliyevin təhsilə yönəlmiş strateji baxışının nəticəsi idi. Bu, dünyada orta məktəblər üçün davamlı inkişaf mövzusunun ayrıca fənn kimi nəzərdə tutulduğu ilk nümunələrdən biri oldu.

Dünya üzrə bu sahədə ilk dərslik də Azərbaycanda işıq üzü gördü. Təhsil Nazirliyinin əmri (№ 688, 11 avqust 2003) əsasında nəşr edilmiş bu vəsait davamlı insan inkişafına dair sistemli biliklərin məktəb proqramına daxil edilməsinə xidmət edən mühüm addım idi. Azərbaycanın bu təşəbbüsü o qədər yenilikçi və qabaqcıl idi ki, 19 dekabr 2005-ci ildə BMT-nin Baş Qərargahında "innovativ ideya və fəaliyyət" kimi yüksək qiymətləndirildi və bu məlumat rəsmi kanallarla bütün dünyaya yayıldı.

Artıq 2006-cı ildən etibarən davamlı inkişafla bağlı biliklər ümumtəhsil məktəblərinin 9-cu siniflərində "İnsan və cəmiyyət" fənni çərçivəsində tədris olunmağa başladı. Beləliklə, Heydər Əliyev dünyada ilk dəfə olaraq davamlı inkişaf və insan inkişafına dair biliklərin orta məktəb səviyyəsində sistemli şəkildə tədris edilməsini təmin edən siyasi lider kimi tarixə düşdü. Bu addım Azərbaycanın ümumi təhsil sistemini müasir qlobal trendlərlə sinxronlaşdırmaqla yanaşı, ölkədə insan potensialına əsaslanan inkişaf modelinin qurulması üçün möhkəm baza formalaşdırdı.

Bu strateji təməl sonradan ali təhsil pilləsində də öz davamını tapdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə, BMT-nin Davamlı İnkişaf Məqsədlərini qəbul etməsindən bir neçə ay əvvəl — 2015-ci ilin iyununda — dünyada ilk dəfə "davamlı inkişaf" ixtisası ali təhsil səviyyəsində (bakalavr, magistratura və doktorantura) strukturlaşdırıldı. Bu qərar Azərbaycanı davamlı inkişaf sahəsində ixtisaslı mütəxəssislər hazırlayan qabaqcıl ölkələrdən birinə çevirdi. Hazırda da bu siyasətin ardı olaraq Azərbaycan Respublikası Elm və Təhsil



Nazirliyi tərəfindən 2025-ci ildə davamlı inkişafa dair ali məktəblər üçün yəni tədris proqramı və dərslik təsdiq edilməkdədir.

Davamlı inkişaf biliklərinin tədris prosesinə daxil edilməsi inklüziv cəmiyyətin formalaşmasına geniş imkanlar yaratdı. Bu istiqamətə xüsusi diqqət göstərən ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda inklüziv inkişaf mərkəzləri fəaliyyətə başladı. Elə dünyanın inklüziv inkişafın idarəedilməsinə həsr olunmuş ilk dərsliyinin də məhz Azərbaycanda nəşr olunması bu sahədə ölkəmizin aparıcı rolunun bariz nümunəsidir.

Beləliklə, Heydər Əliyevin uzaqgörən ideyaları və İlham Əliyevin müasir idarəçilik konsepsiyası nəticəsində Azərbaycan təkcə davamlı inkişafın reallaşdırılmasında deyil, həm də onun tədrisində qlobal lider ölkəyə çevrilmişdir.

Azərbaycanın ictimai və dövlət həyatında inklüziv cəmiyyətin formalaşması sahəsində atılan addımların arxasında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri dayanır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə iqtisadi nailiyyətlərin sosial və humanitar uğurlara çevrilməsi, inklüziv təhsil və inklüziv sağlamlıq sahələrinin təşkili, həmçinin bütün cəmiyyətin inklüziv inkişafına yönəlmiş layihələrin icrası bu institutun fəaliyyətinin başlıca prioritetləridir.

Bütün bu keyfiyyətlər və prinsiplər Azərbaycanın inkişaf modelinin əsas sütunlarını təşkil edir. Bu düsturlar sayəsində ölkəmiz qlobal çağırışlara cavab verən, inklüziv və davamlı inkişafı reallaşdıran nümunəvi dövlətə çevrilmişdir.

Beləliklə, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti, Prezident İlham Əliyevin strateji idarəçiliyi və Mehriban xanım Əliyevanın humanitar təşəbbüsləri Azərbaycanın uğur hekayəsini təkcə iqtisadi inkişafla məhdudlaşdırmayıb, eyni zamanda, davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşmasını təmin etmişdir. Bu birlikdə qurulmuş inkişaf modeli göstərir ki, güclü liderlik, strateji düşüncə və insan potensialına verilən yüksək dəyər hər bir ölkənin gələcəyini təmin edə bilər. Azərbaycan isə bu yolu seçərək, həm öz vətəndaşları üçün rifahı, həm də dünya üçün nümunəvi idarəçilik standartlarını ortaya qoymuşdur.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Heydər Əliyevin ümummilli liderlik salnaməsi



(əvvəli qəzetin ötən saylarında)

### 8. Qayıdışdan qurtuluşa (Naxçıvan, 1990–1993)

Heydər Əliyev Moskvadan Azərbaycana dönüşü ilə keçmiş respublika rəhbərlərinə, bir sözlə, dövlətin və xalqın taleyinə cavabdeh olan şəxslərə tarixi bir nümunə göstərdi. Azərbaycana son dövrlərdə rəhbərlik etmiş Ə.Vəzirov və A.Mütəllibov vəziyyət gərginləşən kimi, xalq və dövlət qarşısında məsuliyyətini bir kənara qoyaraq Moskvaya qaçdılar. Heydər Əliyev isə bütün təqiblərin, çətinliklərin fərqinə varmadan Moskvadan Vətənə – Azərbaycana döndü.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın ovaxtkı rəhbərliyi Heydər Əliyevin Bakıya dönüşünə maneçilik törətməyə başladı. A.Mütəllibov Heydər Əliyevə xəbər göndərərək bildirmişdi ki, guya onun gəlişi ilə Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər. Hətta xalq içərisinə qorxu salmaq üçün sui-qəsdə də əl atıldı. 1990-cı il mayın 30-da Azərbaycanın tanınmış naşirlərindən Əjdər Xanbabayev öldürüldü...

Bütün bunlar Heydər Əliyevin Bakıya dönüşünün qarşısını ala bilmədi. O, iyulun 20-də təyyarə ilə Bakıya qayıtdı. Heydər Əliyevin qayıdışına mane ola bilməyən rəsmi dairələr çirkin əməllərini davam etdirdilər. Hava limanında piket təşkil edilməsinə, onun yenidən geri dönməsinə nail olmağa cəhd edildi. Heydər Əliyev bu sınaqdan da çıxdı. Xalq onun qayıdışını böyük rəğbətlə qarşıladı. Həmin günlərdə şəhərə çıxan Heydər Əliyevin ətrafına xeyli insan toplaşırdı.

Heydər Əliyev yenə də dövlətçilik mənafeyini, Azərbaycanın milli maraqlarını yüksək tutaraq, Bakıda onsuz da mürəkkəb olan vəziyyətin daha da ağırlaşmasına yol verməmək naminə Naxçıvana getdi.

Həmin vaxt – iyulun 22-də Naxçıvanın mərkəzi meydanında Heydər Əliyevlə görüşdə 80 mindən çox adam iştirak etmiş, bununla xalq öz qəhrəman oğluna etimadını göstərmişdi.

Sentyabrın 30-da Azərbaycan SSR xalq deputatları və yerli xalq deputatları sovetlərinə keçirilən seçkilər zamanı Heydər Əliyev həm Azərbaycan, həm də muxtar respublika Ali Sovetinə deputat seçildi.

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Soveti işə başlayarkən Heydər Əliyev sessiyanın sədri seçildi. Sessiyada muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Dövlət bayrağı kimi qəbul edilməsi, Ali Sovetin Ali Məclis adlandırılması qərara alındı. Noyabrın 21-də keçirilən iclasda isə onun təşəbbüsü ilə 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Beləliklə, qarşıdan gələn Azərbaycan SSR Ali Sovetinin sessiyasına fəaliyyət istiqamətləri barədə nümunə verildi.

1991-ci il fevralın 5-də Bakıda Azərbaycan SSR Ali Sovetinin sessiyası işə başladı. Bütün müqavimətə və əngəllərə baxmayaraq, Heydər Əliyev həmin sessiyada dərin məzmunlu, geniş təhlilə əsaslanan, mövcud problemlərin həlli yollarını göstərən bir çıxış etdi. Heydər Əliyev Ali Sovetin martın 7-də İttifaq referendumunda respublikanın iştirakı məsələsinin müzakirə edildiyi sessiyada yenə də öz sözünü dedi: "Bizim xalqımız üçün 70 illik imtahan bəsdir. Yeni bir ittifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirəm".

Heydər Əliyev qətiyyətli addımlarının davamı kimi iyulun 19-da Sov. İKP sıralarından çıxdığını bəyan etdi. Böyük siyasi liderin tarixi görmək, hadisələri vaxtından əvvəl qabaqlamaq məharəti özünü bir daha təsdiqlədi. Avqust ayında Moskvada baş verən dövlət çevrilişindən sonra, İttifaq müqaviləsinin bağlanması iflasa uğradı. Azərbaycan Respublikası Ali Sovetinin sessiyası avqustun 30-da dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi. Sentyabr ayında isə Azərbaycan Kommunist Partiyası buraxıldı. Heydər Əliyevin günbəgün artan nüfuzu 1991-ci il sentyabrın 4-də onun Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi ilə başa çatdı.

Böyük dövlətçilik təcrübəsinə, güclü iradəyə və Azərbaycanın gələcəyi naminə xoş mərama malik olan Heydər Əliyevin Naxçıvanın rəhbəri seçilməsi böyük tarixi əhəmiyyəti olan hadisə idi. Onun səyi nəticəsində Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəyə önəmli töhfə verildi. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edildi. Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi dövlət həyatının bütün sahələrinə dair yeni qərarlar qəbul etməyə başladı.

Naxçıvan MR Ali Məclisi 1991-ci il 16 dekabr tarixli qərarı ilə 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi elan etdi. Heydər Əliyev xarici dövlətlərin səfirlikləri ilə əməkdaşlığa da üstün yer verirdi. Dekabrın 27-də ABŞ-ın Moskvadakı səfirliyinin nümayəndələri Naxçıvanda oldular.

Heydər Əliyevin artan nüfuzu Bakıda qısqanclıqla qarşılanır, ona qarşı qeyri-obyektiv kampaniyalarla müşayiət edilirdi. İş o yerə çatmışdı ki, Naxçıvan Ali Məclisi sədrinin Azərbaycan Ali Soveti sədrinin müavini olmasına dair müddəaya əməl edilmirdi. 1992-ci ilin fevralında ermənilərin törətdikləri Xocalı soyqırımı bütün Azərbaycanı sarsıtdı. Müasir dünyada həyata keçirilməsi üsullarına görə görünməmiş bir soyqırımı aktı olan Xocalı faciəsi Azərbaycan xalqının mənəviyyatına ağır zərbə vurdu. Bu cür faciəli günlərdə belə xalqı müdafiə etməyə, qətiyyətli sözünü deməyə qadir olmayan A.Mütəllibov etiraz dalğasında hakimiyyətdən uzaqlaşdırıldı.

1992-ci il mayın ortalarında baş verən yeni hakimiyyət dəyişikliyi zamanı da Heydər Əliyevin Bakıya dəvət edilməsi yenidən gündəliyə gəldi. Lakin AXC-Müsavat birliyi buna yol vermədi. 1992-ci il iyunun 7-də keçirilən seçkidə Əbülfəz Əliyev (Elçibəy) prezident seçildi. Bu zaman Heydər Əliyev Naxçıvanın erməni təcavüzündən müdafiəsi və onun blokadadan çıxarılması üçün fəal siyasət aparırdı. Mayın 18-də ermənilər Sədərəyə hücum etdilər. Heydər Əliyev məsələni Ali Məclisdə müzakirə edərək təxirəsalınmaz tədbirlər həyata keçirdi.

Düşmənin hücumunun qarşısının alınması üçün dərhal hərbi müqavimət təşkil olundu. Baş verən hadisələrə diqqəti artırmaq üçün dünya ictimaiyyətinə müraciət edildi. Bunun nəticəsi idi ki, mayın 22-də 57 dövlət rəsmi surətdə Ermənistanın Sədərəyə təcavüzünü pisləyən bəyanat verdi. Belə bir şəraitdə Heydər Əliyev Naxçıvanla Türkiyə arasında münasibətlərin yeni səviyyəyə qaldırılmasına xüsusi diqqət yetirirdi.

Mayın 24-də Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında Ankarada yardım haqqında müqavilə imzalandı. Mayın 28-də isə Naxçıvanla Türkiyə arasında "Ümid" körpüsünün açılışı oldu. Heydər Əliyev körpünün açılış mərasimindəki çıxışında dedi: "Bu, həqiqətən bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərə açmağa kömək edəcəkdir".

Heydər Əliyev İranla da mehriban qonşuluq münasibətləri yaratmağa nail oldu. Avqustun 24-də Tehranda İranla Naxçıvan arasında müqavilə imzalandı. Azərbaycanın istiqlaliyyətinin təmin edilməsində Heydər Əliyevin rolu günbəgün artmağa başladı. 1992-ci il oktyabrın 16-da bir qrup ziyalı Heydər Əliyevə müraciət etdi. Müraciətdə Heydər Əliyevin yeni siyasi partiyaya rəhbərlik etməsi, vəziyyətdən çıxmaq üçün yollar axtarışı xahiş olunurdu.

Oktyabrın 24-də Heydər Əliyev onlara cavab verdi. Heydər Əliyevin məktubunda deyilirdi: "Hörmətli ziyalılar... Sizin müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdir".

Heydər Əliyev mövcud vəziyyəti hərtərəfli təhlil etməklə bərabər, çıxış yolları üzərində də dayanırdı. Yaradılacaq Yeni Azərbaycan Partiyasının işində fəal iştirak etməyə hazır olduğunu bildirirdi. Əvvəlki hakimiyyət kimi, AXC-Müsavat cütlüyü də Heydər Əliyevin nüfuzu ilə barışmaq istəmirdi. Ona görə də Heydər Əliyevə qarşı pozuculuq əməlləri təşkil olunurdu. AXC-Müsavat iqtidarı belə gərgin günlərdə Naxçıvanda hər vasitə ilə hakimiyyəti gücləndirmək əvəzinə, Naxçıvanın muxtariyyətinin ləğvinə cəhd etmişdi.

Naxçıvanın muxtariyyəti isə böyük tarixi nailiyyət idi. Heydər Əliyev məhz Naxçıvanın muxtar statusundan istifadə edərək, mühüm tarixi qərarlara imza atmış, ən əsası, onu Ermənistanın təcavüzündən xilas etmişdi.

Prezident Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" 1999-cu il 4 fevral tarixli fərmanında deyilirdi: "XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəldilər... Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı".



Bu məkrli planla birgə açıq düşmənçilik aktlarına da əl atılmışdı. 1992-ci il oktyabrın 24-də AXC Naxçıvan şöbəsi və Ordubad rayon polisi tərəfindən dövlət çevrilişinə cəhd edildi. Heydər Əliyevin çevriliş cəhdinin qarşısını almaq üçün prezident Ə.Elçibəylə doqquz dəfə telefon əlaqəsi saxlaması belə heç bir nəticə vermədi. Yalnız Heydər Əliyevin dövlətçilik təcrübəsi bu cəhdin qarşısını almağa imkan verdi. Oktyabrın 25-də o, radio ilə xalqa müraciət etdi. Heydər Əliyevin çağırışı ilə 15 mindən çox adam dövlətçiliyin müdafiəsinə qoşuldu, çevrilişə cəhd edənlərin səyi puça çıxdı.

Naxçıvan MR Ali Məclisinin oktyabrın 25-də keçirilən fövqəladə sessiyasında baş verənlər dövlət çevrilişi kimi qiymətləndirildi. Artıq oktyabrın 27-də keçirilən mitinq çevrilişin iflasa uğradığını açıq göstərdi. Noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Heydər Əliyev konfransdan sonra demişdir: "Respublika ziyalılarının, geniş xalq kütləsinin təklif və istəyi ilə mən bu partiyanın sədri olmağa razılıq verdim. Partiyanın siyasi məqsədi Azərbaycanın müstəqilliyini möhkəmlətmək, demokratiyanın, aşkarlığın inkişafına təkan verməkdir".

Rəsmi Bakı isə dövlətin daxili və xarici siyasətində əsaslı dəyişiklik yarada bilmədi. Ermənistanın təcavüzü isə getdikcə artırdı. 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. Hakimiyyətin daxili siyasi böhranı güclənməyə başladı.

### 9. Azərbaycana ikinci dəfə rəhbərlik (Bakı, 1993–2003)

Ulu öndər Heydər Əliyev böyük dövlətçilik təcrübəsini müstəqillik dövrünün yeni tələbləri ilə zənginləşdirməyə, Naxçıvanın tarixi inkişafında əvəzedilməz bir səhifə yazmağa nail oldu. Azərbaycan Respublikasının paytaxtında isə siyasi böhran dərinləşməkdə davam edirdi. Vətəndaş müharibəsi vəziyyəti yaranmışdı. Gəncədə bir qrup zabit "hərbi birlik" yaratmışdı, 709 saylı hərbi hissə isə Müdafiə Nazirliyinə tabe olmurdu. Cənub və şimal bölgələrində xalqa zidd separatçı qüvvələr fəallaşmışdılar.

İqtidarın yaranmış vəziyyətdən çıxış üçün aydın fəaliyyət planı yox idi. 1993-cü il iyunun 4-də Gəncəyə hərbi texnika yeridilməsi vəziyyəti daha da gərginləşdirdi. Hökumət qüvvələri məğlub oldu. Qiyamçı hərbi hissələr siyasi tələblərlə Bakı üzərinə yönəldi. AXC-Müsavat iqtidarı ölkədə baş verən təhlükəli proseslərin (vətəndaş müharibəsi, yeni separatizm cəhdləri və s.) qarşısında aciz qalıb, kömək üçün Heydər Əliyevə müraciət etdi.

Heydər Əliyev Azərbaycanın gələcəyi naminə, xalqın təkidli tələbi ilə iyunun 9-da Bakıya gəldi və fəal iş aparmağa başladı. İlk növbədə, vəziyyətlə yerində tanış olmaq üçün Gəncəyə yola düşdü. Bütün imkanlarından istifadə edərək silahlı qarşıdurmanın kəskinləşməsinin qarşısını aldı. Parlamentin sədri, baş nazir, güc nazirliklərinin başçıları istefa verməklə məsuliyyətdən yaxa qurtarmağa cəhd edirdilər. Bu ağır anda bütün nəzərlər Heydər Əliyevə dikilmişdi.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu hadisənin əhəmiyyətini nəzərə alan Azərbaycan parlamenti 1997-ci il iyunun 27-də həmin günü Milli Qurtuluş Günü elan etdi.

Ölkəni bir tərəfdən erməni təcavüzü, digər tərəfdən səriştəsiz idarəçilik nəticəsində düçar olduğu ağır vəziyyətdən çıxarmaq üçün hələ xeyli iş görmək lazım idi. 1993-cü il iyunun 17-dən 18-nə keçən gecə prezident Əbülfəz Elçibəyin Bakını tərk edərək Naxçıvana, Kələki kəndinə getməsi paytaxtda vəziyyəti daha da dramatikləşdirdi. Elçibəyin geriyə qayıtması sahəsində görülən tədbirlər heç bir nəticə vermədikdə, Ali Sovetin iyulun 15-16-da keçirilən iclaslarında prezidentə etimadsızlıq məsələsi qaldırıldı.

Belə bir şəraitdə Elçibəy səlahiyyətlərinin bir hissəsinin Ali Sovetin sədrinə verilməsi haqqında fərman imzaladı. Bunun vəziyyətdən çıxış yolu olmadığını nəzərə alan Ali Sovet bütün prezident səlahiyyətlərinin parlament sədrinə verilməsi haqqında qərar qəbul etdi. Heydər Əliyev prezident səlahiyyətlərini də öz üzərinə götürdü. Hakimiyyət məsələsinin hüquqi yol ilə həlli xətti davam etdirildi. İyulun 29-da Elçibəyə etimad referendumu keçirilməsi qərara alındı.

Avqustun 29-da keçirilən referendumda xalq Elçibəyə etimadsızlıq göstərdi. Oktyabrın 3-də keçirilən yeni seçkilərdə isə Heydər Əliyev səslərin böyük əksəriyyətini toplayaraq prezident seçildi. Oktyabrın 10-da andiçmə mərasimi keçirildi.

Bütün bu dövr ərzində ölkədə vəziyyətin sabitləşməsinə mane olan qüvvələr hər cür pozuculuq fəaliyyətini davam etdirirdi. Orduda başıpozuqluq, hakimiyyət naminə satqınlıq və özbaşınalıq davam edirdi. Bunun nəticəsi idi ki, 1992-ci il iyulun 23-də Ağdam, avqustun 25-də Cəbrayıl və Füzuli, 31-də Qubadlı, oktyabrın 27-də Zəngilan Ermənistan tərəfindən işğal edildi.

Bu cür çətin şəraitdə fəaliyyət göstərən Heydər Əliyev Azərbaycana ikinci rəhbərliyinin ilk günlərindən dövlət həyatının bütün sahələri üzrə fəal və düşünülmüş siyasət yeritməyə başladı.

Dövrün tələbinə görə dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, qanunçuluğun bərpa edilməsi, demokratik və hüquqi dövlət quruculuğu xüsusi əhəmiyyət kəsb edirdi. Bu sahədə həyata keçirilən tədbirlər böyük müqavimətlə qarşılaşırdı. Bu müqavimət güclənərək dövlət çevrilişi cəhdinə çevrilmişdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş qüvvələr fəallaşdılar.

Sentyabrın 29-da Azərbaycan Respublikası Milli Məclis sədrinin müavini A.Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Ş.Rəhimov qətlə yetirildilər. Heydər Əliyevin fiziki cəhətdən məhv edilməsi planı hazırlanmışdı. Oktyabrın 3-4-də Baş nazir S.Hüseynovun rəhbərliyi ilə dövlət çevrilişinin həyata keçirilməsinə başlanmışdı.

Heydər Əliyev oktyabrın 4-də televiziya ilə xalqa müraciət etdi. Oktyabrın 4-dən 5-nə keçən gecə onun çağırışı ilə Prezident Aparatı qarşısına minlərlə adam toplaşdı. Beləliklə, dövlət çevrilişi cəhdinin qarşısı alındı. Oktyabrın 5-də Azadlıq meydanında ümumrespublika mitinqi keçirildi. Heydər Əliyev mitinqdə çıxış edərək baş verən hadisələrin səbəblərini, gedişini, qarşısının alınması yolunda görülmüş bütün işləri ətraflı təhlil etdi.

Heydər Əliyev mitinqdəki çıxışında dedi: "Son günlərdə baş vermiş hadisələr Azərbaycanın müstəqilliyini puça çıxarmağa, onu müstəqillik yolundan döndərməyə, bu yolla irəliləyişinin qarşısını almağa, ölkəmizin daxili ictimai-siyasi sabitliyini pozmağa yönəldilmiş əməllərdir. Onu da bilin ki, bu hadisələr, ümumiyyətlə, Azərbaycanı dağıtmaq, parçalamaq, ölkəmizi bir dövlət kimi məhv etmək üçün qurulan planların bir hissəsidir. Qoy, hamı bilsin və əmin olsun ki, bu bəd niyyətlərin və bu çirkin planların heç birisi həyata keçməyəcəkdir! Azərbaycan xalqı buna yol verməyəcəkdir! Azərbaycan müstəqil bir dövlət kimi yaşayacaqdır".

1995-ci il martın 13-17-də yeni, ikinci dövlət çevrilişi cəhdi baş verdi. Çevrilişdə əsas rolu, Cavadov qardaşları başda olmaqla, Xüsusi Təyinatlı Polis Dəstəsi oynayırdı. Heydər Əliyevin dövlət çevrilişi cəhdinin qarşısını sülh yolu ilə almaq cəhdi onların günahı üzündən baş tutmadı. Qətiyyətli tədbirlərə əl atıldı və martın 17-də dövlət çevrilişi cəhdi aradan qaldırıldı. Azərbaycanı müstəqil dövlət quruculuğu yolundan döndərmək mümkün olmadı. Dövlət çevrilişi tərəfdarları bir daha baş qaldıra bilmədi.

Azərbaycanda yeni Konstitusiyanın hazırlanması, qəbul edilməsi, konstitusion quruluşun yaradılması böyük uğur idi. Heydər Əliyevədək müstəqil dövlətin Konstitusiyasının hazırlanması sahəsində ciddi bir iş görülməmişdi. 1995-ci ilin iyulunda Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildikdən sonra işlər fəallaşdı. Heydər Əliyevin rəhbərliyi və əsas ideyaları ilə hazırlanmış Konstitusiya noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olundu.

Heydər Əliyev bununla kifayətlənməmiş, Konstitusiyanın həyatiliyini təmin etmək üçün onun təkmilləşdirilməsi fəaliyyətini davam etdirmişdir. O, 2002-ci ildə Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi haqqında qərar qəbul etmiş, avqust ayında bu məsələlər üzrə referendum keçirilmişdir.

Azərbaycanda hüquqi dövlət quruculuğu prosesində 1998-ci il dekabrın 29-da yaradılmış hüquqi islahat komissiyası da böyük iş görmüşdü. Heydər Əliyev yalnız qanunlar qəbul edilməsinə deyil, onların həyata keçirilməsinə də xüsusi qayğı göstərirdi. 1998-ci ildə respublikada ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradılmışdır. "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmiş və reallaşdırılmağa başlamışdır.

Azərbaycan dövlətçiliyinin inkişafında bələdiyyələr haqqında qanun qəbul edilməsi və bələdiyyə institutunun fəaliyyətə başlaması da yeni hadisə idi. 1999-cu il dekabrın 12-də bələdiyyələrə ilk seçki keçirilmiş, 23 min şəxs bələdiyyə üzvü olmuşdur. 2002-ci il iyulun 2-də Heydər Əliyevin təqdimatı ilə Milli Məclis İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) seçmişdi. Azərbaycan Respublikasının beynəlxalq konvensiyalara qoşulması, yerli hüquqi sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması da mühüm əhəmiyyət kəsb etmişdir.

Heydər Əliyev iqtisadi siyasətin hazırlanıb həyata keçirilməsinə, iqtisadiyyatın dinamik inkişafına da daim qayğı göstərmişdir. Burada Heydər Əliyevin neft strategiyası başlıca yer tutur. Onun əsasını 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" təşkil edirdi. Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində respublikada neft çıxarılması artmağa başladı. Neft hasilatı 1993-cü ildəki 10,3 milyon tondan artaraq 2003-cü ildə 15,3 milyon ton olmuşdur.

Neft strategiyasının əsas tərkib hissələrindən biri də onun dünya bazarlarına çıxarılması idi. 1999-cu il aprelin 17-də Bakı-Supsa neft kəməri istifadəyə verildi. Noyabrın 18-də isə ATƏT-in İstanbul sammitində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəməri ilə nəql edilməsinə dair saziş imzalandı. 2006-cı ilin yayında fəaliyyətə başlayan həmin kəmərə Heydər Əliyevin adı verilmişdir.

Neft Azərbaycan xalqının təbii sərvətidir. Ona görə də neftdən əldə olunan gəlir Azərbaycan xalqı və dövlətinin tərəqqisinə xidmət etməlidir. Bunu nəzərə alan Heydər Əliyev 1999-cu il dekabrın 29-da Dövlət Neft Fondunun yaradılması haqqında fərman imzalamışdır. Heydər Əliyev deyirdi: "Dövlət Neft Fondunun yaradılması Azərbaycan dövlətinin 1994-cü ildən həyata keçirdiyi neft strategiyası nəticəsində mümkün olmuşdur. Biz Azərbaycanda neft strategiyasını hazırlayıb həyata keçirməyə başlayarkən qarşımıza əsas bir böyük məqsəd və vəzifə qoymuşuq: Azərbaycanın zəngin təbii sərvətləri olan neft va qaz yataqlarının xarici şirkətlərlə, onların investisiyalarının cəlb olunması vasitəsilə müştərək işlənilməsini təşkil etmək, bunun nəticəsində zəngin yataqlarımızdan neft və qaz hasilatını təşkil etmək və təbiidir ki, bunların hamısını Azərbaycanın milli mənafelərinin təmin olunmasına yönəltmək. Yəni bütün bu strategiya yalnız və yalnız Azərbaycanın milli mənafeləri üçün həm işlənib hazırlanıb, həm də həyata keçirilir".

**(ardı var)**

*Kərim ŞÜKÜROV,*
*AMEA Tarix və Etnologiya İnstitutunun direktoru,*
*tarix elmləri doktoru, professor*

# Heydər Əliyevin milli-mənəvi bütövlük konsepsiyası

**“Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”. Ümummilli lider Heydər Əliyevin dillər əzbəri olan bu kəlamı artıq 50 milyonluq Azərbaycan xalqının yurd sevgisinin parlaq və ən tutumlu ifadəsinə çevrilib.**

Dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi Heydər Əliyevin tariximizin bütün mərhələsində atdığı addımlar taleyüklü məsələləri ehtiva edir. O, hər zaman, hər dövrdə gördüyü işlərə xalqın milli dəyərlərinin dirçəlişindən başladı və bu istiqamətdə seçdiyi hədəflər, ünvanlar dəqiq, çəkili və sərrast oldu. Ulu sənət abidələri, böyük söz ustadları, zəngin ədəbi məxəzlər... Onun sovet epoxasının hakimi-mütləq olduğu bir dönəmdə hədəflədiyi böyük amallardan biri - Bütöv Azərbaycanın gələcək əsaslarını yaratmaq, onun məfkurəvi təməllərini qurmaq missiyasının da əsasında, ilk növbədə, bu arzusunun bir zaman gerçəkləşəcəyinə inam hissi dayanırdı.

Bütöv, yekparə Azərbaycan anlayışının özünü bərpa etmək, ərazi birliyindən də əvvəl, mədəni və mənəvi vəhdətə nail olmaq! Heydər Əliyevin Cənubi Azərbaycan mövzusuna həssaslığının mayası bu amaldan nəşət tapırdı.

Heydər Əliyevin SSRİ dövründə təhlükəsizlik orqanlarında çalışan zaman Cənubi Azərbaycanda milli azadlıq hərəkatının genişlənməsi istiqamətində və onda milli qüvvələrlə birgə işi barədə məlumat o qədər də geniş yayılmamışdır. Buna baxmayaraq, 1944-1945-ci illərdə Cənubi Azərbaycanda baş verən milli azadlıq hərəkatında, siyasi və ictimai təşkilatların yaradılmasında, müstəqillik ideyalarının formalaşmasında bu zaman artıq dövlət təhlükəsizliyi sahəsində çalışan gənc Heydər Əliyevin iştirakı bioqrafları tərəfindən qeyd olunur.

Maraqlıdır ki, Heydər Əliyev haqqında ilk şeiri də cənublu şair Bulud Qaraçöplu Səhənd yazmışdır. Marağalı şair Bulud Qaraçorlu Səhəndin (1927-1979) 1974-cü ildə Heydər Əliyevə ünvanladığı “Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə” adlanan şeir məktub formasında yazılıb:

***Mən istərdim doğma bir qardaş kimi***
***Oturub, əyləşib danışam Sənlə***
***Bir məsləkdaş kimi, bir yoldaş kimi***
***Söz-söhbət açaydım ana Vətəndən.***

1970-ci illərin ortalarında yazılan bu məktub-şeir cənublu şairin Heydər Əliyevin şəxsində öz məsləkdaşını görməsi ilə əlaqədar idi. Ən azı məlum idi ki, Heydər Əliyev sovet vətəndaşı olmaqdan çox, bir azərbaycanlı olaraq fəaliyyət göstərirdi. Bu istiqamətdə onun fəaliyyətinin əsasını Cənubda yaşayan azərbaycanlıların milli kimlik şüurunu oyatmaq, Cənubi Azərbaycanın problemlərinə nüfuz etmək, ana dilində dərsliklər nəşr etmək, Azərbaycan dilində qəzetlər çap etmək, milli dildə şeirlər və əsərlər yazan yerli ziyalıları dəstəkləmək və s. məsələlər təşkil edirdi.





Filologiya üzrə fəlsəfə doktoru Azər Turan “Heydər Əliyev barədə yazılmış ilk mətn - Cənubi Azərbaycanın böyük şairi Bulud Qaraçorlu Səhəndin “Elimin dayağı, yurdumun fəxri” şeiri” məqaləsində yazır: “Nə baş verirdi ki, hələ panfarsist ideyaların tüğyan etdiyi, Rza şahın Azərbaycan türklərini ən adi milli hüquqlardan məhrum etdiyi dövrdə, yaxud Xəlil Rza Ulutürkün təbirincə, “qocalmış, əprimiş fars millətini gəncləşdirmək, diriltmək üçün əlac axtaran paniranistlər yeganə çarəni Azərbaycan türklərini farslaşdırmaqda gördükləri” 1970-ci illərdə Səhənd Heydər Əliyevə şeir yazırdı və şeirində Əliyevi təkcə Bakının deyil, Təbrizin də, yəni bütöv Azərbaycanın dayağı adlandırırdı?

“Elimin dayağı, yurdumun fəxri” şeirinin özəllikləri çoxdur. Ən başlıcası isə budur ki, bu şeir dediyim kimi, ümumiyyətlə, Heydər Əliyevə həsr olunmuş ilk şeirdir. Digər tərəfdən, şeirin müəllifi Cənubi Azərbaycanın böyük şairi Bulud Qaraçorlu Səhənddir. Üçüncüsü, Ümumazərbaycan kontekstində bu şeir Heydər Əliyevlə bağlı Ümummilli lider anlayışını irəli sürən ilk ədəbi mətndir:

***Bu gün millətimin dayağı Sənsən,***
***Elimin çörəyi halalın olsun!***
***Dünyalar durduqca əsən dur, əsən!***
***Sənə göz dikmişdir bütün Vətənin!***

Səhənd Heydər Əliyevin yanına ağrılarından bəhs etmək, danışmaq, dərdləşmək üçün gəlirdi:

***Dağlar boyda ağır dərdi özümnən,***
***Təbrizdən Bakıya daşıdım ancaq...***

Heydər Əliyev, görünür, o zaman yalnız bu taydakı azərbaycanlıların deyil, o taydakı həmvətənlərimizin də pasibanı, himayəçisi, ümid yeri idi. Və təkcə ümid yerimi? Yeri gələndə mücadilə etməkdən çəkinməyən qorxmaz, fədakar vətən övladı!

Azər Turanın adıkeçən məqaləsində Heydər Əliyevin xidmətləri sırasında cənubdan olan digər şair Məhəmməd Biriya ilə bağlı çox nadir və maraqlı olan fakta da vurğu edilir: “Film kimi bir həyat yaşamış, nazirdən mürdəşirə qədər ömür yolu keçib sonunda Təbrizdə kimsəsizlər evində dünyasını dəyişən cənublu şair Məhəmməd Biriya barədə yazılan tədqiqatlarda onun taleyi ilə bağlı mühüm bir məqam hər dəfə pərdə arxasında qalır. Məhəmməd Biriya ilə bağlı Heydər Əliyevin fəaliyyəti”!

Çıxışlarının birində Heydər Əliyev həmvətəni olan Biriya haqqında düşüncələrini belə bölüşürdü: “Cənubi Azərbaycanın böyük bir şairi var idi – Məhəmməd Biriya. Cənubi Azərbaycan hərəkatı zamanı nazir olmuşdu. Sonra Azərbaycana gəlmişdi. Təəssüf ki, 1949-50-ci illərdə Rusiyanın Saransk şəhərində düşərgədə cəza çəkirdi, onu həbs etmişdilər. Mən Respublika Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən 1958-ci ildə şəxsən Saranska getdim, Biriya ilə görüşdüm, onu Bakıya gətirdim. Çox böyük şair idi”.

Deməli, Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən Rusiyadan – Saransk həbsxanasından “Arama qəbrimi, axtarma mənim başdaşımı, Rəsimdə Həzrəti Nuh, ismdə xatəm də mənəm” deyən yazıq Biriyanı vətənə gətirmişdi.

Cənubi Azərbaycan problemi Heydər Əliyev üçün daim prioritet məsələ olmuşdur. Ulu öndər 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı nitqində toxunduğu çoxsaylı məsələlər kontekstində Cənub ədəbiyyatı ilə bağlı məqamları da həssaslıqla ədəbi yaddaşın dövriyyəsinə daxil etməyi unutmurdu: “Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər.

Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır”.

Bu, adi diqqət deyildi. Demək olar ki, cənub məsələsi Heydər Əliyevin varlığında illərlə yol gəlirdi. Məqamı gəldikcə, içində borc kimi daşıdığı niyyətini söz, ideya, əməl səviyyəsində gerçəkləşdirirdi. Bunu sənət adamlarının hər birinin mətnlərində dil açıb danışan yaddaş lövhələri də sübut edir.

Xalq şairi Söhrab Tahirin xatirələrində ümummilli lider Heydər Əliyevin 1981-ci ildə, Şüvəlanda yazıçıların yaradıcılıq evinin açılışında söylədiyi cəsarətli fikirlər heyrətamiz duyğusallıqla anılır:

“O vaxt Heydər Əliyevlə aramızda çox maraqlı bir söhbət oldu. Mən qəribəm deyəndə, mərhum Prezidentimiz dedi ki, niyə özünü qərib hiss edirsən? Dedim ki, bəs biz vətəndən aralı düşmüşük, ürəyimiz nisgillə doludur. Cavab verdi ki, onun günahı burada oturan şair və yazıçılardadır. Siz niyə o taydakı şair və yazıçıların əsərlərinin burada, bu taydakı şair və yazıçıların əsərlərinin o tayda çap olunmasına təşəbbüs göstərmirsiniz? Nə vaxt bu məsələ ilə bağlı mənə müraciət etdiniz, kömək etmədim? Əgər bu əsərlər həm o tayda, həm də bu tayda dediyim kimi çap olunarsa, hər iki Azərbaycan arasında mədəni körpü yaranar, əlaqələr daha da genişlənər və heç kəs özünü burada qərib hiss etməz. Şair, sən öz evindəsən. Biz bir ata-ananın övladlarıyıq. Ona görə də sən burada özünü qərib hiss etmə. Bu sözlər zalda gurultulu alqışlarla qarşılandı.

Sonra Heydər Əliyev üzünü mənə tutub “Şair, davam elə” – dedi. Mən də bundan ruhlanıb dedim ki, bəs, bildiyiniz kimi, Azərbaycan tarixin günahı üzündən iki yerə parçalanıb. Bu zaman Heydər Əliyev yenə sözümü kəsib dedi: “Şair, dayan! Niyə deyirsən ki, Azərbaycan tarixin günahı üzündən iki yerə parçalanıb?” Zala da dərin bir sükut çökmüşdü. Belə bir vəziyyətdə qorxa-qorxa soruşdum: – Bəs nə deyim, yoldaş Əliyev? Qayıtdı ki, denən Azərbaycan imperialist qüvvələrin günahı üzündən iki yerə parçalanıb.

Bu sözdən sonra zalda bir anlıq çaşqınlıq yarandı. Çünki heç kəs gözləmirdi ki, Heydər Əliyev Azərbaycanı iki yerə bölənləri, yəni İran və Rusiyanı adı ilə deyəcək. Və birdən sanki nə baş verdiyini zaldakılar anladı. Zalda bir alqış qopdu ki, gəl görəsən. Heydər Əliyev düz 15 dəqiqə zaldakıları sakitləşdirə bilmədi. Sevincindən ağlayan kim, bir-birini qucaqlayan kim. Sovet dövründə ilk dəfə idi ki, yüksək tribunadan Cənubi Azərbaycan məsələsi qaldırılırdı. Həmin andaca bu barədə Moskvaya xəbər çatdırdılar və elə oradaca hiss etdim ki, onu telefona çağırdılar. Sonralar eşitdim ki, bu çıxış Heydər Əliyevə müəyyən qədər başağrısı yaradıb”.

“Başağrısı” əlbəttə ki, olmamış deyildi. Axı, özünün dediyi kimi, sovet dövründə “ən böyük dissident elə özü idi”. Kremlin yüksək kürsüsündə əyləşib milli ideologiyaya xidmət edən bir siyasətçinin təəssübkeşliyi rəhbərlik üçün qəbul ediləsi hal olmasa da, Heydər Əliyev bilərəkdən “üzü küləyə” gedənlərdən idi. Bilirdi ki, qabartdığı hər ideyadan, hər toxunuşdan sonra əməl və hərəkat dirçəlişi gəlir. Elə 1981-ci ildə etdiyi çağırışdan sonra da ədəbi-elmi düşüncə sferasında Azərbaycan ədəbiyyatının bütövlüyü və Cənubda yaşayan yazıçılarla əlaqələrin yaradılması istiqamətində mühüm addımlar atılmağa başlandı.

İran İslam Respublikasında yaşayan Məhəmmədhüseyn Şəhriyar kimi qüdrətli sənətkarı bu bəyanatlardan sonra daha dərindən tanımağa, təbliğ etməyə başladılar. Xalq şairləri Süleyman Rüstəmin və Məmməd Rahimin Məhəmmədhüseyn Şəhriyarla şeirləşmələri, xalq şairləri Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin ustad şairlə telefon danışıqları böyük rezonans yaradan amillər idi.

Əslən cənublu olan, lakin taleyin hökmü ilə Azərbaycanın şimalında yaşayıb-yaradan Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Billuri, Söhrab Tahir, Əli Tudə və başqa şair və yazarların Cənubi Azərbaycanda əsaslı tanışlıq dövrü həmin illərdə baş verdi. Ədəbiyyatımızda Cənub mövzusunda yeni əsərlər meydana qoyuldu. Onun təşəbbüsü ilə əslən cənublu olan Balaş Azəroğlu Yazıçılar İttifaqının katibi seçildi. Eləcə də ilk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə açıldı, Cənubi Azərbaycan ədəbiyyatının araşdırma mərkəzinin təməli qoyuldu.

“Cənubi Azərbaycan ədəbiyyatı milli sərvətimizdir” məqaləsində Teymur Əhmədov yazır ki, “Mirzə İbrahimovun ürəyində bəslədiyi nisgilli arzusunu rus sovet imperiyasının hakimiyyəti dövründə demokratik ab-havanın hiss olunduğu 70-80-ci illərdə rəsmi qadağaların mövcud olduğu şəraitdə həyata keçirmək olduqca müşkül idi. Lakin ölkə başçısı Heydər Əliyev müdrik alim-yazıçı Mirzə İbrahimovun təşəbbüsünü bəyənib, onun Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərkibində Cənubi Azərbaycan şöbəsini yaratmasına rəsmi göstəriş verdi”.

Xalq yazıçısı Elmira Axundovanın altıcildlik “Heydər Əliyev: Şəxsiyyət və zaman” adlı kitabının ikinci hissəsində Azərbaycanın sabiq xarici işlər naziri, ədəbiyyatşünas alim Vilayət Quliyevin də xatirələrinin yer aldığı belə bir epizodla qarşılaşırıq: “...Ali dini rəhbər Heydər Əliyevi mərasim zalının girişində qarşılayıb, ikiəlli görüşdü. Aralarında Azərbaycan dilində söhbət başlandı. Həm İran nümayəndə heyəti, həm də biz sakitcə dayanıb söhbətə qulaq kəsilmişdik.

Hal-əhval tutandan sonra Heydər Əliyev Xamneyidən soruşdu:

– Yaxşı, Xamnədə (Təbriz yaxınlığında, Xamneyinin doğulduğu kənd) nə var, nə yox?

– Sən Xamnəni də bilirsən? – deyə İranın ali dini rəhbəri təəccübləndi.

– Əlbəttə, tanıyıram. Xamnə çox məşhur yerdir”.

Heydər Əliyev 21 yaşı tamam olduqdan sonra, 1944-cü ilin mayından Sovet İttifaqı dövlət təhlükəsizlik orqanlarında xidmətə başlamış, 1969-cu ilin iyulunda respublikanın rəhbəri seçilənə qədər 25 il sovet sisteminin ən mürəkkəb, məsuliyyətli, çətin cəbhəsində alnıaçıq, rəşadətlə yol keçmiş, general-mayor rütbəsinə və Azərbaycan SSR DTK-nın sədri vəzifəsinə qədər yüksəlmişdir. Bu dövrün bütün mərhələlərindəki fəaliyyətində Cənubi Azərbaycanla bağlı milli təəssübkeşlik hissi zərrə qədər gözardı edilməmiş, əksinə, əhəmiyyətli məsələlərdən biri olmuşdur.

Elmira Axundova qeyd edilən əsərində “Literaturnaya qazeta”da İqor Belyayev adlı şərqşünasın belə bir fikrini əsas gətirərək yazır: “Yadımdadır, məqalələrinin birində o yazmışdı ki, Heydər Əliyev 19 yaşında Şimali və Cənubi Azərbaycanı birləşdirmək haqqında düşünüb. İndi budur, 20 ildən sonra həmin ideya bu şəkildə təzədən meydana çıxıb”. Və sonradan minnətdarlıqla xatırlayır: “Elə ən maraqlısı, bu günə qədər mənimçün müəmmalı qalanlar da məhz bundan sonra başlayır. Qrupumuzdan heç kim cəzalandırılmadı, heç kimi həbs etmədilər, heç kimi institutdan qovmadılar. Mən bunu, ilk növbədə, Heydər Əliyevlə bağlayıram, o vaxt o, DTK-da rəhbər vəzifədə idi”.

Digər bir tədqiqatçı, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı yazır ki, “Heydər Əliyevin bilavasitə qayğısı ilə 21 Azər Günü həmişə qeyd edilirdi. Cənubi Azərbaycandan olan siyasi mühacirlərə yaxşı şərait yaradılmışdı. 1981-ci ildə siyasi mühacirlər üçün 142.500 rubl daimi yardım ayrıldı. Mühacirət cəmiyyətinin yerləşdiyi bina təmir etdirildi. Azərbaycan Demokrat Partiyasının birinci katibi Əmirəli Lahrudi 1981-ci il oktyabr ayının 28-də Heydər Əliyevə yazdığı məktubunda mühacirlərə göstərdiyi qayğıya görə təşəkkür etmişdir”.

Yuxarıda adıkeçən cənublu şair Söhrab Tahirin “Yaxşılıq” adlı şeiri var. Həmin şeirdə böyük öndərin şəxsiyyəti, gördüyü işlər sevgi, lütf və minnətdarlıqla anılır. Həm də yalnız bu tayla bağlı deyil, o taydakı yaxşı əməllərin icraçısı və mənəvi ülfət rəmzi olaraq:

***Mən rəhbərdən çox yaxşılıq görmüşəm,***
***Verdiyindən hamıya pay vermişəm.***
***Yaxşılıqdan qızıl saray hörmüşəm,***
***Qal baxtımın sarayında, yaxşılıq,***
***O tayımda, bu tayımda yaxşılıq.***

Göründüyü kimi, Heydər Əliyev hələ sovet rejimi dövründə İran İslam Respublikası ilə, Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasının əsasını qoymuş, qarşılıqlı münasibətlərin möhkəm təməlini atmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə Prezidenti Heydər Əliyevin yeni tarixi epoxada apardığı məqsədyönlü siyasət nəticəsində bu sağlam əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir.

Bu baxımdan Ümummilli liderin “Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında”kı 29 oktyabr 1997-ci il tarixli sərəncamı xüsusi əhəmiyyətə malikdir. Həmin dövlət sərəncamı əsasında qüdrətli sənətkarın yubileyi ilə bağlı Bakıda, Tehranda və Təbrizdə keçirilən genişmiqyaslı tədbirlərlə ölkələrarası ədəbi-mədəni əlaqələr yeni və daha yüksək səviyyəyə qaldırılmışdır.

Məhəmmədhüseyn Şəhriyar Heydər Əliyevin ən çox sevdiyi şair idi. Yadıma yazıçı-dramaturq Cəfər Cabbarlı ilə bağlı bir məqam düşür. “Ən sevdiyiniz əsəriniz hansıdır”, – sualına Cabbarlı “Dönüş” deyə cavab verir. “Bu ki, sizin ən zəif əsərinizdir”, – deyirlər. Cabbarlı isə cavabında, “doğrudur, ana hər zaman zəif, şikəst övladını hamıdan çox istəyir”, – kimi kədərli bir nüansa vurğu edir.

Amma Şəhriyar təbii ki, zəif deyil, ən qüdrətli şairlərdən biri idi və Heydər Əliyev də bu üzdən, vaxtilə ona ünvanlanan 21 sualın içində yer alan “ən sevdiyiniz şair kimdir” sorğusuna Şəhriyarın adını çəkərək cavab vermişdir. O, Şəhriyarın ədəbi irsini daim yüksək qiymətləndirmiş, onu böyük vətənpərvərlik duyğularının tərənnümçüsü olan filosof şair, “Şərqin çox geniş bir regionunda insan mənəviyyatının zənginləşməsində böyük rol oynayan” mütəfəkkir adlandırmışdır. Bu mənada, sevgisinin qaynağı Şəhriyarın şeirlərindəki şairanəliyin gücünə bağlı amil idi.

Lakin... “Şəhriyarın ürəyi də səninki tək yaralıdır”... Bu məqam da vardı axı. Bu pillədən artıq vətən, ona həsrət qalan övladların obrazı, daxili yaşantıları başqa cür görünür. Bütün varlığı ilə poeziyaya, sənətə münasibətdə estet olmaqla yanaşı, həm də milli ruh daşıyıcısı olan Heydər Əliyevin bütöv Azərbaycan gəzdirdiyi qəlbi bu məqamda ağrımaya bilmirdi.

***Elnarə AKİMOVA,***
***filologiya elmləri doktoru,***
***AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri,***
***Milli Məclisin deputatı***

# Sümük iliyi transplantasiya mərkəzinin açılışı



**Dekabrın 11-də Liv Bona Dea Hospitalında Sümük iliyi transplantasiya mərkəzi açılıb.**

Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev iştirak ediblər.

Leyla Əliyeva əvvəlcə Heydər Əliyev Fondunun himayəsi altında xəstəxanada müalicə alan azyaşlıya baş çəkib, onun səhhəti ilə maraqlanıb, hədiyyə təqdim edib.

Sonra Sümük iliyi transplantasiya mərkəzi istifadəyə verilib.

Yeni mərkəz həm böyüklər, həm də uşaqlar üçün sümük iliyi köçürmələrini həyata keçirəcək. Məlumat verilib ki, mərkəzdə 6 xüsusi izolyasiya olunmuş palata fəaliyyət göstərir. Həmin infrastruktur illik 80 xəstənin qəbuluna və müalicəsinə imkan yaradır.



Qeyd olunub ki, hazırda xəstəxananın tərkibində 8 çarpayılıq hematologiya şöbəsi də xəstələrin ixtiyarındadır. Şöbədəki bütün palatalar müasir HEPA filtrasiyalı pozitiv təzyiq sistemi ilə təchiz olunub ki, bu da xəstələrin infeksiyalardan maksimum qorunmasını təmin edir. Kimyaterapiya preparatlarının hazırlanması biotəhlükəsizlik kabinlərində, hüceyrə toplanması isə müstəqil aferes bölməsində aparılır.



Eyni zamanda, Qan bankı eritrosit, trombosit, plazma və digər komponentlərin hazırlanması, o cümlədən qranulosit süspansiyonunun əldə olunması imkanına malikdir. Köçürmə xəstələrinin təhlükəsizliyi üçün "işınlama" və filtrləmə prosedurları mütəmadi olaraq tətbiq edilir.

Qeyd edək ki, Sümük iliyi transplantasiya mərkəzi Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında Qərara əsasən verilən lisenziya əsasında açılıb.

Xatırladaq ki, sümük iliyi və kök hüceyrə köçürülməsi müxtəlif hematoloji və onkoloji xəstəliklərin müalicəsində tətbiq olunan müasir və effektiv tibbi prosedurdur. Kök hüceyrələr xəstənin özündən (avtoloji) və ya donorundan (alojenik) əldə edilərək, yüksək dozalı kimyaterapiya sonrası orqanizmə köçürülür. Məqsəd xəstə sümük iliyini sağlam hüceyrələrlə əvəz etmək və qan yaradıcılığını bərpa etməkdir.

**XQ**

# Leyla Əliyeva 5 saylı Uşaq Vərəm Sanatoriyasında



**Dekabrın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev Səhiyyə Nazirliyi 5 saylı Uşaq Vərəm Sanatoriyasını ziyarət edib.**





Ziyarət çərçivəsində müəssisənin fəaliyyəti, tibbi xidmətlərin təşkili və uşaqlar üçün yaradılan şəraitlə tanışlıq olub. Dispanserdə aparılan yenilənmə işləri, göstərilən diaqnostik və müalicə xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlər müzakirə edilib.

Səhiyyə naziri Teymur Musayev ölkəmizdə uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilən layihələrə verilən dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib.

**XQ**

# Azərbaycanda rəqəmsal iqtisadiyyata keçid

## *GenAİ modelinin bu prosesə töhfəsi nə ola bilər?*

**Son 4–5 il ərzində Azərbaycanda rəqəmsal məhsulların və ümumilikdə rəqəmsal iqtisadiyyatın formalaşması üçün yaxşı şərait yaranıb. Ölkədə müxtəlif innovasiya ekosistemləri genişlənir, investisiya mühiti yaxşılaşır, yeni dəstək platformaları formalaşır.**




Azərbaycanın rəqəmsal inkişaf gündəliyi yeni mərhələyə qədəm qoyur. Prezident İlham Əliyevin təsdiqlədiyi "Rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya"da ilk dəfə olaraq Generativ Süni İntellektin (GenAİ) iqtisadiyyata verə biləcəyi real təsir konkret rəqəmlərlə müəyyənləşdirilib. Bu, ölkənin iqtisadi modelinin dəyişməsi, məhsuldarlıq artımı və yeni yüksək dəyər yaradan sahələrin formalaşması deməkdir.

Strategiyaya əsasən, 2029-cu ilə qədər Azərbaycanda GenAİ-dən istifadə halları vasitəsilə yaradılan iqtisadi təsirin 70 milyon manata çatdırılması planlaşdırılır. GenAİ-dən istifadə halları vasitəsilə yaradılan iqtisadi təsir 2026-cı ildə 10 milyon manat, 2027-ci ildə 30 milyon manat, 2028-ci ildə isə 50 milyon manat olmalıdır. Maraqlıdır, görəsən Azərbaycan nə üçün generativ süni intellekti yeni sənaye inqilabının başlanğıcı kimi prioritet hesab edir? Bu yazımızda məhz GenAİ-nın üstünlüklərindən bəhs edəcəyik.

GenAİ yalnız məlumat emalı və ya rutin tapşırıqların avtomatlaşdırılması deyil. Sözügedən süni intellekt yeni məhsul və xidmətlər yaradır, innovativ biznes modellərini formalaşdırır, məhsuldarlığı kəskin artırır, insan resurslarının səmərəliliyini yüksəldir, startap ekosisteminin avantürasız, daha dəqiq və sürətli inkişafına imkan yaradır. Azərbaycan üçün bu texnologiyanın strateji əhəmiyyəti ondan ibarətdir ki, onun istifadəsi neftdənkənar sahələrin rəqabət qabiliyyəti üçün tam yeni bir mərhələ açır.

Qeyd edək ki, GenAİ Azərbaycanın iqtisadi həyatına inteqrasiyasının yalnız başlanğıc mərhələsidir. Avtomatlaşdırma, rəqəmsal xidmətlər, maliyyə texnologiyaları, təhsil və səhiyyədə e-həllər, kənd təsərrüfatında ağıllı analizlər kimi sahələrdə GenAİ-nin tətbiqi real əlavə dəyər yaradacaqdır.

Burada ən vacib məqam odur ki, dövlət siyasəti bu sahəni təşviq edir, normativ çərçivə formalaşır, biznes və startaplar üçün konkret iqtisadi motivasiya yaradılır, rəqəmsal savadlılıq və kadr potensialı strategiyanın mərkəzinə yerləşdirilir. Başqa sözlə, GenAİ Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi prosesinin əsas dayaqlarından birinə çevrilir.

Ümumiyyətlə, qlobal bazarlarda GenAİ-ın real bizneslərə təsiri ilə bağlı rüblük hesabatlar qeydə alınır. Son bir il ərzində sözügedən süni intellektin istifadəsi ilə daha kiçik və daha səmərəli modellər, daha az gecikmə, daha geniş ixtisaslaşma müşahidə olunur. Etibarlılıq və güvən səviyyəsi də artıb, baxmayaraq ki, bu sahələrdə görüləcək iş hələ kifayət qədər çoxdur. Bu müddətdə təşkilatlara özəl, açıq mənbəli mülkiyyətçi böyük dil modellərinin (LLM) tətbiqi nisbəti 20–25 faiz səviyyəsində qalaraq məhdud olaraq davam edir. Son bir il ərzində respondentlər bildiriblər ki, onların təşkilatları GenAİ-yə hazırlıq baxımından ən çox iki kritik sahədə irəliləyiş əldə edib: texnologiya infrastrukturu və strategiya. Lakin digər iki əsas sahə — risk və idarəetmə, eləcə də kadr potensialı üzrə hazırlıq səviyyəsində nəzərəçarpacaq yaxşılaşma qeydə alınmayıb.

Respondentlərin 78 faizi növbəti maliyyə ilində ümumi süni intellekt xərclərini artıracaqlarını bildirib. Eyni zamanda, GenAİ-nin Ümumi Süni İntellekt Büdcəsindəki payı ilk rüblük sorğu ilə müqayisədə daha da genişlənib. Xüsusilə, ümumi süni intellekt büdcəsinin 20–39 faizini GenAİ-yə ayıran təşkilatların payı əhəmiyyətli dərəcədə artıb. Ümumi süni intellekt büdcəsinin 20 faizdən az qismini GenAİ-yə ayıran təşkilatların payı isə nisbətən azalıb. Bu da göstərir ki, təşkilatlar GenAİ-ni getdikcə daha prioritet sahə kimi görür və burada investisiya artımını davam etdirəcək.

### *Ekspert rəyi*



**Natiq MƏMİŞOV,**
**Aİ mütəxəssisi, "Alas academy" süni intellekt mərkəzinin direktoru**

Ümumi olaraq baxsaq, hesab edirəm ki, yeni Strategiyada rəqəmsal iqtisadiyyat və xüsusilə GenAİ üzrə konkret rəqəmlərlə hədəflərin qoyulması çox önəmli dönüş nöqtəsidir. 2029-cu ilə qədər generativ süni intellekt əsasında 70 milyon manatlıq əlavə iqtisadi təsirin planlaşdırılması o deməkdir ki, artıq AI ölkədə sadəcə "trend texnologiya" kimi yox, real gəlir və məhsuldarlıq mənbəyi kimi görülür. Bu, biznes proseslərinin avtomatlaşdırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və yeni rəqəmsal məhsulların yaranması hesabına həm özəl sektora, həm də büdcəyə əlavə dəyər gətirə bilər.

Digər tərəfdən, bu qeyri-neft sektorunun şaxələnməsi, regionlarda məşğulluq və ixrac potensialı baxımından ciddi dividend verə bilər. Bu, həm yerli startap və kiçik bizneslər üçün yeni satış kanalları deməkdir, həm də Azərbaycanı regionda rəqəmsal xidmətlərin istehsalçısı kimi möhkəmləndirir.

Əlbəttə, bu hədəflərin reallaşması üçün təkcə strategiya kifayət etmir. Rəqəmsal infrastrukturun genişləndirilməsi, data idarəetməsi, kadr hazırlığı, kibertəhlükəsizlik və AI etikası kimi sahələrdə paralel institusional islahatlar və bizneslə real əməkdaşlıq mexanizmləri qurulmalıdır. Amma müsbət tərəfi odur ki, artıq dövlət səviyyəsində süni intellektdən iqtisadi mənfəət əldə olunması ayrıca ölçülən, planlanan göstəriciyə çevrilir. Bu da həm investorlar, həm də texnoloji icma üçün çox aydın siqnaldır: Azərbaycanda rəqəmsal ekosistemin inkişafı epizodik layihə yox, strateji prioritet kimi götürülüb.

Beynəlxalq təcrübəyə nəzər salsaq, görərik ki, hazırda İsraildə İT məhsullarının illik ixracı artıq 50 milyard dolları keçib. Azərbaycan da mövcud təcrübəni öyrənərək, eyni yanaşmanı tətbiq etməlidir. Ölkə daxilində müasir standartlara uyğun rəqəmsal həllər yaratmalı və onları beynəlxalq bazarlara çıxarmalıdır.

Şübhəsiz ki, Azərbaycanda da GenAİ-nın tətbiqi müxtəlif sahələrdə özünü dolğun göstərəcəkdir. Bundan əlavə, Yüksək Texnologiyalar Parkında tətbiq olunan vergi güzəştləri texnoloji şirkətlərin inkişafını stimullaşdırır, onların daha dayanıqlı fəaliyyətinə imkan yaradır. Lakin bütün bu imkanları tam reallaşdırmaq üçün həm dövlət, həm də özəl sektor aktiv şəkildə birgə işləməlidir. İqtisadi inkişaf yalnız özəl sektorun iştirakı ilə mümkündür, dövlət isə dəstək mexanizmləri vasitəsilə bu prosesə sürət verə bilər.

Bu sinerji nəticəsində Azərbaycan yaxın illərdə ciddi miqyaslanma potensialı olan rəqəmsal iqtisadiyyatı formalaşdıra bilər. Ənənəvi iqtisadi modeldə Azərbaycanın ixrac imkanları fiziki sərhədlərlə məhdudlaşır. Lakin rəqəmsal iqtisadiyyatda belə məhdudiyyət yoxdur – məhsullarımız qlobal miqyasda satıla bilər və ölkənin iqtisadi sərhədləri, demək olar ki, bütün dünyaya qədər genişlənə bilər. Bu potensial realdır və artıq ölkəmizdə bu istiqamətdə çalışan şirkətlər, komandalar və kadrlar mövcuddur.

***Nurlu ABDALOV***
***XQ***

*Azərbaycan Mühəndislik Akademiyası – 20*

# Ölkənin texniki təfəkkür mərkəzi





**Azərbaycan Mühəndislik Akademiyasının (AMA) yaranmasının 20 illik yubileyi ilə əlaqədar bir sıra tədbirlər keçirilib, o cümlədən Akademiyanın elmi orqanı olan "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" beynəlxalq elmi-texniki jurnalı yubileyə həsr olunub. Yubileylə əlaqədar bir neçə xarici ölkədən Akademiyanın prezidenti, akademik Arif Paşayevin ünvanına təbriklər daxil olub.**

AMA-dan bildirilib ki, Akademiyanın prezidenti, akademik Arif Paşayev ölkəmizdə mühəndislik peşəsində çalışanlara və gələcək mühəndislərə yubiley münasibətilə təbrik ünvanlayıb. Təbrikdə deyilir: "Hörmətli akademiyanın üzvləri, əməkdaşları, gənc mühəndislər və elmi ictimaiyyətin dəyərli nümayəndələri!

2025-ci noyabrın 30-u hər birimiz üçün əlamətdar və qürurverici bir tarixdir – Azərbaycan Mühəndislik Akademiyasının təsis edilməsinin 20 ili tamam oldu. Gənc təşkilat olmasına baxmayaraq, Bakının xam neftin kəşfiyyatında mühüm rolu sayəsində XX əsrin əvvəllərini formalaşdırılan neft və qaz sənayesində böyük mühəndislik yenilikləri çiyinlərində daşıyır. Azərbaycan Mühəndislik Akademiyası yarandığı gündən ölkə iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyət kəsb edən bir sıra layihələrin həyata keçirilməsində fəal iştirak edərək cəmiyyətdə öz layiqli yerini tutub. Qeyd edim ki, AMA-nın formalaşması və inkişafı ilk gündən tarixi köklərimiz, strateji düşüncə, peşəkarlıq və yüksək vətənpərvərlik ruhu üzərində qurulub.

İnkişaf etmiş cəmiyyətlərin sütunlarından biri olan mühəndislik bəşər tarixinin ən qədim dövrlərindən etibarən insanların həyatını asanlaşdırmaq, təhlükəsizliyini təmin etmək və yeni imkanlar yaratmaq məqsədilə meydana çıxıb. Hər bir xalqın və coğrafiyanın texniki düşüncəyə, yaradıcılığa və innovasiyaya verdiyi töhfələr həmin xalqın mədəni və intellektual irsinin ayrılmaz tərkib hissəsidir. Bu baxımdan, Azərbaycan mühəndislik tarixi də həm qədimlik, həm də zənginlik baxımından diqqətəlayiq nümunələrdən biridir.

Hazırda Azərbaycan Mühəndislik Akademiyasının həqiqi və müxbir üzvlərinin sayı 36 nəfərdir ki, bunlardan da 21 nəfəri həqiqi üzv (akademik), 15 nəfəri müxbir üzv, 1 nəfəri akademiyanın fəxri üzvü və 4 nəfər isə akademiyanın əcnəbi üzvüdür. Akademiyanın üzvləri istər neft və qaz sənayesində, istər aviasiya, istər tikinti və nəqliyyat sahəsində, istərsə də müasir informasiya texnologiyalarında və enerji və energetika sahəsində tətbiq olunan mühəndislik yeniliklərində əhəmiyyətli töhfələr veriblər. Azərbaycan iqtisadiyyatının mühəndislik dayaqlarının möhkəmləndirilməsi məhz sizin əzmkarlığınız və intellektual zəhmətiniz sayəsində mümkün olub.

Azərbaycan Mühəndislik Akademiyası ötən 20 il ərzində ölkəmizdə mühəndislik elminin inkişafında və texniki təfəkkürün formalaşmasında mühüm rol oynayıb. Bu illər ərzində Akademiya mühəndislik sahəsində elmi araşdırmaların mərkəzinə çevrilib, yerli və beynəlxalq elmi-texniki dairələrlə səmərəli əməkdaşlıq qurub.

Onlarla monoqrafiyalar, kitablar, dərsliklər, dərs vəsaitləri, elmi məqalələr dərc edilib, simpoziumlar, konfranslar, seminarlar, dəyirmi masalar keçirilib.

Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən elmi-texniki siyasət və sənayeləşmə strategiyası çərçivəsində AMA-nın rolu və məsuliyyəti daha da artıb. Bu baxımdan Akademiyanın üzərinə düşən vəzifələr, xüsusilə yeni texnologiyaların tətbiqi, elmi yeniliklərin istehsalata inteqrasiyası və gənc mütəxəssislərin elmə cəlb olunması olduqca vacibdir.

Azərbaycan Mühəndislik Akademiyasının UNESCO-nun nəzdindəki Ümumdünya Mühəndislik Təşkilatları Federasiyası (WFEO), Beynəlxalq Mühəndislik Akademiyası və İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyası ilə əməkdaşlığı sayəsində Akademiyanın nailiyyətləri daha da artıb, gələcəkdə müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlıq inkişaf edəcək, akademiyanın hüdudları digər akademiyalarla genişlənəcək, mühəndislik ideyalarının dünya birliyinə inteqrasiyası sürətlənəcək.

WFEO – Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən elm və texnika sahəsində aparıcı qeyri-hökumət təşkilatı kimi tanınan mühəndisliyin beynəlxalq səsidir. O, elm və mühəndislik sahəsində əsas qlobal problemləri həll etmək üçün, xüsusilə mühəndislik peşəsi vasitəsilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə kömək üçün UNESCO da daxil olmaqla BMT-nin orqanları ilə sıx əməkdaşlıq edir.

Akademiyanın strukturunda yaradılmış yeni departamentlər və şöbələr akademiyanın üzvləri tərəfindən fəaliyyət göstərir və bütün bunlar, aparıcı alimlər, mühəndislər və tədqiqatçılar üçün öz elmi nailiyyətlərini bölüşmək, aktiv müzakirələr aparmaq və texniki proqramlar hazırlamaq üçün ən yaxşı bir platformadır.

Əminəm ki, Azərbaycan Mühəndislik Akademiyası və onun elmi-texniki orqanı olan "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" jurnalı bundan sonra da respublikamızın mühəndis-texniki potensialının inkişafı naminə öz fəaliyyətini uğurla davam etdirəcək, innovasiyaların tətbiqinə, elmi tədqiqatların nəticələrinin real sektora ötürülməsinə xidmət edəcək.

**Əziz həmkarlar!**

20 illik yubiley münasibətilə sizə bir daha ən səmimi təbriklərimi çatdırır, hər birinizə möhkəm cansağlığı, elmi fəaliyyətinizdə uğurlar, mühəndislik elminin inkişafında yeni nailiyyətlər arzulayıram.

Azərbaycan mühəndisliyinin sabahı sizin əlinizdədir və bu sabahın parlaq olacağına inamımız sonsuzdur!".

Qeyd edək ki, Akademiyanın fəaliyyətində və inkişafında, müasir düşüncəli gənc mühəndis kadrlarının hazırlanmasında fərqlənən AMA üzvləri və əməkdaşları, eləcə də Akademiya ilə səmərəli əməkdaşlıq edən təşkilatların bir sıra mütəxəssislərinin xidmətlərini qiymətləndirmək məqsədilə onlar müxtəlif nominasiyalarla döş nişanı ilə təltif olunublar.

Bundan əlavə, Mühəndislik Akademiyasına üzvlüyə seçkilər keçirilib və yeni həqiqi üzvlər (akademiklər) və müxbir üzvlər seçilib.

***AZƏRTAC***

# Böyük siyasətin memarı

**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ümummilli lider Heydər Əliyevin vəfatının 22-ci ildönümünə həsr olunmuş "Yaşayan böyük yol" adlı anım mərasimi keçirildi. Əvvəlcə iştirakçılar Ulu öndərin həyat və fəaliyyətini əks etdirən stendlə tanış oldular.**








Sonra muzeyin direktoru, akademik Rafael Hüseynov ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışaraq bildirdi ki, Ulu öndər ölkədə hakimiyyətə gələndə Azərbaycan müstəqilliyini itirib Sovetlər Birliyinin tərkibində yarımasılı tale yaşayırdı. Bunun nə vaxtsa başa çatacağı da bir xülya idi. Heç kəs bilmirdi ki, nə vaxtsa Sovet İttifaqı dağılacaq, Azərbaycan yenidən müstəqillik qazanacaq.

Hələ DTX-da çalışdığı 1950-ci illərdə Heydər Əliyev tələbələrin gizli yaratdığı "Azərbaycan dilini qorunmq uğrunda mübarizə təşkilatı"nın üzvlərini həbsdən qurtarmaqda kömək etmişdi. Həmin dövrdə dövlət idarələrində bütün yazışmalar rus dilində aparılır, küçədə, ictimai yerlərdə, mədəni kütləvi tədbirlərdə çıxışlarda bu dilə üstünlük verilirdi.

Akademik Ulu öndərin Azərbaycanın iqtisadi, mədəni və sosial sahələrdə əldə etdiyi uğurlarda xidmətlərindən geniş bəhs edərək dedi ki, Heydər Əliyevin siyasi şəxsiyyət, tarixi sima kimi ən böyük xidmətləri ondan ibarət oldu ki, sovet dönəmində Azərbaycanı mümkün qədər müstəqil idarə etmişdi. Ulu öndərin hakimiyyətə qayıdışı isə elə bir tarixə təsadüf etdi ki, Azərbaycanın taleyində son dərəcə dramatik hadisələr baş verdi. Azərbaycanın çətin günlərində Heydər Əliyev ölkəmizi məhv olmaq təhlükəsindən xilas etdi, müstəqilliyimizi əbədiləşdirən böyük siyasətin memarı oldu. Böyük rəhbər işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün də var qüvvəsi ilə çalışdı.

Rafael Hüseynov əlavə etdi ki, Heydər Əliyevin Azərbaycan xalqına, dövlətinə xidmətlərdən başqa bir töhfəsi isə liderlik yolunu davam etdirəcək şəxsiyyəti yetişdirməsi idi. Əgər İlham Əliyev kimi şəxsiyyət olmasaydı, belə güclü lider ölkəmizi idarə etməsəydi, biz Qarabağ necə xilas edə bilərdik? İkinci Qarabağ müharibəsində İlham Əliyev təkbaşına bir orduya bərabər işlər görmüşdü.

Azərbaycanı bütün dünyada tanıtdırmaq, onu inkişaf etdirmək, dünyanın güclü ölkələrindən birinə çevirmək, sadəcə, xalqa xidmət deyil, çox böyük hünərdir. Bu gün İlham Əliyev varsa, öz dəst-xətti varsa, onun uğurlarının arxasında Heydər Əliyevin qoyduğu irs, açdığı yol, məktəb dayanır. Buna görə də Heydər Əliyevin xatirəsi Azərbaycan xalqının qəlbində həmişə yaşayacaq.

Mərasimdə Ulu öndərin həyatının müxtəlif anlarını əks etdirən videoçarx nümayiş etdirildi.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Həyatını siprə çevirən pilot



**Ötən il dekabrın 25-də AZAL-a məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhərində qəzaya uğraması nəticəsində həlak olanlardan biri də pilot Aleksandr Kalyaninovdur. Azərbaycan Hava Yollarına məxsus "Embraer 190" təyyarəsi Rusiya istehsalı olan "Pantsir-S1" zenit-raket kompleksi ilə vurulandan sonra kapitan İqor Kşnyakin və ikinci pilot Aleksandr Kalyaninov idarəetmə sistemlərinin sıradan çıxmasına baxmayaraq, təyyarəni Xəzər dənizi üzərindən Aktau Beynəlxalq Hava Limanına yaxın əraziyə yönləndirmişdilər.**

İnsan tələfatının və xəsarət alanların olmasına baxmayaraq, pilotların, bələdçilərin yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində təyyarə qəza enişi həyata keçirmişdi. Göyərtəsində 67 nəfər olan təyyarənin qəzaya uğraması nəticəsində 29 nəfər sağ qalsa da, Aleksandr Kalyaninov və digər pilot yoldaşı, bələdçi Hökumə Əliyeva həlak olmuşdular.

Prezident İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli sərəncamı ilə Kalyaninov Aleksandr Georgiyeviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Aleksandr Georgiyeviç Kalyaninov 11 dekabr 1992-ci ildə Bakıda anadan olub. Uşaqlıqdan arzusu helikopter idarə edən atası Georgi Kalyaninov kimi pilot olmaq idi. Məktəb illərində Bakı Avropa Liseyinin fərqlənən şagirdlərindən biri kimi Aleksandr aykido və boksla da məşğul olub. Milli Aviasiya Akademiyasına qəbul olaraq orada 1 kurs oxuyub. Təhsilini daha sonra IZTECH-də davam etdirib.

A.Kalyaninov 2021-ci ilin aprelində Ukrayna Dövlət Uçuş Akademiyasında (o zaman Ukrayna Milli Aviasiya Universiteti) oxuyarkən aviasiya nəqliyyatı üzrə magistr dərəcəsi alıb. Adına Ukraynada təqaüd də təsis edilib. Həmçinin Kropivnitskdəki Dövlət Uçuş Akademiyasının sinif otaqlarından birinə Aleksandr Kalyaninovun adı verilib. Qeyd edək ki, Aleksandr Kalyaninov həmin akademiyanın məzunu olub.

Milli Qəhrəmanın anası Yelena Kalyaninova oğlunun 1 il idi ki, işə başladığını və işini çox sevdiyini qəhərlə söyləyir: "O, əmi 1 il idi ki, işləyirdi və onun ilk məzuniyyəti idi. Mənə zəng edib dedi ki, məzuniyyəti Avropada keçirmək istəyir. Fransanı seçmişdi. Dedim ki, əlbəttə, sən bunu qazanmısan. Onun iş qrafiki sıx idi, amma işini çox sevirdi. Aleksandr məzuniyyətdən qayıtdıqdan sonra cəmi bir həftə idi ki, işə başlamışdı. Qəzadan bir gün öncə mənə yazdı ki, onu reysə təyin ediblər. Həmişə olduğu kimi, "WhatsApp" vasitəsilə uçuş və qayıdış vaxtını bildirdi. O, reyslərə təyin olunanda və ya qayıdanda həmişə mənə məlumat verirdi. "Narahat olma" deyirdi. Bu qədər gənc yaşda, belə böyük bir həvəslə işini yerinə yetirən oğlumdan ayrılmaq çox ağırdır".

Müəllimi Səbinə Bayramova qeyd edir ki, Aleksandrın 5-ci sinifdən 11-ci sinfə qədər həm müəllimi, həm də sinif rəhbəri olub: "Aleksandr çox ağıllı, savadlı və dürüst bir şagird idi. Hər zaman hər kəsə kömək etməyə çalışan biri olub. Bundan başqa, dərslərini yaxşı oxuyurdu. Bundan əlavə, bir neçə xarici dil bilirdi. Milliyyətcə azərbaycanlı olmasa da, Azərbaycan dilində sərbəst danışıq qabiliyyəti var idi. Bu da öz növbəsində Türkiyədə təhsil almağına böyük kömək edib. Həmin universitetdə təhsil aldığı müddətdə də çox böyük uğurlara imza atıb. O bilirdi ki, istədiyi ali məktəbə daxil olmaq çox çətindir, amma buna baxmayaraq, hər zaman mübarizə aparırdı. Türkiyə universitetində o qədər yüksək səviyyədə oxuyurdu ki, hətta İzmir Universitetindən ingilis dilini mükəmməl bildiyi üçün Bakı Avropa Liseyinə təşəkkür məktubu yollanmışdı.

Atası da pilot olub və Aleksandr uşaqlığı vaxtından həmişə arzu edib ki, pilot olsun. O, bu peşəyə bir növ atasından ruhlanıb. Aleksandrın həlak olması hər birimiz üçün çox ağır oldu. Biz hər birimiz sinif yoldaşları ilə birgə onu çox sevmişik və hər zaman sevəcəyik. Ağıllı, yaraşıqlı oğlan həyatının ən yaxşı çağında həlak oldu, postunda onlarla insanın həyatını xilas etdi. Ürək heç vaxt bu itki ilə barışmaz. Biz səmaya baxanda, uçan təyyarənin səsini eşidəndə Saşanı xatırlayacağıq. Əbədi yaddaşımızdasan...".

Aleksandr Georgiyeviç Kalyaninov xalqımızın qəlbində əbədi yaşayacaqdır.

***Müşfiq MİRZƏ***
***XQ***

# Lənkəranda anım mərasimləri




**Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dönəmdə Lənkəranın inkişafına hərtərəfli diqqət və qayğı göstərib dəfələrlə buraya səfər edib. Cənub bölgəsində dünya şöhrətli siyasət və dövlət xadiminin misilsiz xidmətləri daim böyük qədirbilənliklə xatırlanır.**

Ulu öndərin anım günü ərəfəsində şəhərdəki Heydər Əliyev Mərkəzində unudulmaz dahi rəhbərin Lənkəran səfərləri ilə bağlı arxiv materiallarından ibarət "Sən elə bir zirvəsən!" adlı fotosərgi açılıb. Sərgi tanınmış fotoqraf, SİTA-nın və Azərtacın müxbiri Hacıağa Səlimovun arxiv sənədləri əsasında hazırlanıb.

Şəhərdə keçirilən silsilə anım mərasimləri rəngarəng olub. Lənkəran Reabilitasiya Mərkəzinin əməkdaşları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri və digər kollektivlərin Heydər Əliyev Muzeyinə ekskursiyaları hər kəsə unudulmaz təsir bağışlayıb. Muzeydə nümayiş olunan zəngin ekspozisiyalarla tanış olan ziyarətçilər Heydər Əliyevin uşaqlıq illəri, siyasi fəaliyyətə gəlişi, Azərbaycanın müstəqilliyinin bərpası və möhkəmləndirilməsi yolunda gördüyü işlər barədə ətraflı məlumat alıblar.

Heydər Əliyev Mərkəzi, 7 və 5 saylı şəhər tam orta məktəblərin birgə təşkilatçılığı ilə mərkəzdə "Heydər Əliyev irsi" və "Heydər Əliyev – müstəqil Azərbaycanın memarı və qurucusu" adlı açıq tarix dərsləri aparılıb. A.Xəlilov adına Vel kənd tam orta məktəbində şagirdlərlə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında geniş söhbət aparılıb. Dahi liderin dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizin qorunmasına və müasir Azərbaycanın formalaşmasına verdiyi töhfələr bir daha xatırlanıb. Sonda Ulu öndərin həyat yolunu əks etdirən filmə baxış olub.

Mərasimlərdə Ümummilli liderin dövlət və ordu quruculuğu, təhsil və gənclər siyasəti sahəsində həyata keçirdiyi islahatlardan geniş bəhs edilib, şeirlər səsləndirilib.

***Ə.NƏCƏFXANLI***
***XQ***

# İqtisadi tərəqqi davam edir, sosial rifah yüksəlir

## *Gələn ilin dövlət büdcəsi bu tarixi uğuru təcəssüm etdirir*

**Milli Məclisin dekabrın 9-da payız sessiyası çərçivəsində keçirilən növbəti plenar iclasında “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Bununla da ölkənin növbəti il üçün əsas maliyyə sənədi təsdiqlənərək, sosial-iqtisadi kursun siyasi çərçivəsi rəsmiləşdi. Milli Məclis müzakirələri 2026-cı il dövlət büdcəsinin Azərbaycanın maliyyə planı, eləcə də maliyyə idarəçiliyində yeni mərhələnin başlanğıcı olduğunu bir daha göstərdi.**

Xatırladaq ki, son illər dünya iqtisadiyyatında narahatlıq doğuran qeyri-müəyyən vəziyyət, maliyyə bazarlarında nəzərəçarpan dalğalanmalar, regional risklər və geosiyasi gərginliklər ölkələrin vergilər və dövlət xərcləri vasitəsilə iqtisadiyyatı tənzimləyən siyasətini yenidən nəzərdən keçirməyi tələb edir. Azərbaycan da bu proseslər fonunda həm milli iqtisadiyyatın transformasiya prioritetlərini, həm də dövlət xərclərinin səmərəliliyini artırmağı hədəfləyir.

Milli Məclis müzakirələrində 2026-cı il büdcəsinin əvvəlki illərin ekspansiv (genişlədirici) maliyyə kursundan fərqli olaraq daha çevik, daha səmərəli, balanslaşdırılmış və uzunmüddətli dayanıqlılığa hesablanmış xarakter daşıdığı xüsusi vurğulandı. Eyni zamanda, xərclərin daha dəqiq müəyyənləşdirilməsi, maliyyə intizamının gücləndirilməsi, neft qiymətlərindən asılılığın azaldılması, qeyri-neft gəlirlərinin, dövlət vəsaitlərinin səmərəliliyinin artırılması kimi əsas prioritetlərin önəmi yüksək qiymətləndirildi. Bu yanaşma ilə ölkənin 2022-ci ildən başlayan postpandemiya bərpa və postmüharibə yenidənqurma mərhələsindən çıxaraq uzunmüddətli modernləşmə dövrünə keçdiyini təsdiqlədi.

Bu məqamda xatırladaq ki, son illər ölkəmizdə qeyri-neft sektorunun inkişafı, makroiqtisadi sabitliyin təmini, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, ixrac potensialının artırılması, regional siyasətin davam etdirilməsi, sosialyönümlü siyasətin prioritetliyinin qorunub saxlanılması, maliyyə intizamının, şəffaflığın gücləndirilməsi kimi məsələlərə daha çox önəm verilir. Bütün bunlarla bərabər, büdcənin sosialyönümlü xarakter daşıması da diqqət mərkəzində saxlanılır.

Bütün bunlar təsadüfi xarakter daşımır. Çünki indiyədək respublikamızda əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifahının gerçəkləşdirilməsi istiqamətində həyata keçirilən ardıcıl layihələr milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını tam təsdiqləyib. Sahibkarlığın genişlənməsi məqsədilə yeni müəssisələrin işə salınması məqsədilə uğurla reallaşdırılan islahatlar yoxsulluğun səviyyəsinin azaldılmasına, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkəmizin məşğulluq strategiyasının səmərəliliyinə əlverişli şərait yaradıb.

2026-cı il dövlət büdcəsi də bu baxımdan mühüm önəm daşıyır. Büdcə gəlirlərində neft-qaz sektoru hələ də mühüm paya malik olsa da, qeyri-neft gəlirləri artım trendini davam etdirir. Bu, həm vergi inzibatçılığının təkmilləşdirilməsi, həm də iqtisadi fəallığın genişlənməsi ilə sıx bağlıdır. Yeri gəlmişkən, xərclər üzrə dövlət sosial öhdəlikləri tam şəkildə gerçəkləşdirir, müdafiə və təhlükəsizlik xərclərinə xüsusi diqqət yetirir, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa layihələrini davam etdirir, təhsil və səhiyyədə struktur islahatlarına maliyyə dəstəyini artırır və dövlət investisiyalarında səmərəlilik meyarlarını gücləndirir.

Müzakirələrdən həm də belə bir nəticə hasil oldu ki, “büdcə konsolidasiyası” (bir neçə müəssisənin maliyyə hesabatlarının vahid bir sistemdə birləşdirilməsi prosesi) məsələsinin diqqətdə saxlanılması, büdcəyə qənaət və ya xərclərin ixtisarı kimi baxılması ilə bərabər, həm də dövlət gəlirləri və xərcləri vasitəsilə iqtisadiyyata təsir etmək təşəbbüsünün reallaşdırılması, bu məqamda maliyyə intizamının gücləndirilməsi prioritet istiqamətlərdən biridir. Eyni zamanda, təkrarlanan və səmərəsiz layihələrin maliyyələşmədən çıxarılması, investisiya portfelinin optimallaşdırılması, borclanma siyasətinin riskdən qorunması da xüsusi əhəmiyyətə malikdir.

Ekspertlərin fikrincə, belə bir konsolidasiya modeli Azərbaycanın 2022-ci ildən bu yana həyata keçirdiyi ortamüddətli xərclər çərçivəsi prinsiplərinə uyğundur. Yəni 2026-cı il büdcəsi təkcə növbəti ilin əsas maliyyə sənədi deyil, həm də 2026–2028-ci illəri əhatə edən fiskal (dövlətin maliyyə məsələlərini, xüsusən də büdcəni, vergiləri və dövlət xərclərini tənzimləməklə iqtisadiyyata təsiretmə) strategiyanın ilk addımıdır.

Deputatların müzakirələrdə qeyd etdikləri vacib məsələlərdən biri də gəlirlər üzrə risklərin düzgün idarə olunması idi. Bu, təsadüfi deyil. Çünki qlobal enerji bazarlarında qiymət dalğalanmalarının davam etdiyi ilk vaxtlardan etibarən Azərbaycan hökuməti tərəfindən iqtisadi təhlükəsizliyin gerçəkləşdirilməsi məqsədilə Dövlət Neft Fondundan transfertlərin optimal səviyyədə saxlanılması, qeyri-neft gəlirlərinin genişləndirilməsi, dövlət borcunun ÜDM-ə nisbətinin aşağı səviyyədə qorunması əsas hədəflər kimi kimi müəyyənləşdirilib. Bütün bunlar respublikamızın maliyyə sabitliyinin orta və uzun müddətdə möhkəmləndirilməsinə hər zaman müsbət təsir göstərib. Xüsusilə də Qarabağ regionunda aparılan irimiqyaslı bərpa və quruculuq işlərinin davam etdiyi bir dövrdə fiskal dayanıqlılığın güclü olması gələcək maliyyə öhdəliklərini müəyyən risklərdən qoruyur.



Yeri gəlmişkən, 2026-cı il büdcəsi dövlət idarəçiliyində “keyfiyyət dəyişikliyinə keçid” fəlsəfəsinin davamı kimi də səciyyələndirilir. Bu yanaşmada iki əsas komponent var ki, onlardan biri nəticəyönümlü büdcə modelidir. Burada hər bir xərc maddəsi qarşıya qoyulan ölçülə bilən hədəfə bağlanır. Belə bir model hökumətin iqtisadi artımı innovasiya, insan kapitalı və rəqəmsal iqtisadiyyat üzərində qurmaq niyyətini daha da dəqiqləşdirir. İkincisi isə səmərəlilik və hesabatlılıq mexanizmlərinin gücləndirilməsidir. Burada isə dövlət qurumlarının fəaliyyətinə dair konkret nəticə indikatorlarının tətbiq edilməsidir. Bu, xüsusilə təhsil, səhiyyə, sosial müdafiə, rəqəmsallaşma layihələri və dövlət investisiya proqramlarında özünü göstərir.

Ekspertlər bildirirlər ki, büdcə konsolidasiyası xərclərdə qənaət təəssüratı yaratsa da, sosial sektorun maliyyələşməsində heç bir azalma anlamı vermir. Əksinə, prioritet istiqamətlərdə artım davam edir, minimum sosial standartlar qorunur, pensiya və sosial ödənişlərin maliyyə təminatı gerçəkləşir, aztəminatlı ailələr üçün ünvanlı sosial yardımlar reallaşır, sağlamlıq, təhsil və əmək bazarı proqramları uğurla icra olunur. Bu siyasət həm də göstərir ki, iqtisadi islahatlar sosial sabitliklə qarşı-qarşıya qoyulmur, əksinə, sosial siyasət fiskal islahatların mühüm dayağı kimi qorunur.

Maliyyə mütəxəssislərinin sözlərinə görə, 2026-cı il dövlət büdcəsinin mühüm istiqamətləri sırasında regionların iqtisadi fəallığının artırılması, aqrar sektorun innovativ mexanizmlərlə dəstəklənməsi, sənaye zonalarının inkişafı, kiçik və orta sahibkarlığın maliyyə çıxışının genişləndirilməsi kimi məsələlər xüsusi yer tutur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları isə növbəti ildə də strateji maliyyə prioriteti olaraq qalır. İşğaldan azad olunan ərazilərdə bərpa prosesinin məhz modern texnologiyalarla, “ağıllı şəhər – ağıllı kənd” konsepsiyası ilə davam etdirilməsi əlavə büdcə yükü yaratsa da, uzunmüddətli iqtisadi dividendlərin əsasını qoyur.

Hazırda ölkənin əsas investisiya layihələri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə bağlıdır. Azərbaycan Prezident İlham Əliyevin birbaşa iştirakı və rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda sürətli bərpa-quruculuq işləri görülür. 2020-ci ildən 2026-cı il də (3,5 milyard manat) daxil olmaqla düşməndən təmizlənən ərazilərin bərpasına büdcədən 25 milyard manatdan çox vəsait ayrılıb. Bu vəsaitin böyük hissəsi infrastruktur layihələrinə yönəldilib.

2026-cı il dövlət büdcəsinin üçüncü oxunuşda qəbulu göstərir ki, Azərbaycan iqtisadiyyatında keyfiyyət, səmərəlilik, dayanıqlılıq və balanslı artım kimi yeni mərhələ başlayır. Bu büdcə növbəti ilin maliyyə çərçivəsi olmaqla bərabər, həm də ölkənin orta və uzunmüddətli iqtisadi strategiyasının maliyyə əsaslarını təşkil edən sənəddir. Azərbaycanın sosial prioritetləri qorunmaqla, iqtisadiyyatın modernləşdirilməsi və dövlət xərclərində yüksək səmərəlilik hədəfləri bütövlükdə yeni inkişaf ideologiyasının formalaşdığını göstərir. Gələn ilin büdcə ilə dövlət iqtisadiyyatın keyfiyyət transformasiyası istiqamətində növbəti mühüm addımını atır.

Yuxarıda vurğulanlara əsaslanıb deyə bilərik ki, 2026–2029-cu illəri əhatə edən növbəti ortamüddətli dövr hazırkı inkişaf meyilləri baxımından ölkə qarşısında yeni strateji çağırışlar və hədəflər formalaşdırır. Əsasən ölkə iqtisadiyyatında qabarıq nəzərəçarpan dinamik yüksəliş bu prosesin uğurla gerçəkləşməsinə dərin əminlik yaradır. Bu, bir sıra beynəlxalq reytinq agentliklərinin məlumatlarında, o cümlədən Dünya İqtisadi Forumunun 2025-ci il üzrə “Qlobal risk hesabatı”nda da diqqət çəkir. Sənəddə bildirilir ki, müəyyən qlobal risklərə baxmayaraq, bu ilin 11 ayında ölkəmizin makroiqtisadi göstəriciləri dayanıqlıdır. Güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük həcmdəki vəsaitləri respublikamızın əsas müsbət göstəricilərini şərtləndirir.

Qeyd edək ki, cari ilin 11 ayında Ümumi Daxili Məhsul 1,6 faiz çoxalıb, o cümlədən qeyri-neft-qaz sektorunda 3,2 faiz artım, neft-qaz sektorunda isə 1,8 faiz azalma qeydə alınıb. İqtisadi artımın dinamikasında nisbətən zəifləmə isə neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsi ilə bağlı olub. Ölkəmizin strateji valyuta ehtiyatları da bu ilin əvvəlindən əhəmiyyətli dərəcədə – 12,5 milyard dollar artaraq 83,5 milyard dollara (142 milyard manat) yüksəlib. Bu da 2025-ci ilə gözlənilən ÜDM-in həcmini (130 milyard manat) üstələyib. Hazırda valyuta ehtiyatlarımız xarici borcdan 17 dəfə çoxdur.

Milli Məclisdə 2026-cı ilin dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsi zamanı səsləndirilən bir məqama da toxunmaq istərdik. Belə ki, “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və Böyük Qayıdışa dair I Dövlət Proqramının uğurlu icrası, eləcə də onların növbəti mərhələsi ortamüddətli dövr üçün əsas çağırışlar hesab olunur. Bu gün artıq 2027-2030-cu illəri əhatə edəcək yeni Strategiya və Böyük Qayıdışa dair II Dövlət Proqramı hazırlanır. 2026-2029-cu illərdə dövlət xərclərinin istiqamətlərinə gəldikdə isə, demək olar ki, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma, bərpa və məskunlaşdırma layihələrinin davam etdirilməsi, müdafiə və milli təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, sosial müdafiə və sosial təminat istiqamətində işlərin davamlı icrası əsas prioritetlərdir. Şübhəsiz ki, qarşıdakı dövrdə dövlət xərclərinin istiqamətləri sırasında təhsilin və innovativ inkişafın dəstəklənməsi, səhiyyə sisteminin müasirləşdirilməsi və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, təmiz ətraf mühit və “yaşıl artım”ın təmin olunması önəmli yer tutur.

### Proqnozlar nədən xəbər verir?

Son illər dövlət proqramları çərçivəsində görülən işlər, həyata keçirilən layihələr, əldə olunan real iqtisadi nəticələr gələn ilin dövlət büdcəsinin də uğurla icra ediləcəyinə, iqtisadiyyatın davamlı inkişafının təmin olunacağına əminlik yaradır. Bu, qarşıdakı dövrün proqnozlarında da özünü qabarıq büruzə verir:

***– gələn il icmal büdcənin gəlirlərinin, təqribən, 45 milyard manat, xərclərinin isə 48,8 milyard manat olacağı gözlənilir;***

***– icmal büdcə kəsirinin ÜDM-ə nisbətinin 2,9 faiz təşkil edəcəyi proqnozlaşdırılır;***

***– makroiqtisadi proqnozlara əsasən, 2026-cı ildə qeyri-neft sektoru üzrə ÜDM-in 5 faizlik real artım tempi gözlənilir;***

***– ortamüddətli dövrdə iqtisadiyyatın aparıcı qüvvəsi qeyri-neft sektoru olacaq. Əgər 2022-ci ildə ÜDM həcminin 52 faizini qeyri-neft sektoru təşkil edirdisə (2025- 72 faiz), bu nisbət 2029-cu ildə 80 faizi üstələyəcək.***

Hazırda hökumətin əsas xərc istiqamətlərindən biri də təhlükəsizliyin, hərbi-müdafiə potensialının daha da gücləndirilməsidir. Başqa sözlə, bu, Silahlı Qüvvələrimizin müdafiə qabiliyyətinin artırılması, ölkənin sərhədlərinin möhkəmləndirilməsi, daxildə və xaricdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədi daşıyır. Növbəti ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərclərinin ümumi büdcə xərclərinin, təqribən, 21 faizini (8,7 milyard manat) təşkil etməsi də vurğulanan fikrin bariz ifadəsidir. Yeri gəlmişkən, bu gün respublikamızda hərbi sənaye sürətlə inkişaf edir və uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır və diqqət göstərilir. Azərbaycan artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edir.

Onu da deyək ki, gələn ilin dövlət büdcəsi də sosialyönümlüdür. Belə ki, son illər ölkəmizdə əhalinin etibarlı sosial müdafiəsinin, eləcə də vətəndaşların yüksək rifahının reallaşdırılması istiqamətində həyata keçirilən layihələr respublikamızın milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını tam təsdiqləyir. Eyni zamanda, yeni dövrün çağırışlarına uyğun iqtisadi artımın dayanıqlılığı və rəqabət qabiliyyətinin yüksəldilməsi insan kapitalının keyfiyyətindən bilavasitə asılı olduğunu göstərir. Əhalinin real gəlirlərinin artımı və sosial şəraitinin yaxşılaşması məqsədilə gələn ilin dövlət büdcəsində cəmi sosialyönlü xərclərin 17,1 milyard manat nəzərdə tutulması da bunun bariz ifadəsidir.

Sonda xatırladaq ki, 2026-cı ilin dövlət büdcəsində investisiyayönümlü dövlət proqramlarının maliyyə təminatı üçün kifayət həcmdə vəsait nəzərdə tutulur. Bu, onunla bağlıdır ki, hazırda Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradır. Zəngəzur dəhlizi isə həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat marşrutu kimi mühüm əhəmiyyət kəsb edir.

Zəngəzur dəhlizinin investisiyayönümlü əhəmiyyətindən danışarkən onu da qeyd edək ki, hesablamalara əsasən, Çindən Avropaya gedən yük qatarı bu dəhliz vasitəsilə 12 gün ərzində 7 min kilometr məsafə qət edir. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə adıçəkilən infrastrukturun nə qədər sərfəli və təhlükəsiz olduğunu göstərir. Halbuki eyni qatar Cənub Dəhlizi üzrə Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometrdən keçməli olur. Bu mənada Azərbaycan reallaşmasına töhfə verdiyi Orta Dəhliz öz imkanları ilə, şübhəsiz ki, region ölkələrinin koordinasiyalı əməkdaşlığı sayəsində dünya ticarətinin ən mühüm həlqələrindən biri kimi diqqət çəkir. Zəngəzur dəhlizinin də Orta Dəhlizə inteqrasiya ediləcəyi nəzərdə tutulur. Belə halda Azərbaycan ərazisindən illik, təxminən, 35 milyon ton yükün daşınmasına imkan yaranar.

***Vaqif BAYRAMOV***
***XQ***

---

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert**

2026-cı il dövlət büdcəsi Azərbaycan üçün həm sosial sabitlik, həm təhlükəsizlik, həm də iqtisadi dayanıqlılıq baxımından balanslaşdırılmış sənəd kimi qiymətləndirilə bilər. Büdcə aşağıdakı əsas strateji xətti özündə birləşdirir:

Büdcə sosial xərclərin prioritet saxlanması, yəni əhali qruplarının müdafiəsi, təhsil və səhiyyənin inkişafı, işğaldan azad edilmiş ərazilərin bərpası, bu sahədə uzunmüddətli iqtisadi genişlənmə üçün baza yaradılması, neftdən asılılığın azaldılması, qeyri-neft gəlirlərinin payının artması, Neft Fondu transfertlərinin azalması, borc yükünün aşağı səviyyədə saxlanması və infrastruktura, eləcə də qeyri-neft sektoruna investisiyalar yatırılması kimi əsas strateji istiqamətləri özündə birləşdirir. Büdcənin strukturu iqtisadi artımın dayanıqlılığını gücləndirməklə yanaşı, ölkənin sosial rifah və təhlükəsizlik prioritetlərini də balanslaşdırılmış şəkildə gerçəkləşdirir.

2026-cı il üçün təsdiq olunan dövlət büdcəsi layihəsi həm makroiqtisadi sabitliyin qorunmasını, həm sosial öhdəliklərin yerinə yetirilməsini, həm də orta və uzunmüddətli strateji hədəflərə uyğun fiskal çərçivənin formalaşdırılmasını əks etdirir. Büdcənin gəlirləri 38,6 milyard manat, xərcləri 41,7 milyard manat, kəsiri isə 3,1 milyard manat səviyyəsində proqnozlaşdırılır. Bu göstəricilər müvafiq olaraq ÜDM-in 28,8 faiz, 31,1 faiz və 2,3 faizinə bərabərdir ki, bu da Azərbaycan üçün təhlükəsiz fiskal zonaya uyğun göstəricilər hesab olunur.

Xərclərin ÜDM-ə nisbətdə 31,1 faiz, gəlirlərin 28,8 faiz olması büdcənin genişləndirici fiskal siyasət elementi daşıdığını göstərir. Bu, sosial və müdafiə xərclərinin artımı fonunda iqtisadi aktivliyi stimullaşdırmaq məqsədi güdür. Büdcənin həm xərclər strukturu, həm də gəlirlər üzrə formalaşma mənbələri ölkənin iqtisadi istiqamətləri, sosial siyasəti və strateji inkişaf prioritetlərini aydın şəkildə əks etdirir.

2026-cı ilin büdcəsi ənənəvi olaraq sosialyönlü xəttini qorumaqla yanaşı, bu sahədə əhəmiyyətli genişlənmə nümayiş etdirir. Dövlət büdcəsinin ümumi xərclərinin 41 faizi, cari xərclərin isə 68 faizi, yəni 17,1 milyard manat sosial sahəyə yönəldiləcək. Bu göstərici 2024-cü ilin icrası ilə müqayisədə 2,5 milyard manat və ya 17 faiz artım deməkdir. 2022-ci ildən başlanan ortamüddətli dövr ərzində artım isə 48 faizə çatır.

Sosial siyasətin bir qolu olaraq keçmiş məcburi köçkünlərlə bağlı xərclər 285 milyon manat səviyyəsində proqnozlaşdırılır ki, bu da Böyük Qayıdış proqramının sosial komponentinin gücləndirildiyini göstərir. Yeri gəlmişkən, işğaldan azad olunan ərazilərin bərpası 2026-cı ildə də büdcənin əsas prioritetlərindən biridir. Bu məqsədlə ayrılan vəsait 3,5 milyard manat və ya dövlət büdcəsi xərclərinin 8,4 faizi səviyyəsindədir. Layihələrin maliyyələşməsi həmin ərazilərdə infrastrukturun – yolların, enerji təchizatının, ictimai obyektlərin, yaşayış məntəqələrinin yenidən qurulmasını təmin edir. Bu, təkcə humanitar cəhətdən deyil, həm də iqtisadi genişlənmə üçün yeni regional mərkəzlərin formalaşması baxımından vacibdir.

Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi üzrə xərclər 1,2 milyard manat təşkil edir və bu, aqrar ÜDM-in 15 faizinə bərabərdir. Formalaşdırılan struktur ölkənin ərzaq təhlükəsizliyi ilə bağlı risklərin azalmasına, daxili istehsalın gücləndirilməsinə və suvarma infrastrukturunun səmərəliliyinə xidmət edir. Bu, iqtisadi artımın dayanıqlılığını təmin edən kapital qoyuluşlarının əsas istiqamətidir.

Onu da qeyd edim ki, 2026-cı ildə əsaslı vəsait qoyuluşu xərcləri 2,7 milyard manat səviyyəsində müəyyənləşdirilib. İnvestisiyalar enerji, qaz, su təchizatı, nəqliyyat və sosial infrastruktur layihələrini əhatə edəcək. Bu siyasət qeyri-neft sektorunda struktur dərinləşməsinə təkan verir. İnfrastruktur layihələri regionların iqtisadi potensialını artırır və özəl investisiya axınlarını stimullaşdırır.



# Ulu öndər gənclərə inanır və etibar edirdi

**Azərbaycan xalqının çağdaş tarixində müstəsna yeri olan, milli dövlətçilik ənənələrinin bərpası və möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlər göstərmiş ulu öndər Heydər Əliyevin anım günü hər il olduğu kimi, bu il də dərin hörmət və ehtiramla qeyd olunur. Onun adı Azərbaycan tarixinin taleyüklü dönəmlərində xalqa müdrik rəhbərliyin və milli lider ucalığının rəmzinə çevrilmişdir.**

Heydər Əliyev bütün həyatını xalqına, dövlətinə və millətinin gələcəyinə həsr etmiş tarixi şəxsiyyətdir. Ölkənin ən ağır çağlarında uzaqgörənliyi, qətiyyətli siyasi addımları və dəmir iradəsi ilə Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmiş, müasir, müstəqil və güclü dövlət quruculuğunun təməlini qoymuşdur. Bu zəngin irs bu gün də Azərbaycan cəmiyyətinin inkişaf xəttini müəyyənləşdirən əsas ideoloji dayaqlardan biridir.

Ulu öndərin ən böyük strateji hədəflərindən biri gənclərin dövlət həyatında fəal rol alması idi. Onun "Gənclər bizim gələcəyimizdir" fikri sadəcə bir şüar deyil, dövlət idarəçiliyində tam bir konsepsiyanın əsasını təşkil edirdi. Heydər Əliyev hakimiyyətə qayıdışından sonra ölkədə gənclərlə bağlı əsaslı islahatlara başlanıldı, yeni qurumlar yaradıldı, gənclərin təhsili, inkişafı və idarəçiliyə cəlbi dövlət siyasətinin prioritet istiqamətinə çevrildi.

1997-ci ildə Gənclər və İdman Nazirliyinin yaradılması, beynəlxalq təhsil proqramlarına açılan qapılar, minlərlə gəncin xarici ölkələrdə təhsil almasına göstərilən dövlət dəstəyi bu siyasətin nəticəsi idi. Onun rəhbərliyi ilə formalaşan gənclər siyasəti gənclərin yalnız gələcəyin sahibləri deyil, bu günün də aparıcı qüvvəsi olmasını təmin etdi. Vətənpərvərlik, dövlətçilik, milli-mənəvi dəyərlərə bağlılıq kimi prinsiplər gənc nəsil arasında geniş yayılaraq bu gün də öz mahiyyətini qoruyur.

Bu gün Azərbaycan dünya miqyasında güclü siyasi iradəyə malik, iqtisadi cəhətdən dinamik inkişaf edən, mədəni baxımdan öz sözünü deyən bir dövlətə çevrilibsə, bunun təməlləri məhz Heydər Əliyevin müəyyən etdiyi strateji xəttə dayanır. Bu kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ölkənin bütün sahələrində modern inkişaf modeli formalaşdırılır.

Ölkədə gənclərin idarəetməyə cəlb olunması, hərbi-vətənpərvərlik ruhunun gücləndirilməsi, yeni texnologiyalar və innovasiyalar sahəsində geniş imkanların açılması Heydər Əliyevin müəyyən etdiyi yolun məntiqi davamıdır.

Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə siyasi sabitlik qorunmuş, iqtisadi islahatlar genişləndirilmiş və dövlət idarəçiliyində yeni mərhələ başlanmışdır. Dövlət başçısının həyata keçirdiyi balanslı xarici siyasəti sayəsində regionun mühüm siyasi aktorlarından birinə çevrilən Azərbaycanda gənclərin inkişafına, innovasiyalara və modern idarəçiliyə xüsusi önəm verilir. Ordu quruculuğu sahəsində aparılan genişmiqyaslı islahatlar nəticəsində bu gün Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordularından biridir.

2020-ci ildə Azərbaycan Ordusunun əldə etdiyi tarixi Zəfər də məhz Heydər Əliyevin hərbi strategiyasının və ordu quruculuğunun nəticəsidir. Ulu öndər ordu quruculuğunu dövlət müstəqilliyinin əsas dayağı kimi qiymətləndirmiş, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi üçün mühüm addımlar atmışdı. Heydər Əliyevin müəyyənləşdirdiyi təhlükəsizlik konsepsiyası, milli ideologiya və hərbi-siyasi xətt Vətən müharibəsi zamanı özünün ən parlaq nəticəsini göstərdi.

Bu qələbə təkcə 44 günün deyil, uzun illər ərzində qurulan sistemli siyasətin bəhrəsi idi. Heydər Əliyevin anım günü yalnız bir xatirə və ya tarix səhnəsinin yad edilməsi deyil, bu, Azərbaycan xalqının milli kimliyinin, dövlətçilik şüurunun və gələcəyə inamının yenidən dərk edilməsidir. Onun qoyduğu irs, həyata keçirdiyi dövlət quruculuğu və xüsusilə gənclərə verdiyi dəyər gələcək nəsillərin yol xəritəsidir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq, onun ideyaları dövlətin inkişafında daim mayak kimi işıq saçacaq.

***Ələkbər HƏSƏNOV,***
***BDU-nun humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi***

# Qərbi Azərbaycan, Ermənistan və Paşinyan

**(əvvəli 1-ci səhifədə)**

"Əmması" bir neçə mətləbdədir. Həmin mətləblərə keçməzdən əvvəl bildirək ki, Avropa İttifaqı və Ermənistan arasında bu il dekabrın 2-də Brüsseldə keçirilmiş Tərəfdaşlıq Şurasının VI iclasında "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd imzalandı. Növbəti 7 il müddətində Brüssellə İrəvan arasında prioritetləri müəyyənləşdirən sənəddə bir çox mətləblər yer aldı. Ən başlıcası isə orada "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsi işlədildi və bildirildi ki, mövcud kateqoriyaya məxsus insanların "qaçqın" statusunda vurğulanmaları məsələsi Aİ və Ermənistan arasında tərəfdaşlıq prioritetidir. Azərbaycan Xarici İşlər Nazirliyi isə şərhində bu məqamın həm Bakı-İrəvan sülh prosesinə xələl gətirdiyini, həm də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığına mənfi təsir göstərdiyini açıqladı.

Əlbəttə, Paşinyan Hamburqdakı bəyanatı ilə daha çox ölkəmizin baş xarici siyasət idarəsinin yanaşmasına qarşı kontr-arqument səsləndirməyə çalışdı. Onun sözlərindən belə nəticə hasil oldu ki, Aİ-nin sənədində "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsinə yer verilməsi ölkəmizin "Qərbi Azərbaycan" ritorikasına cavabdır. Görünür, Nikol cavabının nə üçün legitimlik qazana bilməyəcəyini dərk etmir. Elə isə keçək "əmma"ya.

**Birincisi,** "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"dəki "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsi ayrıca siyasi deyim məhsuludur. Yəni bu ifadə heç də ölkəmizdəki "Qərbi Azərbaycan"la bağlı müzakirələrə cavab mahiyyəti daşımır və Paşinyanın bunu anlamaması qeyri-mümkündür. Ona görə də onun Hamburqda səsləndirdiyi və barəsində söz açdığımız mətləb siyasi manipulyasiyadan başqa bir şey deyil. Yəni Aİ-Ermənistan müştərək sənədindəki ifadə Cənubi Qafqazda barış mühitinə, konkret olaraq, Bakı-İrəvan sülh prosesinə nə qədər zərərlidirsə, Nikolun Azərbaycan XİN-nin etirazına münasibətdə dilə gətirdiyi kontr-arqument də bir o qədər ziyanlıdır. Çünki baş nazirin fikri səmimiyyətdən uzaqdır. Səmimiyyətsizlik isə etimad mühitinə mənfi təsir göstərir.

**İkincisi,** Azərbaycandakı "Qərbi Azərbaycan" ifadəsi özündə ərazi iddiası məntiqini daşımır. "Qərbi Azərbaycan", əslində sülh konsepsiyadır. Axı Ermənistanda azərbaycanlıların ermənilərlə barış mühitində yaşadıqları vaxtlar olub. Həmin vaxtlarda heç kəs, yəni heç bir azərbaycanlı ərazinin Ermənistandan alınıb Azərbaycana verilməsi iddiasını ortaya atmayıb. Habelə, heç bir azərbaycanlı düşünməyib ki, nə üçün yaşadığı yurd vaxtilə türk torpağı kimi tanınsa da, hazırda Ermənistan Respublikasının ərazisindədir. Halbuki, düşünə bilərdi və buna tam haqqı çatardı. Amma nə oldu? Bu insanlar öz dədə-baba yurdlarından didərgin salındılar. Özü də mövcud istiqamətdəki siyasət sistemli şəkildə, onilliklər ərzində həyata keçirildi.

Ermənistandakı azərbaycanlılardan fərqli olaraq, Azərbaycanda, yəni Qarabağda yaşayan ermənilər özlərini, yumşaq desək, yaxşı aparmadılar. Onlar Qarabağın öz tarixi sahibindən alınıb Ermənistana verilməsi ideyasını ortaya atdılar və bu ideyanın hansı acı nəticələrinin olduğu yaxşı məlumdur. İki Qarabağ müharibəsinin dəhşətləri hər şeyi özü deyir. Hələ erməni millətçilərinin azərbaycanlıları Kür çayınadək qovmaq "planlarının" olduğundan, bunun ideoloji məfkurə halına gətirilməsindən də xəbərdarıq...

**Üçüncüsü,** "Qərbi Azərbaycan" ifadəsinin ərazi iddiası məntiqini daşımadığını deyiriksə, bildirək ki, Göyçə, Zəngəzur, Vedibasar və digər hazırda Ermənistan ərazisindəki tarixi yer adlarımız və toponimlər daha çox ictimai-mədəni şüurumuzda strukturlaşmış vahidlərdir. Məsələn, aşıq sənətini götürək. Əlbəttə, aşıq sənəti el-oba həsrətini, niskilini və hətta yanğısını daşıyıb. Bu, tam normaldır. Digər tərəfdən, Ermənistanda indinin özündə də Bakı üçün burnunun ucu göynəyən sıravi ermənilər var. Birinin uşaqlığı, başqasının gəncliyi paytaxtımızın küçələrində keçib, hər birinin xatirələri və yaşantıları var. Necə deyəsən ki, bu adamların baxışları ərazi iddiasıdır? Mümkün deyil. Yəni Paşinyan və digər erməni liderləri anlamalıdırlar ki, həm bu ermənilərin, həm də Ermənistandan didərgin düşmüş azərbaycanlıların ahı Ermənistan adlı dövlətin üzərindədir, Azərbaycanın yox. Çünki ilk daşı atan biz olmamışıq.

Onu da deyək ki, Bakıda heç bir erməniyə gözün üstə qaşın var deyilməyib. Əksinə, 1988-ci ilin "Miatsum" avantürasınadək ermənilər paytaxtın ən yaxşı yerlərində yaşayıb, ən yüksək vəzifələrdə təmsil olunublar. Yeri gəlmişkən, keçmiş SSRİ-nin xoşbəxt günlərində də ayrı-ayrı hay millətçiləri həm Ermənistandakı azərbaycanlıları Azərbaycana köçürmək, həm də Qarabağı Azərbaycandan qoparmaq üçün müxtəlif "planlar" qurur, atışləməz yollara baş vururdular. Yaxşı olar ki, hazırkı Ermənistan rəhbərliyi bu məqamı da nəzərə alsın.

**Dördüncü** məqam. Bir halda ki, söhbət xalqın ictimai şüurundan gedir, Borçalı termini də var. O Borçalı ki, hazırda Gürcüstan ərazisindədir. O Borçalı ki, məktəbləşmiş struktura malikdir, xalq yaradıcılığını, aşıq sənətini, ədəbiyyatımızı təmsil edir. Amma indiyədək bir Gürcüstan azərbaycanlısı yaşadığı ölkədə separatçılıq fəaliyyəti gerçəkləşdirməyib. Əksinə, bu gün Gürcüstan azərbaycanlıları vətəndaşları olduqları ölkə naminə əzmlə çalışırlar. Bunu hər bir gürcü də görür, bütövlükdə Gürcüstan hakimiyyəti də. Eyni durum Ermənistanda da ola bilərdi. Amma olmadı. Bir daha deyək ki, günah bizdə deyil...

**Beşincisi,** Qərbi Azərbaycana qayıdış konsepsiyası dinc məqsədlidir və bu qayıdış Prezident İlham Əliyevin bəyan etdiyi kimi, tanklarla yox, şəxsi avtomobillərlə olacaq. Daha dəqiq desək, tanklarla yox,




avtomobillərlə qayıdış müəyyən iqtisadi inkişafın, şüur təkamülünün nəticəsində, mədəni səviyyənin, konkret olaraq, ermənilərin və azərbaycanlıların dinc bərgəyaşayış qaydalarının formalaşdığı, ümumən münasibətlərin normallaşdığı mühitdə mümkündür. Belə olduqda, tutalım, hansısa azərbaycanlı Ermənistandakı ata-baba yurdunu onun indiki sahibindən pulla da satın ala bilər. Bunda problemli nə isə varmı? Yox. Eləcə də hansısa erməni Bakıda, yaxud Azərbaycanın harasındasa vaxtilə yaşadığı evi satın almaq ixtiyarını özündə daşıyacaq. Almaniyada fransızların və ya ingilislərin, yaxud Britaniyada almanların və ya italiyalyanların evləri yoxdurmu? Var.

**Altıncısı,** "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"də "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsi işlədilirsə, bu məqamın sənədə rəsmi İrəvandan icazəsiz salınması mümkünsüzdür. Deməli, Paşinyanın Hamburqda səsləndirdiyi aşağıdakı fikirlər mənasızdır, səmimiyyətdən uzaq və siyasi populizmə hesablanıb: "Əgər biz qayıdış gündəliyini irəli aparmağa davam etsək, bu, Qarabağ hərəkatının yenidən başlanması demək olacaq. Amma mən artıq demişəm ki, biz Qarabağ hərəkatını davam etdirməməliyik. Qarabağ hərəkatı başa çatıb və onu bərpa etmək cəhdləri heç bir fayda verməyəcək".

Görəsən, "Qərbi Azərbaycan" ifadəsi Azərbaycanın hansısa beynəlxalq təşkilatla, yaxud dövlətlə imzaladığı sənəddə yer alıbmı? Bəs indiki həssas məqamda Ermənistan rəhbərliyi belə bir halın yaşanmasına necə icazə verə bilir? Bəs sülh gündəliyi? Axı Paşinyan və digər erməni rəsmiləri barışdan dəm vururlar. Belə çıxır ki, dedikləri sabun köpüyüdür. Başqa nə düşünək? Axı dövriyyəyə köhnə metodlar gətirilir.

Köhnə metodlardan söz düşmüşkən, yada salaq ki, bir vaxtlar Ermənistan rəhbərliyi "Laçın dəhlizi" ifadəsini beynəlxalq sənədlərə salmaq üçün dəridən-qabıqdan çıxırdı. Paşinyan administrasiyasının təmsilçilərinin düşüncəsi bu idi ki, dəhliz ifadəsi İrəvanın xeyrinə legitim əsas formalaşdırmaq gücündədir. Sonradan erməni iqtidarı Qarabağ erməniləri üçün beynəlxalq təminat məsələsi üzərində dayandı. O vaxt bölgədə artıq canını tapşırmış olan separatçı rejim qalır, Qarabağda kimlərsə özünü "prezident", "baş nazir", "spiker", "ombudsman" sayırdı...

2023-cü ilin lokal xarakterli antiterror tədbirləri sonrası bölgə erməniləri ərazini tərk etdilər və bu dəfə Ermənistan rəhbərliyi onların qayıdışı məsələsi üçün beynəlxalq təminat almağa girişdi. Əlbəttə, cəhdlər fayda vermədi və verə bilməzdi. Həmçinin, təsəvvür edin, həmin dönəmlərdə Ermənistan beynəlxalq məhkəmələrə Azərbaycan ərazisi Ağdamdakı bir tikilinin erməni abidəsi kimi təsdiqlənməsi üçün müraciət ünvanlamışdı. İddia təmin edilsəydi, bu, gələcəkdə həmin abidənin yerləşdiyi ərazinin də ermənilərə məxsusluğunu vurğulamağa imkan verəcəkdi. Hər halda, məkrin böyüklüyünün fərqinə vardınız.

Aydındır ki, bütün bunlar ərazi iddiası məntiqini yaşatmaq məramından qaynaqlanırdı. "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsi də təxminən eyni "məramа" söykənir. Yəni yaxşı olar ki, N.Paşinyan Avropa ictimaiyyətinin gözünə kül üfürməkdən uzaq durub mahiyyəti düzgün dəyərləndirsin. Özünü obyektiv şəxs, sülh qaranquşu qismində göstərmək imitasiyasından uzaq dursun.

**Yeddinci** məqam kimi "Qərbi Azərbaycan" mövzusunun nə üçün gündəmdə qalmalı olduğuna aydınlıq gətirək. Məsələ ondadır ki, Ermənistanda "Artsax" deyib siyasi hoqqabazlıq edən müxalif kəsim var. O kəsim ki, ölkə iqtidarına rəqibdir, hətta onu devirmək barədə planlar qurur. Heç şübhəsiz, belə "başbilənlərin" hay cəmiyyətində tərəfdarları da var. Təkcə Azərbaycana deyil, eyni zamanda, Türkiyəyə diş qıcamış bu çaqqalların qardaş ölkənin şərq torpaqlarını "Qərbi Ermənistan" adlandırdıqlarını da bilirik. Ərazi iddiasının erməni qövmünün, müasir dövrdə isə Ermənistan Respublikasının hərəkətverici ideoloji dayağı rolunda çıxış etdiyini də həmçinin. O da məlumdur ki, Qarabağ avantürası nəticə versəydi, erməni millətçiləri Türkiyə ilə mübarizəyə girişəcək qədər azğınlıq bəyanatları verirdilər.

Bəs Paşinyan ölkəsindəki sərsəm təmayüllərə qarşı nə isə edə bilirmi? Xeyr, bacarmır. Lap düşünək ki, o, nə isə etmək istəyir. Amma baş nazirin zamana ehtiyacının olduğunu anlayırıq. Zaman yetişəcəkmi, erməni cəmiyyətindəki pataloji xəstəlik tezliklə aradan qalxacaqmı, bu da qeyri-müəyyəndir. Belə olan halda, Azərbaycan nə üçün "Qərbi Azərbaycan" mövzusunu gündəmdə saxlamasın? Hazırda məsələ dinc konsepsiya mahiyyətinə malikdir, ancaq əgər Ermənistanda Azərbaycana qarşı ərazi iddiaları aktiv fazaya daxil olsa və xaricdəki ənənəvi hay havadarları bu "məqsədlə" hərəkətə keçsələr, o zaman biz də tarixi ədaləti yada salmaq məcburiyyətində qalacağıq. Axı unutqanlığımızın cəzasını çəkmişik.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsində unutqanlığımızın cəzasını sıravi ermənilər də çəkdilər. Axı Ermənistanda müharibədə itkin düşmüş övladlarını axtaran valideynlər var. Yəni Nikol və komandası bu məqamı da düşünməlidir.

**Sonda** Paşinyanın ərazi adlandırmaları xüsusunda Azərbaycandakı və Ermənistandakı mənfi saydığı təmayülləri sıradan çıxarmaq üçün irəli sürdüyü "yol xəritəsi" məntiqinə diqqət yetirək: "İndi mən birbaşa təklif edirəm və ümid edirəm ki, bunu elə tərcümə edərlər ki, ünvanına çatsın. Mən deyirəm: gəlin oturaq və bu mövzunun necə gündəmdən çıxarılacağına dair "yol xəritəsi" hazırlayaq. Çünki bu mövzunun gündəmdən çıxarılması uzunmüddətli strateji perspektivdə hər hansı münaqişə vəziyyətinin istisnası deməkdir".

Hesab edirik ki, Nikolun dərinə getməsi lüzumsuzdur. Ona ilk növbədə "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"dən başlamağı, sənədi redaktə edib, oradan "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsini çıxarmağı təklif edirik. Təklif və tələb edirik ki, rəsmi İrəvan Aİ ilə birləşib heç bir hayın "Azərbaycanın zülmündən qurtulmuş" qaçqın statusunda tanınmasına çalışmasın. Həm də ona görə çalışmasın ki, ölkəmizin Qarabağ ermənilərinə dəfələrlə təklif etdiyi reinteqrasiya təklifləri olub. Yəni Azərbaycan dövləti həmin ermənilərə yaşadıqları evlərdə qalmağın, vətəndaş kimi sərbəst, imtiyazlı ömür sürməyin mümkünlüyünü anladıb, təminat verib. Buna məhəl qoyulubmu? Xeyr!

Yəni, bir halda ki, Aİ Ermənistana və ermənilərə yardım göstərmək istəyir, hansısa təsnifatlandırma aparılmamalıdır. Nəhayət, hər addımda bir məntiq olmalıdır. Axı Qarabağ erməniləri deyilən təbəqə Ermənistan vətəndaşlarıdır. Onların böyük əksəriyyətinin vaxtilə mövcud olmuş Azərbaycan SSR-ə məxsus pasportu da yoxdur. Üstəlik, doğum yerləri ölkəmiz deyil. Azərbaycanda isə Ermənistan SSR-də doğulmuş 300 minədək şəxs – Qərbi azərbaycanlı var. Onlardır qaçqın, yoxsa Qarabağ erməniləri adlandırılan mahiyyətcə qurama məzmun daşıyan toplum? Deməli, Paşinyan "yol xəritəsi" niyyətini Azərbaycana deyil, Avropadakı dostlarına başa salmalıdır. Əlbəttə, əgər bunu bacaracaqsa...

***Ə.CAHANGİROĞLU***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 262 (30956) 12 dekabr 2025-ci il, cümə

# Ana dilimiz saf çeşmədir

## *Yad axarlar isə onu bulandırır*

***Ey öz doğma dilində danışmağı ar bilən fasonlu ədabazlar!***
***Qəlbinizi açmayır qoşmalar, telli sazlar?!***

*Bəxtiyar VAHABZADƏ*

**Son illər teleradio aparıcıların nitqində yad sözlərin sayı artıb. Bir vaxtlar yalnız sosial şəbəkədə rast gəldiyimiz “okey”, “sorry”, “no problem” “update” kimi əcnəbi ifadələr indi ən ciddi verilişlərə də yol tapır. Elə bir vəziyyət yaranıb ki, aparıcının danışığında yad kəlmələr eşitmək adi hala çevrilib.**

**Audiovizual Şuranın sədri İsmət Səttarov** bugünlərdə bildirib



ki, verilişlərin monitorinqi çətindir. Gündəlik efirə 800 saatlıq məhsul verilir. Buna baxmayaraq, noyabrın ilk 2 həftəsində radio və televiziyalarda ən çox istifadə olunan əcnəbi sözlər izlənərək onların siyahısı hazırlanıb. Məsələn, "okey" ifadəsini aparıcılar 104 dəfə işlədiblər:

– Ümumilikdə, dinləmə zamanı 3 minə yaxın əcnəbi sözdən istifadə edilməsi qeydə alınıb. Yanvar ayından belə sözləri toplayaraq teleradio qurumlarına məlumat göndərəcəyik ki, aparıcıların ana dilinə münasibətlərini bilsinlər, aparıcılar isə nəticə çıxarsınlar ki, 3 aydan sonra qanunvericilikdən irəli gələn tədbirlər görəcəyik. Qanunda cərimələr var. İstəmirik ki, cəza tətbiq edək. Nəzəri baxımdan problemlərimiz də çoxdur. Bəzən elə suallar çıxır ki, buna biz də cavab verə bilmirik. Alimlərin, müvafiq qurumların dəstəyi lazım olacaq.

Danışıq mədəniyyəti dilin taleyini müəyyən edir. Bugünkü efir ritminə isə yad melodiyanın qarışması açıq hiss olunur. Xüsusilə, gənc aparıcıların danışığında bu meyil daha kəskin görünür. Sanki yad sözlərdən istifadə daha cəlbedici, təsirli hesab edilir. Halbuki efir hər kəsin önündə sınağa çəkilən platformadır və burada işlənən hər söz həm cəmiyyətin nitqinə, həm də dilə münasibətdə milli təəssübkeşliyə aşındırıcı təsir göstərir.

“Öz dilim yaşarsa, millətim yaşar” – Bəxtiyar Vahabzadənin bu poetik xəbərdarlığı milli varlığı qorumağa xidmət edir. Dil yaşadıqca millət yüksəlir, dil zəiflədikcə onun yaddaşı və özünüdərki tədricən kütləşir. Əgər efirdə yad sözlərin sayı belə artmağa davam edərsə, – danışıq mədəniyyəti məhz bu qarışıq ritmin içində formalaşacaq.

Niyə aparıcıların bir qismi əcnəbi ifadələrə üz tutur və bu tendensiya davam edərsə, bizi gələcəkdə nə gözləyir ?

**Əməkdar jurnalist, BDU-nun jurnalistika fakültəsinin kafedra müdiri, professor Qulu Məhərrəmli**



qeyd etdi ki, aparıcıların dilə yanaşma tərzi onların peşəkarlığının əsas göstəricilərindəndir:

– Televiziya aparıcılarının danışığı, dili və davranışı müəyyən mənada cəmiyyət üçün nümunədir. Buna görə də aparıcıların nitqinə, danışıq tərzinə və ümumi ünsiyyət mədəniyyətinə xüsusi diqqət yetirməsi zəruridir. Əslində bu məsələyə yanaşanda aparıcıları iki kateqoriyaya bölmək mümkündür: xəbər və sərbəst formatlı verilişlərin aparıcıları.

Xəbər aparıcıları, əsasən, hazır mətn əsasında efiri idarə edirlər. Sərbəst verilişlərdə – analitik proqramlarda, debatlarda və ya əyləncə formatlarında isə aparıcının nitqi, söz seçimi və sərbəst danışıq bacarığı birbaşa üzə çıxır. Məhz bu ikinci kateqoriyada alınma sözlərə daha çox rast gəlinir.

Əgər alınma sözdən istifadə həqiqətən lazım gəlirsə və Azərbaycan dilində onun dəqiq qarşılığı yoxdursa, əlbəttə, işlədilə bilər. Lakin çox vaxt efirlərdə, xüsusilə sərbəst verilişlərdə aparıcılar bu zərurəti düzgün qiymətləndirmir və dilimizdə kifayət qədər anlaşıqlı alternativi olan sözlərin yerinə əcnəbi ifadələr seçirlər.

Yad sözlərin istifadəsi dinləyicidə ana dilini kifayət qədər “cazibədar” saymamaq kimi yanlış bir fikir yarada bilər. Nitqin məzmunu nə qədər dərin və əhatəli olsa da, söz seçiminin səthi və yad elementlərlə dolu olması onun təsir gücünü xeyli azaldır. Aparıcılar üçün əsas qayda odur ki, hər bir söz məqsədəuyğun, mənaya xidmət edən və dilə hörmətlə seçilsin.

Bu yanaşma Üzeyir Hacıbəyovun məşhur fikri ilə də üst-üstə düşür. O deyirdi ki, alınma sözlə öz sözümüz arasında tərəddüd yarananda, elə sözü seçmək lazımdır ki, fikri daha dəqiq və dürüst ifadə etsin. Yəni məsələ hansı sözün daha dəqiq, daha məntiqli olduğuna doğru yönəlməlidir.

Bütün bunlar aparıcıların qarşısında çox konkret və ciddi tələblər qoyur. Efirdə uğurlu çıxış yalnız texniki bacarıqla məhdudlaşmır; aparıcının yüksək dil qabiliyyətinə malik olması, toxunduğu mövzunun mahiyyətini dərindən anlaması və söz seçiminə peşəkar yanaşması vacibdir. Nitqin həm məzmun, həm də bədii ifadə baxımından tam çatdırılması üçün geniş söz ehtiyatı, mütaliə və intellektual hazırlıq tələb olunur.

Təəssüf ki, bəzən aparıcılar cəmi 30–40 sözlük məhdud leksikona söykənərək efirə çıxırlar ki, bu da onların nitqini həm monoton, həm də məhdud edir. Əksinə, geniş mütaliəyə malik, dil duyğusu yüksək aparıcılar efirdə sözləri dəqiq seçir, fikri düzgün strukturlaşdırır və dinləyici ilə effektli ünsiyyət qurur. Nitqin bu keyfiyyətləri yalnız təcrübə ilə formalaşmır, burada aparıcının intellekti, peşəkar bacarığı və dilin incəliklərinə olan həssaslığı həlledici rol oynayır. Nəticə etibarilə, aparıcının peşəkarlığını müəyyən edən dil bilgisi və sözün gücünü anlamaqdır. Çünki efir həm ona, həm də cəmiyyətə aid məsuliyyətdir.

**“Azad Azərbaycan” teleradio kompaniyasının ictimai-siyasi verilişlər departamentinin redaktoru Aygün Rəhimova** vurğuladı ki, xəbər proqramlarında aparıcıların nitqi xüsusilə səlis və aydın olmalıdır. Bir yalnış ifadə ciddi ictimai-siyasi pozuntu yarada bilər:

– Mətnlər hazırlanarkən əsas məqsəd ondan ibarətdir ki, əcnəbi sözlərdən yalnız zəruri hallarda istifadə olunsun. Əgər həmin sözlərin Azərbaycan dilində tam qarşılığı varsa, mütləq onlardan yararlanırıq. Xarici sözlərin yazılışını isə Azərbaycan dilində səsləndirmə formasında qeyd edirik ki, dinləyicilər üçün anlaşılmazlıq yaranmasın.

Ümumiyyətlə, yad sözlər yalnız 3 halda istifadə edilməlidir: söz beynəlxalq səviyyədə tanınıb geniş istifadə olunursa; Azərbaycan dilində onun dəqiq qarşılığı yoxdursa; texnologiya və elm sahəsində yaranan yeni terminlər üçün (məsələn, “kompüter”). Bu yanaşma dilin zənginliyini qorumağa xidmət edir.



Verilişlərdə aparıcıların səhvə yol verdiyi məqamlardan biri də rus dilinin təsiri ilə formalaşmış sözlərdən istifadədir. Son dövrlərdə isə bu tendensiya türk mənşəli sözlərin də yerli, kontekstdən kənar istifadəsində özünü göstərir. Belə hallarda çalışırıq ki, aparıcılar düzgün məlumatlandırılsın, sözün Azərbaycan dilində səsləndirilmə forması onlara izah edilsin. Eyni zamanda, Avropa dillərindən rus dili vasitəsilə Azərbaycan dilinə keçən sözlərin yazılışı və tələffüzündə də tez-tez yanlışlıqlar müşahidə olunur.

Aparıcıların nitqində tez-tez rast gəlinən arzuolunmaz hallarından biri də “hansı ki” sözünə üstünlük vermələridir. Rus dilindəki “который” sözünün mürəkkəb cümlədəki mənası olan “hansı ki” sözü dilimizə yamaqdır.

TV-də xəbər aparıcılarının nitqi daim nəzarət altındadır. Söz seçiminə və səsləndirməyə həsaslıqla yanaşılır. Formatından asılı olmayaraq, aparıcılar dedikləri hər bir sözün məsuliyyətini daşımalıdır. Ləhcə və şivələrdən, vulqar sözlərdən istifadəyə yol verilməməlidir. Xüsusi mübahisə yaradan məsələlərdən biri də rus və Avropa mənşəli sözlərin həmin dillərin vurğusuna uyğun deyilməməsidir; bu zaman tələffüzdə yanlış vurğu və hətta ikitirəlik yaranır. Yəni söz həm həqiqi dilin vurğusunu qorumağa çalışır, həm də Azərbaycan dilində tələffüz edilir və nəticədə səs harmoniyası pozulur, söz qarışıq səslənir.

Jurnalistlərin nitqində tez-tez rast gəlinən digər yanlışlardan biri də pleonazmlardan istifadədir. Pleonazm eyni mənanı verən sözlərin və ya şəkilçilərin artıq işlədilməsi deməkdir ki, bu da nitqi həm lazımsız uzadır, həm də estetik baxımdan zəiflədir. Məsələn, “ilk öncə” ifadəsi və ya “keçmiş SSRİ” buna nümunədir.

Aparıcılar əcnəbi sözləri düzgün və məqsədəuyğun kontekstdə işlətmək üçün, ilk növbədə, Azərbaycan dilini dərindən bilməli və hər bir sözün mənasını, kökünü və funksiyasını anlamalıdırlar. – Nitqdə peşəkarlıq yalnız düzgün söz seçimi ilə ölçülmür, burada intonasiyanın, vurğunun, cümlə ritminin və mənalı ifadənin uyğunluğu da əsas rol oynayır. Canlı efirin və geniş dinləyici auditoriyası nəzərə alınsa, aparıcıların dil və nitq mədəniyyətinə məsuliyyəti xüsusilə böyükdür. Onların hər bir sözü həm informasiya ötürür, həm də cəmiyyətin danışıq mədəniyyətinə nümunə olur. Buna görə də dilin düzgün istifadəsi, əcnəbi sözlərdən məqsədəuyğun istifadə və milli ifadə vasitələrinin zənginliyi aparıcı üçün yalnız peşəkarlıq göstəricisi deyil, həm də milli mədəniyyətin qorunmasına verdiyi töhfədir.

**“ASAN radio”da aparıcı-redaktor Venera Vahabzadə** bildirdi ki, radioda efir söz və səs üzərində qurulduğu üçün hər bir ifadə dinləyici tərəfindən dərhal qavranılır. Burada aparıcının dili həm informasiya daşıyıcısı, həm də mədəni nümunə rolunu oynayır:

– Bu gün radiolarda yalnız səsi xoş gələn insanları aparıcı kimi efirə dəvət edirlər. Əgər qulağa yatımlı, rahat eşidilən səsi varsa, bir çoxları düşünür ki, o şəxs yaxşı radio aparıcısı olacaq. Təbii ki, bu yanaşma yanlışdır. Həmin şəxslərin nitq qabiliyyətinə, danışıq üslubuna və savadına diqqət yetirmək lazımdır.

Mütailə vərdişinin az olması və söz ehtiyatını artırmaq üçün fərqli mənbələrdən yararlanmamaq bu problemi daha da dərinləşdirir. Məsələn, “TikTok” və digər sosial media platformalarında daha çox vaxt keçirən bir aparıcı təbii ki, efirdə orada eşitdiyi ifadələri və gündəlik danışıq üslubunu daha çox təkrarlayacaq. Bu, sanki avtomatik baş verən prosesdir və aparıcının nitqinə sosial medianın təsirini açıq göstərir.




Bu yaxınlarda radiolardan birində aparıcının “təşəkkür” sözünü efirdə qısaldılmış formada, “t-ş-k” kimi səsləndirdiyini eşitdim. Sonradan bəlkə zarafata salaraq açıqlama verdi, amma bu cür hallar dinləyici üçün artıq yükə çevrilir. Efir zamanı aparıcılara çox qısa vaxt ayrıldığı üçün hər dəqiqə dəyərli olmalıdır, bu vaxtı dinləyicilərə faydalı və informativ məzmun çatdırmaq üçün səmərəli istifadə etmək lazımdır. Musiqi və əyləncəli verilişlər əlbəttə ki, vacibdir, amma onlar yalnız səviyyəli, savadlı və düşünülmüş şəkildə təqdim olunarsa, efir həm maraqlı, həm də dəyərli olur.

“ASAN radio” dilimizin inkişafına və ana dilimizin qorunmasına xüsusi önəm verir. Bu məqsədlə hazırladığımız “Ana dili” rubrikası xüsusilə diqqət çəkir. Rubrikada müxtəlif sözlərin və ifadələrin düzgün yazılışı, tələffüzü, vurğusu, mənşəyi—ərəb, fars, rus və Avropa dilləri ətraflı izah olunur. Bundan əlavə, verilişlərimizdə dilin zənginliyi və düzgün istifadəsi ilə bağlı müxtəlif mövzulara toxunur, ekspertlər dəvət edir, interaktiv sual-cavab sessiyaları təşkil edirik.

Əgər hər aparıcı nitqində məsuliyyətini anlayacaq, sözünü diqqətlə seçəcək və ana dilini yaşadacaqsa, efirlər həm informativ, həm də estetik baxımdan zəngin olacaq.

**Yazıya epiqraf seçdiyimiz misraların davamında Xalq şairi Bəxtiyar Vahabzadə ana dilində danışmağı ar bilənləri belə lənətləmişdi: “Vətən çörəyi sizlərə qənim olsun!”**

*Fidan ƏLİYEVA*
*XQ*

## İDMAN

### Çempionlar Liqasında VI turun yekunu

**UEFA Çempionlar Liqasının əsas mərhələsində VI turun oyunları başa çatıb. İkinci oyun günündə daha 9 qarşılaşma keçirilib.**



Xəbər verdiyimiz kimi, Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüşdə ölkəmizin yeganə təmsilçisi Ağdamın “Qarabağ” klubu bu mərhələdə Niderlandın “Ayaks” komandasına 2:4 hesabı ilə məğlub olub. İspaniya nəhəngi “Real” (Madrid) doğma azarkeşləri önündə İngiltərənin “Mançester Siti” klubu ilə üz-üzə gəlib. Qonaqlar daha yaxşı oyun nümayiş etdirərək 2:1 hesabı ilə qalib gəliblər. Turun digər qarşılaşmalarında aşağıdakı nəticələr qeydə alınıb:

“Vilyarreal” (İspaniya) – “Kopenhagen” (Danimarka) 2:3, “Atletik” (İspaniya) – PSJ (Fransa) 0:0, “Bayer 04” (Almaniya) – “Nyukasl” (İngiltərə) 2:2, “Benfika”, (Portuqaliya) – “Napoli” (İtaliya) 2:0, “Brügge” (Belçika) – “Arsenal” (İngiltərə) 0:3, “Borussiya” (Dortmund, Almaniya) – “Budyo Qlimt” (Norveç) 2:2, “Yuventus” (İtaliya) – “Pafos” (Kipr) 2:0.

Liqa mərhələsinin növbəti oyunları yanvarın 20-21 və 22-də keçiriləcək. “Qarabağ” bu turda Almaniyanın “Ayntraxt” (Frankfurt) klubunu qəbul edəcək. Təmsilçimiz Liqa mərhələsinin son turunda yanvarın 29-da İngitərədə “Liverpul”un qonağı olacaq.

### 3 boksçumuz yarımfinalda

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində boks üzrə dünya çempionatında 1/4 final mərhələsinin döyüşləri keçirilib. Azərbaycan millisinin 3 idmançısı mərhələni qələbə ilə başa vurub.**

Sübhan Mamedov (48 kq) Şodiyorjon Melikuzyevdən (Özbəkistan) güclü olub. Avropa çempionumuz rəqibini 5:0 (30:27, 29:28, 29:28, 29:28, 30:27) hesabı ilə məğlub edib. O, yarımfinalda Sahil Alahverdovi (Gürcüstan) ilə döyüşəcək.

Alfonso Dominqes (92 kq) də 1/4 finaldan qalib ayrılıb. Dünya çempionumuz Andrey Zaplitnini (Moldova) mübarizədən kənarlaşdırıb – 5:0 (30:27, 30:26, 30:27, 30:27, 30:27). Dominqes növbəti görüşündə Turabek Xabibullayevlə (Özbəkistan) münasibətinə aydınlıq gətirəcək.

Məhəmməd Abdullayev (+92 kq) isə Dovlet İslamov (Türkmənistan) üzərində qələbə qazanıb – 5:0 (30:27, 30:27, 30:27, 29:28, 30:27). Dünya çempionatının mükafatçısı yarımfinalda David Surovu (Rusiya) sınağa çəkəcək.

Hər 3 boksçu yarımfinala vəsiqə qazanmaqla özü üçün azı bürünc medalı da təmin edib.

Qeyd edək ki, dünya çempionatına dekabrın 13-də yekun vurulacaq.

### Qadın millimiz FIFA 74-cüsüdür

**Qadın futbolçulardan ibarət Azərbaycan millisi 2025-ci ildə FIFA reytinqini 74-cü pillədə başa vurub. Ali futbol qurumunun rəsmi saytının məlumatına görə, yığmanın hesabında 1318.261 xal var.**



Millimiz bir neçə gün əvvəl Siyasət Əsgərovun rəhbərliyi ilə Banqladeşdə keçirilmiş “FIFA Tri Nations Women”s Football Series 2025” turnirinin qalibi olub.

Qeyd edək ki, FIFA reytinqinin ilk pilləsində İspaniya seçməsi (2094.891) yer alıb. İkinci yerdə ABŞ millisi (2057.583), üçüncü sırada isə Almaniya (2010.797) qərarlaşıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ “STİL” MTK tərəfindən Qaraşova Sevil Eyvaz qızının adına verilmiş müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır. Ünvan - Bakı şəhəri, Xətai rayonu, Xudu Məmmədov küçəsi, bina 1/2, mənzil 163.*

## HAVA

### Bəzi rayonlarda yağış, dağlıq ərazilərdə qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturunun gecə 6-9, gündüz 10-13 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 3-7, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3589
SİFARİŞ 2329
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00